Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 02 (6144) 16 yanvar 2026-cı il | Qiyməti 40 qəpik

# ANA... VƏTƏN... DÖVLƏT...



## Hikmət Hacıyev Ukrayna səfiri ilə strateji tərəfdaşlığı müzakirə etdi



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ukrayna səfiri Yuri Qusevlə görüşərək strateji tərəfdaşlığı müzakirə edib.**

Adalet.az xəbər verir ki, bu barədə səfir "X" hesabında yazıb.

O qeyd edib ki, görüş çərçivəsində 2025-ci il nəticələri və 2026-cı ildə strateji tərəfdaşlığı daha da gücləndirmək üçün addımlar müzakirə edilib.

"Azərbaycanın Ukraynaya davamlı dəstəyinə görə minnətdarıq", - Y.Qusev əlavə edib.

## Zəngəzur dəhlizi 2030-cu ilə qədər istismara verilə bilər

**224 kilometr uzunluğundakı Qars-Iğdır-Aralık-Dilucu dəmir yol xətti Zəngəzur dəhlizi üçün əhəmiyyətlidir.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu "Anadolu" agentliyinə müsahibəsində bildirib.

O, Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı işləri davam etdirdiyini qeyd edib: "Naxçıvan tərəfdə də yarımçıq qalan işlər var. Azərbaycan tərəfi yəqin ki, bu il onların icrasına başlayacaq".

Nazir Zəngəzur dəhlizinin tikintisində ABŞ-ın iştirakını da vurğulayıb.

Abdulkadir Uraloğlunun sözlərinə görə, Türkiyə tərəfi bu il üçün orada irəliləyiş gözləyir.

Nazir əlavə edib ki, bununla da Zəngəzur dəhlizi 2030-cu ilə qədər istismara verilə bilər.



## QƏZƏNFƏR AĞAYEV HƏLƏ DƏ ASTARANIN İCRA BAŞÇISIDIR

BİZDƏ OLAN DƏQİQ MƏLUMATA GÖRƏ, MASALLIDA DA İCRA HAKİMİYYƏTİ VAR. AMMA DİGƏR RAYONLARDA OLDUĞU KİMİ, ONUN DA ƏLİNDƏ HEÇ BİR SƏLAHİYYƏT YOXDUR. ADINI AXTARIB TAPMAĞA ƏRİNDİM, NÖVBƏTİ NÖMRƏLƏRDƏ ƏRİNMƏRƏM, TAPIB YAZARAM.

## *GUYA SİZİ SAYAN VAR Kİ?!*

**Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirliyi və Qətər dünyanın bir nömrəli vor zakon dövlətinin başçısına (bildiniz söhbət kimdən gedir) müraciət ediblər ki, İrana hücum eləməsin.**

Əslində dünyanın bir nömrəli vor zakon dövləti İrana hücum etməyəcək, hədə-qorxu gəlir.

**Belə getsə cənab Tramp Venesuelanın prezidenti Maduronu xanımı ilə bir yerdə götürdüyü kimi, Danimarkanın baş naziri xanım Mette Frederikseni də əriylə bir yerdə çırpışdıracaq.**



## *Qarabağda aşkarlanan minaların sayı açıqlandı*



**Azad olunan ərazilərdə 2025-ci il ərzində 1861 tank əleyhinə mina, 4 min 963 piyada əleyhinə mina, 52 min 392 partlamamış hərbi sursat (PHS) aşkarlanıb və zərərsizləşdirilib.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) məlumat yayıb. Bildirilib ki, 69 205,7 hektar ərazi minalardan təmizlənib.

Qeyd edək ki, minatəmizləmə əməliyyatlarını ANAMA, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi (FHN) və Dövlət Sərhəd Xidməti (DSX) və dörd özəl şirkət Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Şuşa, Xocavənd, Laçın, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan ərazilərində həyata keçirib.

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***



# *HARDA QALDI, GƏLMƏDİ...*

*Şahlar şahı Ağaməhəmməd şah Qacara rusların fitvası ilə öz sərkərdələri sui-qəsd edəndə o böyük sərkərdənin axırıncı sözü bu olmuşdu: "Neylədiz, İranı viran qoydunuz!" İndi də İran viran günündədi. İki həftədən çoxdur ki, ölkə zənci saçına dönüb. Belə demək mümkünsə, nə it yiyəsin tanıyır, nə də yiyəsi itin.*

*Politoloqların, siyasi şərhçilərin də hərəsinin ağzından bir avaz gəlir, eləcə də Avropadakıların. Biri deyir Rza şahın oğlu gəlsin, biri deyir Qacar nəslindən kimsə varsa o gəlsin, biri deyir bəhmənkəs, biri də deyir ABŞ gəlsin. Yəni kənarda dayanıb İrana umac ovurlar. Hələ ki, üfüqdə də bir lider görünmür, deyəsən, heç yoxdu da.*

*Yadıma it ilində olan bir hadisə düşdü. Bir Çöhrəqanlı vardı, guya güney azərbaycanlıların lideri idi, həbs olunmuşdu. 10 min dollar girov qoysaydı həbsdən azad ediləcəkdi. O pul nə özündə vardı, nə də qırx milyonluq Azərbaycan türkü o pulu yığıb onu xilas etmək fikrində deyildi.*

**Bax:səh-2**

***Rüstəm Hacıyev***

## Kuba təşvişə düşüb...

**Bax:səh-3**

# Azərbaycanda Enerji Effektivliyi İnformasiya Sistemi yaradılıb



**Azərbaycanda Enerji Effektivliyi İnformasiya Sistemi yaradılıb.**

Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi ”Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Qanuna edilən dəyişiklikdə öz əksini tapıb.

Qanuna əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) enerji effektivliyi informasiya sistemi vasitəsilə enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarəti, enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət, informasiya təminatı və maarifləndirmə, effektivlik potensialının qiymətləndirilməsi, binaların enerji effektivliyi üzrə pasportlaşdırılmasinin təşkili, habelə məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektlərinin və qeyri-yaşayış binalarının siyahısının, enerji effektivliyi üzrə xidmətlərin icraçılarının siyahısının və enerji effektivliyi üzrə xidmətlərin mövcud vəziyyətinə və inkişafına dair hesabatın yerləşdirilməsi təmin etməlidir.

”İnformasiya əldə etmək haqqında” Qanunla müəyyən edilmiş əldə olunması məhdudlaşdırılan informasiya istisna olmaqla yuxarıda nəzərdə tutulan informasiya sisteminə daxil edilən məlumatlar ictimaiyyət üçün açıqdır və ”İnformasiya əldə etmək haqqında”, ”İnformasiya, informasiyalaşdırma ve informasiyanın mühafizəsi haqqında”, ”Dövlət sirri haqqında”, ”Fərdi məlumatlar haqqında” və ”Elektron imza və elektron sənəd haqqında” qanunların tələbləri nəzərə alınmaqla mühafizə və istifadə olunmalıdır.

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) enerji effektivliyinin yüksəldilməsi üçün enerji effektivliyi informasiya sisteminin əsasnaməsini müəyyən etməlidir.

Bununla yanaşı, təşkilati-hüquqi və mülkiyyət olmayaraq formasından asılı məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektlərinin və qeyri-yaşayış binalarının siyahısı enerji effektivliyi informasiya sisteminə daxil edilən enerji istehlakçısına və illik enerji istehlakına dair məlumatlar (enerji istehlakçısı hüquqi şəxs olduqda adı, fiziki şəxs olduqda soyadı, adı, atasının adı, istehlakçı kodu, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, ünvanı, fəaliyyət sahəsi, illik enerji istehlakının miqdarı) və ya tikinti sahəsinə və onun mülkiyyətçisinə dair məlumatlar (qeyri-yaşayış binasının təyinatı, mərtəbələrin sayı, tikinti sahəsinin və ümumi sahəsinin ölçüləri, mülkiyyətçisi hüquqi şəxs olduqda adı, fiziki şəxs olduqda soyadı, adı, atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, ünvanı), habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi meyarlar əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq etməlidir.

Bildirilib ki, Enerji Effektivliyi İnformasiya Sisteminin beynəlxalq təcrübəyə uyğun olaraq enerji səmərəliliyinin təmin edilməsi sahəsində məqsəd və hədəflərə nail olunması məqsədilə müəyyən olunmuş vəzifələrin icrasına nəzarət, eləcə də həyata keçirilən tədbirlər və əldə edilmiş nəticələrin hesabatlılığı, monitorinqi və qiymətləndirilməsi məqsədilə yaradılması nəzərdə tutulur.

Müvafiq elektron platformanın yaradılması enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlətin qarşısında duran vəzifələrin daha səmərəli həyata keçirilməsi, vətəndaşların müvafiq sahədə aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq imkanının yaradılması, eyni zamanda zəruri məlumatların təqdim edilməsi və əldə edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Sistemin yaradılması bu sahədə informasiyanın şəffaflığının artırılmasına, dövlət xidmətlərinin səmərəliliyinin yüksəlməsinə və enerji səmərəliliyi sahəsində qanunvericiliyin effektiv icrasına və ona nəzarət olunmasına xidmət etməlidir.

İnformasiya sistemi enerji səmərəliliyi sahəsində dövlət siyasətinin icrasına nəzarəti həyata keçirməyə, müvafiq sahədə elektron xidmətləri göstərməyə və icra göstəricilərini operativ almağa kömək edəcək. Belə ki, sistem üzərindən enerji auditorunun ixtisas attestatının alınması məqsədilə müraciətlər qəbul ediləcək, sistemdə enerji auditorları və enerji auditi təşkilatlarının reyestri əks olunacaq, enerji istehsalı, təchizatı və istehlakına nəzarət subyektləri hesabatlarını yerləşdirməlidirlər.

İnformasiya sisteminin ictimaiyyətə açıq hissəsində əhali üçün enerji səmərəliliyinə dair maarifləndirici məlumatların, enerjiyə qənaət kalkulyatorunun, enerji istehlakına dair statistikanın və sair yerləşdirilməsi nəzərdə tutulur.

Dövlət başçısı müvafiq Qanunun icrası ilə bağlı Fərman imzalayıb.

# Azərbaycan XİN TRIPP icrası üzrə çərçivə sənədini şərh etdi

**”Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun” (TRIPP) icrası üzrə çərçivə sənədinin qəbul edilməsi avqustun 8-də Vaşinqton sammiti çərçivəsində əldə olunmuş razılıqlara ABŞ tərəfinin sadiqliyini bir daha nümayiş etdirməklə yanaşı, bu sahədə əməli işlərə başlamaq üçün mühüm addımdır.**



Adalet.az xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə sözügedən sənədi şərh edərkən deyib.

O bildirib ki, bu, eyni zamanda, Ermənistanın üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi baxımından əhəmiyyət kəsb edir:

”Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi ölkəmizin əsas prioritetlərindən biridir. TRIPP marşrutu bununla yanaşı, daha geniş bölgədə ticarət və bağlantıların şaxələndirilməsi baxımından vacibdir”.

# "İki dövlətin sayəsində yeni dünya nizamının yeni yolları açılacaq..."



**”34 il əvvəl türk XİN Azərbaycanla diplomatik münasibətlər qurduğunu açıqladı. Hazırda dünyada elə bir model tapmaq mümkün olarmı ki, Ankara-Bakı qardaşlığını təkrar edə bilsin. Zəfərin əldə edilməsi, Bakı paradı, Şuşa Bəyannaməsi, BTC, Türk Dövlətləri Təşkilatı və nəhayət, Zəngəzur dəhlizi. İki böyük lider əl-ələ verib, od çəmbərinin ortasında sabitlik adası qurublar.Zəngəzur dəhlizi ilə yüz illik tarixin gedişatını dəyişdirib, şərqi- qərbə, şimalı - cənuba bağlayacaqlar”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

O, türk dünyasının birləşmək üzrə olduğunu deyib:

”Orta Asiyanın inanılmaz insani və maddi resursu Qafqazlardan keçərək Anadolu ilə birləşəcək. İki liderin çiynində amansız müharibələrlə keçən türk imperiyalarının tarixinin, düşmənliyinin belə dəyişdirilməsi missiyası daşınır. Dünyanın üçüncü böyük ekonomisinə doğru gedirlər. Parçlanan dünyada birləşən türk elllərinin 34 illik yaşıdır əslində. Zaman bizə şahid olsun!İKi qardaşın sıx tutan əli hələ çox şanlı tarixi mərhələlərə meydan olacaq! Bir də bu var: Türkiyə və Azərbaycansız gələcək dünya, hava və su qədər lazım olan yollar mümkün deyil. İki dövlətin sayəsində yeni dünya nizamının yeni yolları açılacaq. Tarixdə ilk dəfədir ki, dünya quruculuğunda iştirak edirik”.

**Eldar**

# Paşinyan: Azərbaycandan benzin idxalı bazarımızda...



**Azərbaycandan Ermənistana benzin idxalı ölkə bazarında yanacağın qiymətinin 15 % aşağı düşməsinə səbəb olub.**

Adalet.az Ermənistan mediasına istinadən xıbır verir ki, bu barədə ölkənin Baş naziri Nikol Paşinyan bildirib.

”2025-ci ilin dekabr ayının ortalarından etibarən Ermənistana Azərbaycan istehsalı olan benzin idxal olunmağa başlayıb. Azərbaycandan əsasən ”Premium” markalı benzin idxal olunur. Ermənistan bazarında bu növ benzinin qiyməti 15 % aşağı düşüb (bir litr üçün 510 dram əvəzinə 430 dram)”, - o deyib.

Baş nazir qeyd edib ki, iki gün əvvəl Azərbaycandan Ermənistana dizel yanacağı idxal olunub.

”Dizel yanacağı 2 % ucuzlaşıb. ”Regular” markalı benzinin qiyməti də dekabrla müqayisədə təxminən 8 % azalıb (11 dekabr tarixinə bu benzin növünün bir litri 500 dram idisə, indi 460 dramdır). Bu, sülh gündəliyinin nəticələri və faydalarıdır”, - N.Paşinyan vurğulayıb.

**AQİL ABBAS**

# HARDA QALDI, GƏLMƏDİ...

*Şahlar şahı Ağaməhəmməd şah Qacara rusların fitvası ilə öz sərkərdələri sui-qəsd edəndə o böyük sərkərdənin axırıncı sözü bu olmuşdu: "Neylədiz, İranı viran qoyduz!" İndi də İran viran günündədi. İki həftədən çoxdur ki, ölkə zənci saçına dönüb. Belə demək mümkünsə, nə it yiyəsin tanıyır, nə də yiyəsi itin.*

*Politoloqların, siyasi şərhçilərin də hərəsinin ağzından bir avaz gəlir, eləcə də Avropadakıların. Biri deyir Rza şahın oğlu gəlsin, biri deyir Qacar nəslindən kimsə varsa o gəlsin, biri deyir bəhmənkəs, biri də deyir ABŞ gəlsin. Yəni kənarda dayanıb İrana umac ovurlar. Hələ ki, üfüqdə də bir lider görünmür, deyəsən, heç yoxdu da.*



*Yadıma it ilində olan bir hadisə düşdü. Bir Çöhrəqanlı vardı, guya güney azərbaycanlıların lideri idi, həbs olunmuşdu. 10 min dollar girov qoysaydı həbsdən azad ediləcəkdi. O pul nə özündə vardı, nə də qırx milyonluq Azərbaycan türkü o pulu yığıb onu xilas etmək fikrində deyildi.*

*Həmin vaxt dilim dinc durmadı, qəzetdə yazdım ki, əgər Çöhrəqanlı azərbaycanlıların lideridirsə, mən də Klintonam.*

*Bu yazı həmin vaxt cəbhəçilərin bərk etirazına səbəb olmuşdu, məni hədələyirdilər. Hətta Güney Azərbaycandan olan, adı yadımdan çıxmış kimsə cəbhəçilərin iclasında belə bir axmaq söz demişdi: "Aqil getsin xəstə qayınatasının dərdini çəksin".*

*Təbii ki, bu söz də məni hövsələdən çıxarmışdı, onda da canımın sulu vaxtıydı, davakar vaxtıydı. Axtarırdım həmin adamı ki, tapım salım ayağımın altına.*

*Rəhmətlik Elçibəy zəng elədi, dedi:*

*- Nəbadə ona bir söz deyəsən. Mən ona lazım olan cavabı sənin əvəzinə vermişəm.*

*Sonra Çöhrəqanlı gəlib bir az Bakıda fırlandı, sonra deyəsən, çıxdı getdi Almaniyaya. Və bu gün də bir səsi-sorağı yoxdu.*

*İranı bu bəladan nə Pəhləvi qurtara bilər, nə Qacar nəslindən olan adam, nə də ABŞ. İranı bu bəladan demokratiya qurtara bilər. Təbii ki, ona da Xamnei razı olmaz. İndiyədək nə qədər etirazçı öldürülüb, dəqiq məlumat yoxdur.*

*Amma onu bilirəm ki, ABŞ İrana hücum edərsə, bu iğtişaşlar dayanacaq. İran ideoloji dövlətdir. Ac qılınca çapar deyirlər, belə olarsa İrandakı aclar aclıqlarını unudacaqlar və hamısı birləşib ABŞ-ın qılıncına çapacaqlar.*

# Politoloq: “Bunu istəyənlərdən biri də Mesud Pezaşkiandır...”

**”ABŞ Prezident Donald Tramp İrandadakı etirazlarla bağlı hər gün açıqlama verir və status paylaşır. Ağ Ev sahibinin İranın hərbi mərkəzlərinə zərbə vuracağı açıqlaması və ”İran indi daha çox azadlığa can atır. ABŞ kömək etməyə hazırdır” statusu etirazları yatırtmağa çalışan İran mühafizəkarlarına təzyiq, etirazçıları isə daha çox cəsarətli olmağa həvəsləndirmək məqsədi daşıyır”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, etirazçıların da bir neçə şəhərdəki küçəni ”Donald Tramp” adlandırması onların Ağ Ev sahibi ilə paslaşmasına işarədir:

”İranda internetin kəsilməsinə baxmayaraq, Trampla etirazçılar arasında rabitə yaranıb. Ağ Ev sahibinin İrana artan diqqəti bu ölkədəki mühafizəkarları ənənəvi olaraq ”Amerikaya ölüm” şüarlarını səsləndirməsinə həvəsləndirib. Halbuki, bir müddət bu şüarın səslənməsinə fasilə vermişdilər. Beləliklə, Tehrandakı dükan sahiblərinin milli pull vahidinin dəyərdən düşməsiylə bağlı başlatdıqları etirazlarda xarici amil də ön plana keçib. Etirazlar davam edərkən, ABŞ-nin İranın hərbi mərkəzlərinə və SEPAH məntəqələrinə endirə biləcəyi zərbələrin nəticəsi nə ola bilər? Mühafizəkarlar etirazların ilk günləri ABŞ-nin adını çəkmirdilər, ancaq Trampın etirazlarla bağlı açıqlama və statusları çoxaldıqca, mollalar etirazları məhz Amerikanın təşkil etdiyini söyləməyə başladılar. Məqsəd aydındır, rejim diqqəti ölkədaxili problemlərdən yayındıraraq cəmiyyəti məlum düşmənə qarşı mobilizə etməyə çalışır. ABŞ raket zərbələri endirərsə, molla rejimi mobilizəni gücləndirməyə çalışacaq. Ancaq bu müvəqqəti xarakter daşıyacaq. Rejim İsrail və ABŞ ilə 12 günlük müharibədən sonra cəmiyyəti mobilizə edə bilmədi, əksinə sanksiyalardan bezən insanlar ölkələrinin beynəlxalq aləmlə normal münasibətlərinin formalaşmasını istəyirlər. Bunu istəyənlərdən biri də İran Prezidenti Məsud Pezeşkiandır, ancaq onun da əl-qolunu bağlayan indiki sistemdir”.

**Vasif ƏLİHÜSEYN**

# Əhməd İsmayılov jurnalistləri dildən düzgün istifadəyə çağırdı

**Prezident İlham Əliyevin Azərbaycan dilinin qorunmasının vacibliyi ilə bağlı səsləndirdiyi fikirlər cəmiyyətin diqqət mərkəzindədir. Dövlət başçısının AMEA-nın 80 illik yubileyində jurnalistləri ədəbi dil məsələsində xüsusi məsuliyyət daşıyan peşə sahibləri kimi qeyd etməsi, həmçinin bir müddət öncəki müsahibəsində bir daha bu vacib məqama toxunması medianın qarşısında daha böyük öhdəliklər qoyur.**

Adalet.az xəbər verir ki, bu sözləri ”Audiovizual mediada Azərbaycan dilinin saflığının qorunması yeni çağırışlar müstəvisində” mövzulu elmi-praktik konfransda Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib.



O qeyd edib ki, media subyektlərində çalışan əməkdaşlar tərəfindən dilin düzgün, səlis və ədəbi normalara uyğun tətbiqi vacib məsələlərdəndir. ”Biz bu gün cəmiyyətin daha çox diqqət mərkəzində olan audiovizual mediada ədəbi dilimizin düzgün işlədilməsi məsələsini müzakirə edirik. Amma ölkə mediasının digər seqmentlərində də ədəbi dilimizin norma və prinsiplərinin qorunması bizim üçün eyni dərəcədə aktualdır. Artıq Mətbuat Şurasında Dil Komissiyası yaradılıb. Ölkə mediasının sistemli monitorinqinin aparılmasının bu sahədə buraxılan səhvlərin operativ formada aradan qaldırılmasına təkan verəcəyinə əminik.

Medianın İnkişafı Agentliyinin əsas prioritetlərindən biri də dövlət dilimizin mediada düzgün istifadə edilməsi prosesinə hassas yanaşmaqdan, bu sahədə jurnalist peşəkarlığının artırılmasına təkan verməkdən ibarətdir”,- deyə icraçı direktor vurğulayıb.

# "Qarabağı Azərbaycan ərazisi kimi tanıyan Ermənistan bu gün..."

**”907-ci düzəliş, 1992-ci ildə ABŞ Konqresi tərəfindən ”Azadlığı müdafiə aktı”a əlavə edilən və Azərbaycana ABŞ-nin birbaşa dövlət yardımını qadağan edən ən ədalətsiz qanunvericilik aktı idi. 907-ci Düzəlişə görə Azərbaycan ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet ölkəsi oldu. Bu Düzəliş qəbul ediləndə ABŞ-də səfirliyimiz yox idi, xarici işlər nazirliyi Qüdrünün çayxanasından az fərqlənirdi, idarəetmədən anlayışı olmayanlar yüksək vəzifələr tuturdu. Səsimizi eşidən də yox idi. Nə pulumuz, nə nüfuzumuz, nə də sadiq müttəfiqlərimiz yox idi. Düşmənlərin sayı ilə bərabər bizə qarşı ədalətsiz fəaliyyətlər hər gün artırdı”.**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib.

Onun sözlərinə görə, nəticədə Azərbaycan həm Ermənistanın işğalına, həm də Ermənistanın havadarları olan ölkələrin bir çox sahələrdə kütləvi təzyiqlərinə məruz qalırdı:

”Bu qadağa Azərbaycan tərəfindən Qarabağın ”işğalını” və Ermənistana qarşı



”blokadasını” dayandırmaq məqsədilə qəbul edilmişdi. Halbuki Azərbaycan beynəlxalq ictimaiyyət, o cümlədən ABŞ tərəfindən tanınan öz ərazisini işğal edə bilməzdi. Digər tərəfdən isə Ermənistan ümumiyyətlə blokada vəziyyətində deyildi. Onun həm İrana, həm Gürcüstana avtomobil, hava və dəmir yolu daim açıq olub. Hətta bu bahələri nəzərə alsaq belə hazırda regionda yeni reallıq yaranıb. Azərbaycan daim bu Düzəlişin əleyhinə olub. Ermənistanın baş naziri N.Paşinyan da başına dəyən ”Dəmir Yumruq”-dan sonra Qarabağı Azərbaycan ərazisi kimi tanımaqla ermənipərəst senator Con Makkeynin, senator Con Kerrinin və konqressmen Veyn Ovensin o zaman nə qədər haqsız olduğunu nümayiş etdirdi. Nağıla bənzəyən və ”işğalçının blokadaya alınması” məsələsinin də heç bir vaxt həqiqətlə əlaqəsi olmayıb. İndi isə heç bu barədə danışmağa dəyməz. Halbuki işğalçı ölkənin işğala məruz qalan ölkə və digər normal ölkələr tərəfindən blokadaya alınması və ona qarşı məhdudiyyətlərin tətbiq edilməsindən təbii heç nə ola bilməzdi. Mən yaxşı anlayıram ki, müharibə tərəflərini dayandırmaq üçün müəyyən addımlar atıla bilər, amma bu addımların birtərəfli olması və işğalçıya deyil, işğala məruz qalan ölkəyə tərəf tətbiq edilməsi ABŞ üçün tam biabırçılıq idi. İstənilən halda artıq hər iki saxta bəhanə və 907-ci Düzəliş, ATƏT-in Minsk Qrupu ilə eyni məzarlıqdadır”.

Hərbi ekspert deyib ki, Qarabağı Azərbaycan ərazisi kimi tanıyan Ermənistan bu gün daha münasib qiymətə olan Azərbaycan yanacağından istifadə edir:

”Dəmir yolu açılıb, hava məkanından ikitərəfli istifadə uzun müddətdir həyata keçirilir. Azərbaycan və ABŞ prezidentləri arasında ay əvvəl 907-ci Düzəlişin fəaliyyətinin dayandırılması üçün razılıq əldə olunub. Amma Düzəlişin tamamilə ləğv edilməsi barədə qərarı ABŞ konqresi qəbul etməlidir. Ümid edirəm ki, bu qərarın qəbulu üçün uzun müzakirələrə ehtiyac olmayacaq və ən yaxın müddətdə bu utancverici Düzəliş ləğv ediləcək. Bundan sonra isə ABŞ və Azərbaycan arasında təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığın yeni və parlaq səhifəsi açılacaq”.

**Sübhan**

# Azad olunan ərazilərə qayıdan şəxslərə xəbərdarlıq

**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) yanında İctimai Şura gündəlik fəaliyyətini işğaldan azad edilmiş ərazilərdə həyata keçirən şəxslərə, eləcə də doğma yurdlarına qayıdan əhaliyə xəbərdarlıq edib.**

Adalet.az xəbər verir ki, bu barədə qurum üzvlərinin son vaxtlar azad edilmiş ərazilərdə ardıcıl mina hadisələrinin baş verməsi ilə əlaqədar apardıqları müzakirələrin yekun nəticəsi olaraq ictimaiyyətə yaydıqları açıqlamada qeyd olunub.

Bildirilib ki, son günlər azad edilmiş ərazilərdə ardıcıl mina hadisələrinin baş verməsi ciddi narahatlıq doğurur: ”Yeni ilin ilk günlərində artıq ikinci mina hadisəsi qeydə alınıb. İkinci Qarabağ müharibəsindən sonra ötən dövr ərzində 417 nəfər mina və partlamamış hərbi sursatların partlayışı nəticəsində həlak olub və ya müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Zərərçəkmişlər arasında regiona səfər edən mülki şəxslər, kənd təsərrüfatı ilə məşğul olanlar, bərpa-quruculuq işlərində iştirak edən işçilər, jurnalistlər, hərbçilər, eləcə də xidməti vəzifələrini yerinə yetirən qurumların əməkdaşları var”.

ANAMA yanında İctimai Şura bir daha diqqətə çatdırır ki, təmizlənməmiş ərazilərə daxil olmaq, naməlum əşyalara toxunmaq, xəbərdarlıq nişanlarına məhəl qoymamaq ağır və bəzən geridönüşü olmayan nəticələrə səbəb olur: ”Məhz təhlükəsizliyin təmin edilməsi, baş verə biləcək mina hadisələrinin qarşısının alınması məqsədilə mina və digər partlayıcı sursatlarla yüksək səviyyədə çirkləndirilmiş ərazilərin müvəqqəti olaraq konservasiya olunaraq çəpərlənməsi fəaliyyəti icra edilir. Xüsusən, gündəlik fəaliyyətini işğaldan azad edilmiş ərazilərdə həyata keçirən şəxslər, eləcə də doğma yurdlarına qayıdan əhalinin tələb olunan qaydalara riayət etməsi həyati vacibdir”.

Qeyd olunub ki, bu gün mina təhlükəsizliyinin təmin edilməsi istiqamətində dövlət tərəfindən müvafiq kompleks işlər davam etdirilir: ”Mina təhlükəsinin qarşısının alınmasında yalnız dövlət qurumlarının deyil, hər bir vətəndaşın məsuliyyətli davranışı həlledici əhəmiyyət daşıyır. İnanırıq ki, təhlükəsizlik qaydalarına əməl etmək insan həyatının qorunmağın ən etibarlı yoludur.

Qeyd olunanları nəzərə alaraq, regionda istisnasız olaraq hər kəsi yalnız icazə verilmiş və təmizlənmiş ərazilərdə fəaliyyət göstərməyə, xəbərdarlıq nişanlarına ciddi yanaşmağa, şübhəli əşya və ya mina riski olan hallarla rastlaşdıqda dərhal aidiyyəti qurumlara məlumat verməyə çağırırıq.

Dünyada insan həyatının qorunmasından qiymətli heç nə yoxdur. Yaddan çıxarmayaq ki, mina təhlükəsinə laqeyd yanaşma yeni faciələrə yol aça bilər”.

*Rüstəm Hacıyev*



# Kuba təşvişə düşüb...

**Xəbər verdiyimiz kimi, ABŞ prezidentı Donald Tramp ötən həftə bildirmişdi ki, ”Kuba böyük problemlər yaşayır, Ştatlar Venesuelada olduğu kimi, Kubaya qarşı hərbi əməliyyat keçirmək fikirində deyil, çünki Kuba onsuzda iqtisadi böhran içərisindədir və özü yıxılmağa hazırdır...”**

**Qərbin kütləvi informasiya vasitələri, ABŞ -ın Venesuelada prezident Nikolas Maduronun həbsiylə bağlı keçirdiyi uğurlu hərbi əmğliyyatdan sonra, Qrelandiya, Kuba, Kolumbiya, Meksika olacağı barədə məlumatlar yaymaqda davam edir.**

**Kuba prezidenti Miqel Dias Kanel bəyan edib ki, ölkəsi 66 ildir ABŞ-ın hücumlarını dəf edir, biz bundan sonra da, son damla qanımıza qədər müdafiə olunacağıq.**

**Kuba prezidentinin yəqin yadından çıxıb ki, 66 il ərzində Birləşmiş Ştatların təyziqləri və təhdidləri qarşısında duruş gətirə bilməsi, artıq dağılmış SSRİ-nin və daha sonra isə özünü onun varisi elan etmiş Rusiya Federasiyasının hərbi və iqtisadi dəstəyi sayəsində mümkün olmuşdu.**

**Artıq SSRİ yoxdur, Rusiyanın isə başı dörd ilə yaxındır Ukrayna ilə sonu görünməyən müharibəyə qarışıb. Yəni, hazırda iqtisadi böhran içərisində olan Rusiya Kubaya nə hərbi, nə də iqtisadi cəhətdən kömək etmək iqtidarında deyil. Başı düşdüyü börandan necə çıxa biləcəyi yollarını axtarmağa qarışıb.**

**Bir tərəfdən də, ABŞ-ın Venesurlanın neft daşınmalarının aparılmasını nəzarətə götürməsi, Kubanı ucuz enerji mənbələrindən də məhrum edib. Rusiyanın Kuba sahillərində keşik çəkən sualtı qayıqları da, (əgər indiyədək oralarda qalırlarsa), əvvəlki gücdə deyillər. Bu günlərdə Rusiya bayrağı ilə Venesuela neftini Birləşmiş Ştatların nəzarər etdikləri ərazidən çıxarmağa çalışan neft tankeri mühavizə edən sualtı gəmiləri, hətta ABŞ xüsusi təyinatlarının gəmini girov götürməsinin qarşısını belə almağa belə cürət edə bilmədilər və ABŞ prezidentinin də dediyi kimi, ”qorxub qaçdılar”.**

**Bu arada Donald Tramp bəyan edib ki, ”Venesueladan Kubaya bir daha neft və pul göndərilməyəcək”.**

# Təhsil sənədləri “mygov” üzərindən təqdim olunacaq

**Təhsil sahəsinin rəqəmsallaşması istiqamətində növbəti mühüm addım atılıb.**

Bu barədə Adalet.az-a İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyindən (İRİA) bildirilib.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin təsdiqlədiyi yeni qaydalar təhsil haqqında dövlət sənədlərinin rəqəmsal formada verilməsini nəzərdə tutur. Bu qərar vətəndaşlar üçün təhsil sənədlərinə rahat çıxış imkanlarını əhəmiyyətli dərəcədə artırır və təhsil idarəçiliyində səmərəliliyin yüksəlməsinə töhfə verir.

Yeni Qaydalara əsasən ali, orta ixtisas, peşə və ümumi təhsil pillələri üzrə diplomlar, attestatlar, sertifikatlar və onlara əlavə olunan sənədlər rəqəmsal formatda formalaşdırılacaq və hüquqi qüvvəyə malik olacaq. Bununla da, təhsil haqqında dövlət sənədlərinin təqdim edilməsi prosesi tam rəqəmsal müstəviyə keçəcək.

Vətəndaşlar təhsil haqqında sənədlərini ”mygov” platforması üzərindən təqdim edə biləcək və bu sənədlər tam hüquqi qüvvəyə malik olacaqdır.

Bunun üçün ”mygov” platformasında ”Xidmətlər” bölməsindən ”Təhsil” kateqoriyasını seçərək müvafiq məlumat və sənədlərə çıxış əldə etmək mümkün olacaq. Bundan əlavə, vətəndaşlar təhsil məlumatlarını ”mygov” tətbiqi üzərindən QR kod vasitəsilə paylaşa, həmçinin sənədləri PDF formatında yükləyə bilərlər.

Tətbiqdə yer alan ”Paylaşdığım məlumatlarım” bölməsi vasitəsilə isə təhsil məlumatlarının nə vaxt, kimlə və hansı platformada paylaşıldığına dair tarixçəni izləmək mümkündür.

**Qeyd edilib ki, bu günə qədər İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Elm və Təhsil Nazirliyi ilə birgə əməkdaşlığı nəticəsində bir sıra təhsil məlumatları rəqəmsallaşaraq ”mygov”-a inteqrasiya olunub. Hazırda platforma üzərindən diplom və xarici diplom məlumatları, tələbə bileti, tələbə və məzun statusu, xaricdə təhsil üzrə Dövlət Proqramı və Hökumətlərarası Təqaüd Proqramı çərçivəsində təhsil məlumatları, peşə və ümumi təhsil sənədləri, cari ali və orta ixtisas təhsili, cari ümumi təhsil haqqında məlumatlar, eləcə də imtahana buraxılış vərəqəsi kimi sənəd və məlumatlar vətəndaşlara təqdim olunur. Sənəd və məlumatların əhatə dairəsinin mərhələli şəkildə genişləndirilməsi və platforma üzərindən daha çox təhsil məlumatının əlçatan edilməsi istiqamətində müvafiq işlər davam etdirilir.**

## “Bu sahibkarlara maliyyə sanksiyası tətbiq edilməyəcək”



**""Vergi Məcəlləsinə" edilən dəyişikliklərə əsasən, bu ildən Azərbaycanda "üfüqi monitorinq"in tətbiqinə start verildi. Yeni monitorinq vergi risklərini vergi orqanına əvvəlcədən açıqlamaq imkanı yaradır. Bu isə o deməkdir ki, səyyar vergi yoxlamalarının keçirilməsi yalnız istisna hallarda mümkün olacaq. Praktik olaraq, yeni qaydalar səyyar yoxlamaların sayını daha da minimumlaşdıracaq".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

Onun sözlərinə görə, bütövlükdə, son illər səyyar yoxlamaların sayının azalması müşahidə olunur:

"Belə ki, 2024-cü ildə 800 mindən çox aktiv vergi ödəyicisinə münasibətdə cəmi 384 səyyar vergi yoxlaması aparılıb. Səyyar yoxlamaların sayı 2023-cü illə müqayisədə 29%, 2018-ci ilə nisbətən isə 5 dəfə azalıb.Yeni monitorinqdə vacib məqamlardan biri də bəzi hallarda maliyyə sanksiyalarının tətbiq olunmamasıdır. Yeni dəyişikliklərə əsasən, risklər əvvəlcədən vergi orqanına açıqlanıbsa, maliyyə sanksiyası tətbiq edilməyəcək".

O, bildirib ki, yalnız açıqlanmayan risklər vergi orqanı tərəfindən aşkar edildikdə - 25% maliyyə sanksiyası tətbiqi nəzərdə tutulur:

"Vergi orqanı "üfüqi monitorinq"in əhatə etdiyi dövr ərzində təqdim edilən məlumatları elektron formada izləyəcək. Yeni sistemin əsas üstünlüyü əvvəlcədən məsləhətləşmə mexanizmi ilə vergi risklərinin azaldılmasıdır. Maliyyə intizamının və korporativ idarəetmənin yaxşılaşmasına xidmət edəcək "üfüqi monitorinq" iştirakçılarına əsas vəsaitlər üzrə amortizasiyanı azalan qalıq və ya düz xətt metodu ilə hesablamaq seçiminin verilməsi də nəzərdə tutulur.Avtomatlaşdırılmış uçotu aparan və daxili nəzarət sisteminin tətbiq edən orta və iri sahibkarlar "üfüqi monitorinq"ə qoşula bilərlər. Bu həmçinin orta və iri ödəyicilərlə vergi orqanları arasında şəffaf əməkdaşlıq mexanizmi kimi xarakterizə olunur".

**Vasif ƏLİHÜSEYN**

## “Tramp İrana hücum etməkdən qorxmur”



**Ağ Evin mətbuat katibi Kerolayn Livitt bəyan edib ki, ABŞ prezidenti Donald Tramp lazım bilərsə, İrana qarşı hərbi güc göstərməkdən qorxmayacaq.**

Xanım Livitt qeyd edib ki, Tramp İrana qarşı hələki diplomatiyanı əsas yol kimi qəbul edir.

"Həmişə belə olub və həmişə də belə olacaq. Lakin, prezident məqsədə uyğun hesab edərsə, ABŞ hərbi güc tədbiq etməkdəndə qorxmayacaq"-deyə, Ağ Evin mətbuat katibi Fox News telekanalının efirindən bildirib. Axios mətbu orqanının məlumatına görə, ABŞ prezidentinin xüsusi elçisi Stiven Uitkoff, İran XİN-nin rəhbəri Abbas Arakçi ilə danlşıqlar aparlb. Danışıqlarda İslam respublikasındakı mövcud vəziyyət müzakirə olunub.

**Rüstəm HACIYEV**

## “Böyük ehtimalla bu, rejimin öz adamları tərəfindən törədilən təxribatdır”

**"İranda vəziyyət daha da qanlı duruma doğru gedir. Rejim etirazçılara qarşı sərt addımlar atacağını bəyan edib. Etirazçılardan ölənlər yüzlərlədir. Tehranda Rəsul məscidi yandırılıb, bir neçə gün öncə də Quran yandırılmışdı. Böyük ehtimalla bu, rejimin öz adamları tərəfindən törədilən təxribatdır. Çünki etirazçıları qırmaq üçün əlində daha çox bəhanə toplamaq istəyir".**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Tural İrfan deyib. "1979-cu il etirazlarının əsas lideri, Təbriz əsilli ayətullah Məhəmməd Kazım Şəriətmədarinin sonra rejim tərəfindən məhv edilməsi səbəblərindən biri də bu idi ki, o, dini siyasətə qatmağın tərəfdarı deyildi. O deyirdi ki, heç bir sistem əbədi deyil, haçansa bu sistem də çökəcək və insanlar hökumətə nifrət edəndə eyni zamanda sistemə alət edilmiş dinə də nifrət edəcək. Bu gün mərhum ayətullahın dediyi öz təsdiqini tapır. Xalq rejimə daş atanda rejim dini özünə qalxan, sipər edir. Nəticədə din alətə çevrilir, təhqir olunur. Ona görə dini, mənəvi dəyərləri heç bir siyasi oyuna qatmaq doğru deyil. Din və dini dəyərlər ali və toxunulmaz olaraq qalmalıdır", - deyə o, bildirib.

**Ömər**

# Su mənbələri hər bir ölkə üçün çox önəmlidir

**Yanvarın 12-də Prezident İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə həsr olunan müşavirə keçirilib. Həmin gün həmçinin dövlət başçısının Sərəncamı ilə "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026?2035-ci illər üçün Dövlət Proqramı" təsdiq edildi.**

Qeyd olunan Dövlət Proqramı Bakı və Abşeron yarımadasında su təchizatı və tullantı suları sistemləri infrastrukturunun inkişaf etdirilməsi, intensiv yağışlar zamanı subasma risklərinin azaldılması, fasiləsiz və dayanıqlı su təminatının gücləndirilməsi məqsədilə hazırlanıb. Göründüyü kimi Proqram iki əsas mərhələdən ibarət olacaq və hər iki mərhələ də ölkənin su təchizatını daha dayanıqlı və ekoloji cəhətdən təhlükəsiz hala gətirməyi hədəfləyir.

2026?2030-cü illəri əhatə edən birinci mərhələdə mövcud su və kanalizasiya şəbəkələrinin yenilənməsi və təmiri üzərində cəmləşəcək. Bu müddət ərzində yağış sularının idarə olunması və tullantı sularının təkrar istifadəsi üçün müasir texnologiyalar tətbiq ediləcək. Eyni zamanda, "ağıllı su şəbəkələri" qurulacaq və su şəbəkələrindəki itkilərin aşkarlanması məqsədilə innovativ həllər təqdim ediləcəkdir.

2031?2035-ci illəri əhatə edən ikinci mərhələ isə su təchizatının fasiləsizliyini təmin etmək məqsədilə yeni su anbarları və nasos stansiyalarının inşasına yönələcək.

Bu mərhələdə həmçinin su təchizatı və kanalizasiya şəbəkələrinin daha da genişləndirilməsi və təkmilləşdirilməsi nəzərdə tutulur. Proqramın uzunmüddətli məqsədi Bakı şəhərinin Baş Planı ilə uzlaşdırılaraq, müasir su təchizatı xidmətlərinin göstərilməsi və ölkənin su ehtiyatlarının səmərəli idarə olunmasına imkan yaradacaqdır. Müşavirədə də qeyd olunduğu kimi bu gün qarşıda duran problemlərdin biri su itkiləri ilə bağlıdır. Əhalinin artması, sənaye və digər istehsal sahələrinin genişlənməsi təbii ki, suya olan tələbatı artırır. Bununla əlaqədar hazırda 40-45 faiz təşkil edən itkilərin kəskin azaldılması əsas məsələlərdən biridir və proqramın icrası nəticəsində bu, kəskin azalmalıdır.



Prezident İlham Əliyev müşavirədəki çıxışında paytaxt Bakı şəhərinin kanalizasiya məsələsinə xüsusi toxunub. Bildirilib ki, bu gün əhalinin 50 faizinə kanalizasiya xidməti göstərilir və Proqramın icrası nəticəsində bu, 95 faizə çatdırılmalıdır. Leysan yağışları yağan kimi şəhər nəqliyyatı iflic vəziyyətinə düşür, çox ciddi problemlər yaşanır. Dövlətimizin başçısı əlavə edib ki, "yağış sularının idarə olunması üçün Bakının 30 küçəsində yeni kollektor şəbəkəsi də qurulacaq və bunun çox böyük faydası olacaq".

"Dövlət başçısı onu da qeyd edib ki, Xəzər dənizinin çirklənməsinin qarşını almağın əsas amillərindən biri kimi dənizə buraxılan sular 100 faiz təmizlənməlidir.

Eyni zamnda dövlət başçısı əlavə edib ki, Abşeron yarımadasının su təchizatını yaxşılaşdırmaq üçün ilk dəfə olaraq ölkəmizdə duzsuzlaşdırma zavodu inşa ediləcək".

Bir sözlə Dövlət Proqramının tədbirlər planı su təchizatı və tullantı sularının idarə olunması sistemlərinin inkişafı, su sektorunda təbii fəlakət risklərinin və ekoloji dayanıqlığın idarə edilməsinin təmini və su sektorunda innovasiya və rəqəmsallaşması kimi üç əsas prioriteti özündə əks etdirir.

Bu gün azad edilmiş ərazilərdə içməli su və suvarma layihələri icra edilir. Son beş ildə bir neçə önəmli layihə başa çatıb. Onlardan biri "Sərsəng" su anbarıdır. Bu, nəinki azad edilmiş ərazilərdə, bütövlükdə ölkəmizdə ən böyük su anbarlarından biridir. Prezident İlham Əliyevin müşavirədə vurğuladığı kimi, vaxtilə torpaqlarımız işğal altında olanda Ermənistan dövləti bizə qarşı su terroru da həyata keçirirdi. "Sərsəng" və "Suqovuşan" su anbarlarının sularının bağlanması və sudan bir silah kimi istifadə edilməsi bizə böyük problemlər yaradırdı.

Bu gün isə "Suqovuşan" və "Sərsəng" su anbarları tamamilə yenidən qurulub. Azad edilmiş digər torpaqlarda - Füzuli rayonunda "Köndələnçay", Ağdam rayonunda "Xaçınçay" su anbarı yenidən qurulub. Laçın rayonunda tamamilə yenidən qurulmuş "Zabuxçay" su anbarı artıq istismardadır. Azad edilmiş ərazilərdə daha iki böyük su anbarının - "Həkəriçay" və "Bərgüşadçay"ın tikintisi də nəzərdə tutulur və artıq hazırlıq işləri gedir. Bütünü bunlar bir daha sübut edir ki, su mənbələri hər bir ölkə üçün çox önəmlidir.

**Prezident İlham Əliyevin sərəncamları əsasında təsdiqlənən Bakı və Bakıətrafı qəsəbələrin, həmçinin regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurlu icrası qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olmağı şərtləndirdi. Əminliklə deyə bilərik ki, bu Proqramında icrası uğurla başa çatacaqdır.**

**Hümbət HÜSEYNOV**
**Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosasiyanın sədri,**
**M.Ə.Rəsulzadə Bələdiyyəsinin sədri**

## Ekspert: “Zamanı çatanda Pezeşkian hərəkatın başına keçəcək”

**"İranda sosial partlayışla başlanmış iğtişaşlar artıq səngiməkdədir. Bu gün ölkədə elan olunmuş matəmin ikinci günüdür. Molla rejimi bundan istifadə edərək mövqelərini möhkəmləndirməyə çalışır. İran rəhbəri Seyidəli Xamneyi ölkədə narazıları iki qrupa ayırıb: güzarandan narazı olanlar və ölkəni vətəndaş müharibəsinə sürükləmək istəyən agentlər".**

Bu sözləri Güney Azərbaycan üzrə araşdırmaçı jurnalist Elman Cəfərli Adalet.az-a açıqlamasında söyləyib: "Rejim ideoloqları iddia edir ki, sosial durumdan narazılıq edib aksiyaya çıxanlar rejim əleyhdarı deyil. Ancaq onlardan istifadə edib iğtişaş törədənlər ABŞ və İsrailin casuslarıdır. İranın azərbaycanlı prezidenti Məsud Pezeşkian ilk günlərdən aksiyaçıların tərəfini tutub. O da bildirir ki, hazırkı durumun yaranmasına səbəb hökumətin lüzumsuz xərcləmələrə getməsi, Yaxın Şərqdə proksi qüvvələrə hədsiz yardımlar etməsidir. Onun bu mövqeyi rejim daxilində mühafizəkar qanadın kəskin narazılığına səbəb olub. Yəqin ki, bu aksiyalar yatırılsa Pezeşkianı sərt tənqid edəcək, hətta xəyanətdə günahlandıracaqlar. İranda aksiyaları qızışdıran amillərdən biri də şahçılardır. İranın 1979-cu ildə devrilmiş şahı Məhəmmədrzanın oğlu Rza Pəhləvi hakimiyyətə iddialıdır. Qərbdə də hesab edirlər ki, molla rejimi devrilərsə, Pəhləvilər hakimiyyətə gələ bilər. Amma Rzanın İranda nüfuzu, tərəfdarları o qədər də çox deyil. Rza həyatı boyu 10 nəfəri belə idarə etməyib, ortabab siyasətçi belə deyil. Müasir dövrdə təkcə gen bağı ilə iqtidara yiyələnmək bir az çətin işdir".



Ekspert qeyd edib ki, İranda məzhəb rejiminin yıxılması arzuolunandır: "Doğru olardı ki, vilayəti fəqih aradan qalxsın və onun yerinə sekulyar bir hakimiyyət formalaşsın. Hüdudsuz monarxiya yaranmasın, respublika qalsın. Bunun yolu isə Məsud Pezeşkianın önə çıxmasından keçir. Məsud Pezeşkian sistemin adamıdır, düzdür. Amma "yenidənqurma və aşkarlıq" siyasəti ilə SSRİ-nin sonun gətirmiş Mixail Qorbaçov da, Rusiya demokratlarının önündə gedən Boris Yeltsin də o vaxtkı sistemin adamı, yetişdirməsi idi. Məsud Pezeşkian da zamanı çatanda molla rejimi əleyhinə demokratik hərəkatın önünə keçə bilər. Onun böyük sosial bazası var. 90 milyon İranın 45 milyonu türkdür. Türklər təkcə Azərbaycan əyalətlərində yaşamır. İsfahan, Mərkəz, Tehran kimi ostanlarda da türklər çoxdur. Üstəlik seçkilərdə Pezeşkiana demokratik düşüncəli gənclik, digər qeyri-fars millətləri də dəstək verib. Qısa bir dövrü çıxmaq şərti ilə İranı son 1000 ildə türk sülalələri idarə edib. Bu status-kvo davam etməlidir".

**Əntiqə KƏRİMZADƏ**

## Naxçıvanda dəmir yolu xətti boyunca 10 stansiya yenidən qurulacaq



**Naxçıvan Muxtar Respublikasında dəmir yolu xətti boyunca 10 stansiyanın yenidən qurulması nəzərdə tutulur.**

Bu barədə Adalet.az-a "Azərbaycan Dəmir Yolları" QSC-dən (ADY) bildirilib. Məlumata əsasən, uzunluğu 194,1 kilometr olan dəmir yolu boyunca həmçinin 814 mühəndis qurğusunun, o cümlədən 29 körpü, 4 tunel və 12 qalereyanın inşası nəzərdə tutulur.

Bu dəmir yolu xətti Zəngəzur dəhlizinə qoşularaq həm Azərbaycanın əsas hissəsinin Naxçıvanla birbaşa quru əlaqəsini, həm də Orta Dəhliz və Şimal-Cənub marşrutunun mühüm seqmenti olaraq Türkiyə və Avropa bazarlarına çıxışı təmin edəcək.

# "İran mühafizəkarları ABŞ qəti addımlar atana qədər ölkədəki etirazları zor gücünə..."



**"İranı idarə edənlər ABŞ və onun Prezidenti Donald Trampı hədələmələrinə baxmayaraq, indiki ağır vəziyyətdə Ağ Ev sahibi ilə müzakirələri lazım biliblər. Çünki, bilirlər ki, Donald Tramp "İrana müdaxilə edə bilərik" deyərkən real addımlar ata bilər. Görünür, İran mühafizəkarları bunu önləmək üçün xarici işlər naziri Abbas Əraqçiya ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiv Uitkoffla təmas qurmağı tapşırıblar". Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.**

"Böyük ehtimalla İran Prezidenti Məsud Pezeşkian da Vaşinqtonla dialoqun tərəfdarıdır.

Tramp hələ İrana zərbə vurmağın tərəfdarı deyil. Çünki, ona təqdim edilən hesabatlarda raket zərbələrinin mühafizəkarların işinə yarayacağı, onların düşmənə qarşı İran cəmiyyətini birləşdirə biləcəyi göstərilir.

Ancaq tərsi də mümkündür. Zərbələr İranda daxili qarşıdurmanın artmasına da şərait yarada bilər ki, mühafizəkarlar bundan ehtiyat edirlər.

Tramp bu iki yanaşma arasında qərar verməkdə çətinlik çəkir. İran mühafizəkarları isə vaxt udmağa, ABŞ qəti addımlar atana qədər ölkədəki etirazları zor gücünə boğmağa çalışırlar", - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**

# "Azərbaycanda əhalinin 70 faizi fasiləsiz içməli su ilə təmin olunur"

**"Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramına həsr olunan müşavirədə çıxış edən Prezident İlham Əliyev bu sahədə ölkəmizdə həyata keçirilən layihələr ilə yanaşı, qlobal məsələlərə də münasibət bildirdi. Xüsusən qlobal iqlim dəyişiklikləri fonunda dünyada su təminatı xüsusi çağrışa çevrilməkdədir".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

O, bildirib ki, yer kürəsinin səthinin 71 faizinin su ilə örtülməsinə baxmayaraq, onun cəmi 2.5 faizi içməli sudur:

"Bütün su ehtiyatlarının isə cəmi 0.3 faizinə insanların asan əçatanlığı var. BMT-nin qiymətləndirmələrinə görə, hazırda 2.2 milyard insanın fasiləsiz su təminatı ilə bağlı çətinlikləri var və 703 milyon sakinin isə suya əlçatanlığında ciddi problemlər yaşanır. Dünyada hər gün 5 yaşdan kiçik 1000-dən çox uşaq təmiz su, sanitariya və gigiyena çatışmazlığı ilə əlaqəli xəstəliklərdən ölür. Qida sənayesində su istifadəsinin artması səbəbindən suya olan tələbin 2030-cu ilədək qlobal olaraq 40 faiz artacağı gözlənilir. Bu isə ondan xəbər ki, növbəti illərdə suya tələbin ödənilməsində qlobal çətinliklər daha da güclənəcək.



Su təminatında qlobal çətinliklər fonunda Azərbaycanda əhalinin 70 faizi fasiləsiz içməli su ilə təmin olunur. Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, hazırda problemlərdən biri də itkilərlə bağlıdır. Ölkəmizdə itki faizi 45 faizə yaxındır.

Dünyada ən azı su itkisi inkişaf etmiş ölkələrdə qeydə alınır. Belə ki, ən az su itkisi Niderlandadır: cəmi 4 faiz. Bu göstərici Danimarkada 6, Yaponiyada 7, Avstraliya və Almaniyada 8, İsrail də isə 9 faizdir. Ən çox su itkiləri isə Hindistan, Əlcəzair və Meksikada qeyd alınır: 50 faiz.

Göründüyü kimi, itkilərin səviyyəsinin azaldılması nəticəsində Azərbaycanda su təminatının ciddi şəkildə yaxşılaşdırılması mümkündür. Müşavirədə qeyd olunduğu kimi, dövlət proqramının icrası nəticəsində su itki faizinin azalacağı gözlənilir. Bu isə su təminatında ciddi irəlləyişə səbəb olacaq".

**Eldar**

## *Portuqaliya İrandakı səfirliyini bağladı*



**Portuqaliya təhlükəsizlik səbəbləri ilə İrandakı səfirliyini müvəqqəti bağlamaq qərarına gəlib.**

Adalet.az xəbər verir ki, bu barədə Portuqaliya Xarici İşlər Nazirliyi (XİN) məlumat yayıb.

"O ölkədə olan bütün Portuqaliya vətəndaşları ilə əlaqə saxlanılıb. Səkkiz nəfər artıq İranı tərk edib. Bəzi vətəndaşlar ölkədən çıxmaq üzrədir, digər 10 vətəndaş (onlardan yeddisi ikili vətəndaşlığa - Portuqaliya və İran vətəndaşlığına malikdir) qalmaq qərarı alıblar", - nazirlikdən bildirilib.

XİN əlavə edib ki, bölgədəki hazırkı gərgin vəziyyət və potensial silahlı münaqişə təhlükəsi səbəbindən İrana hər hansı səfərlər qətiyyətlə tövsiyə olunmur.

# Politoloq: «Ukrayna bataqlığına düşmüş Rusiyanın bu münaqişədən...»

**"ABŞ-nin Venesuela prezidenti Nikolas Moduranın həbs edilməsi istiqamətində atdığı addımlar və Monro doktrinasına faktiki qayıdışı Rusiyada bəzi dairələri "həvəsləndirib". Rusiyada hesab edənlər var ki, yaranmış geosiyasi şəraitdən istifadə edərək Cənubi Qafqaz və Mərkəzi Asiyada "xüsusi əməliyyatlar" keçirilməli və bu regionlar yenidən nəzarət altına alınmalıdır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, lakin nəzərə almaq lazımdır ki, ABŞ-nin başlatdığı bu proses ilk növbədə Rusiya, İran və Çinin strateji baxımdan zəiflədilməsinə hesablanıb:

"Bu ssenari ilk olaraq Ukraynada tətbiq olundu. Rusiya Ukraynaya hücum etməklə özünü uzunmüddətli strateji çökmə tələsinə saldı. Artıq dörd ilə yaxındır ki, Rusiya Donbasın inzibati sərhədlərinə tam çıxmaq iqtidarında deyil. Ordusu Kupyansk və Pokrovsk istiqamətlərində ciddi itkilərə məruz qalır. Bu şəraitdə Rusiyada növbəti hərbi əməliyyatlara başlamaq çağırışları səsləndirilir. Lakin haqlı sual yaranır: bunu hansı ordu ilə edəcəklər? Üstəlik, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri ötən əsrin 1920-ci illərinin zəif və institutsuz dövlətləri deyil. Bu ölkələr müstəqil siyasət yürüdən, beynəlxalq münasibətlər sistemində öz yeri olan subyektlərdir". Politoloq deyib ki, Rusiyanın tanınmış telejurnalisti Vladimir Solovyovun qonşu ölkələrə qarşı "xüsusi əməliyyatlar"la bağlı açıqlamaları Moskvanın qonşuları ilə münasibətlərində etimadı faktiki olaraq sıfırlayır:

"Bu cür ritorika Rusiyanı təhlükəsizlik təminatçısı yox, risk mənbəyi kimi təqdim edir. ABŞ



Venesuela və digər regionlarda Rusiyanın beynəlxalq güc kimi mövqelənmək cəhdlərinin qarşısını almaqla, Moskvanı daxili problemlərə fokuslanmağa məcbur edir. İranda baş verən proseslərin növbəti mərhələdə Rusiyanın özündə baş verməsi də istisna edilmir. Ukrayna bataqlığına düşmüş Rusiyanın bu münaqişədən "təmiz çıxması" real görünmür. Bataqlığa saplanmış bir dövlətin təsir dairəsini genişləndirmək məqsədilə yeni hərbi əməliyyatlara başlaması faktiki olaraq siyasi intihardır. Mövcud şərtlər daxilində Rusiyanın fövqəldövlət statusunu bərpa etməsi real görünmür. Yeni dünya siyasi nizamında əsas və həlledici güc kimi ABŞ qalmaqdadır. Məhz Rusiya və Çinin fövqəldövlət olmaq və öz ambisiyalarını genişləndirmək cəhdləri fonunda beynəlxalq siyasi və təhlükəsizlik sistemində ciddi böhran yaranıb. ABŞ isə pozulmuş qlobal nizamı öz maraqları çərçivəsində yenidən formalaşdırmağa çalışır. Bu kontekstdə Azərbaycanın ABŞ ilə strateji əməkdaşlığının dərinləşməsi ölkəmizin təhlükəsizliyinin və suverenliyinin daha da möhkəmlənməsinə xidmət edəcək".

**Vasif**

*Vugar Abbasov*
*vugarabbasov@hotmail.com*

# Kim qalib gələcək: rejim, yoxsa xalq?



**İranda etirazlar davam edir. Hazırkı genişmiqyaslı etirazlar 28 dekabr 2025-ci il tarixindən başlayıb. Hadisələr ilkin olaraq Tehranda ticarət mərkəzlərində inflyasiyanın kəskin artmasına və milli valyuta olan rialın sürətlə dəyərdən düşməsinə qarşı iqtisadi tələblərlə ortaya çıxsa da, qısa müddətdə ölkənin bir çox şəhərinə yayılaraq siyasi xarakter alıb.**

**12 yanvar 2026-cı il tarixinə olan məlumata görə, toqquşmalar nəticəsində 500-dən çox, bəzi mənbələrə görə isə 600-ə yaxın insan həlak olub, minlərlə şəxs həbs edilib. Hakimiyyət etirazları yatırmaq məqsədilə 8 yanvar 2026-cı ildən etibarən ölkə üzrə internet blokadası tətbiq edib. Bu faktlar mövcud rejimin baş verən hadisələrdən ciddi narahatlıq keçirdiyini göstərir.**

**Təbii ki, rejimin bu narahatlığı üçün əsaslar var. Etirazların rejimin süqutu ilə nəticələnməsi ehtimalı da istisna edilmir. Təsadüfi deyil ki, bir çox siyasi şərhçilər və jurnalistlər bu məqama xüsusi diqqət yetirirlər. Məsələn, İranın qonşu ölkələrindən biri olan Azərbaycanda da bu cür düşünənlərin sayı az deyil. Tanınmış jurnalist, siyasi şərhçi, filologiya elmləri doktoru Qulu Məhərrəmli öz Facebook səhifəsində yazır:**

**"Uçuruma doğru gedən İran viran ola bilərmi? Ola bilər. Əgər Əli Xameneinin rəhbərlik etdiyi molla rejimi xalqın səsini, bu səsi siyasi dildə ifadə edən prezident Məsud Pezeşkianın çağırışlarını eşitməsə və dəyərləndirməsə. İran prezidenti isə açıq şəkildə bildirir ki, polis və əsgər xalqla qarşıdurmaya getməməli, onlarla dialoq qurmalıdır. İnsanların dərdi və tələbi nədirsə, ona qulaq asılmalıdır."**

**Hadisələrin gedişi isə onu göstərir ki, ölkənin dini rəhbərliyi prezidentdən fərqli mövqe tutur. Təsadüfi deyil ki, hakimiyyət öz tərəfdarlarının iştirakı ilə dəstək mitinqləri təşkil edir. İranın Ali Dini Lideri Əli Xamenei yaydığı müraciətdə hakimiyyətin təşkil etdiyi mitinqlərdə iştirak edən tərəfdarlarına təşəkkür edib. O, hər zamankı kimi baş verənlərdə ABŞ-ni günahlandırır.**

**ABŞ prezidenti də İranda baş verən hadisələrə biganə qalmayıb və etirazçılara dəstəyini ifadə edib. Sonuncu İran şahı Məhəmməd Rza Pəhləvinin oğlu Rza Pəhləvi də son günlərdə xeyli fəallaşıb. O, etirazçılara dəstək verdiyini bildirərək istənilən an İrana qayıtmağa hazır olduğunu bəyan edib. Bununla da faktiki olaraq ABŞ-yə və Qərbə mesaj göndərmiş olur.**

**Lakin sual yaranır: İran xalqı onu istəyirmi? ABŞ və ümumilikdə Qərb dövlətləri ona real dəstək verərmi? Məncə, verməməlidirlər. Çünki İran xalqı sonuncu şahı, yəni onun atasını, o qədər də müsbət xatırlamır.**

**Fikrimcə, İranda baş verən proseslərdə əsas açar rolunu bu ölkədə yaşayan və saylarının 30 milyona yaxın olduğu bildirilən Azərbaycan türkləri oynayır. Məlumat üçün qeyd edək ki, İran və Rusiya arasında 1813-cü ildə bağlanmış Gülüstan və 1828-ci ildə imzalanmış Türkmənçay müqavilələrinə əsasən Azərbaycan iki hissəyə bölünüb. Bu gün müstəqil olan Azərbaycan həmin dövrdə Rusiyanın tərkibində qalıb, ölkənin böyük bir hissəsi isə İran ərazisindədir.**

**Tarix boyu bir neçə dəfə bu torpaqların birləşməsi üçün imkan yaranıb, lakin müxtəlif səbəblərdən bu baş tutmayıb. Bu mövzu barədə gələcəkdə ayrıca və daha geniş yazmaq olar. Bu yazıda isə onu vurğulamaq istəyirəm ki, Azərbaycan türkləri İranda tarixən mühüm siyasi və ictimai mövqeyə malik olublar və bu gün də bu mövqeni qoruyurlar. Qeyd etmək lazımdır ki, İranın hazırkı prezidenti də Azərbaycan əsillidir. Bu fakt özü çox mətləblərdən xəbər verir.**

**Hesab edirəm ki, İranda rejim dəyişikliyi arzulayan qüvvələr bu ölkədə söz sahibi olan xalqların maraqlarını mütləq nəzərə almalıdırlar.**

**Hadisələr necə inkişaf edəcək? Rejim dəyişəcəkmi? Bunu zaman və tarix göstərəcək. Amma bir həqiqəti unutmaq olmaz ki, bu tip rejimlər əbədi olmur. Bu gün olmasa da, gec-tez dəyişiklik qaçılmazdır.**

## *"Ən gözəl terrorçu" 21 il müddətinə azadlıqdan məhrum edildi*

**Moskva vilayətinin Vlasixa qəsəbəsində yerləşən Apellyasiya Hərbi Məhkəməsi terrorçuluğa yardım işi üzrə çıxarılan hökmü qanuni hesab edib. İş üzrə Belqorod vilayəti administrasiyasının sabiq əməkdaşı Viktoriya Şinkaruk məsuliyyətə cəlb olunub. Adalet.az xəbər verir ki, bu barədə TASS məlumat yayıb.**

Məlumata görə, məhkəmə Şinkarukun və onunla birgə ittiham olunan şəxsin apellyasiya şikayətlərini təmin etməyib. Bununla da hökm qanuni qüvvəyə minib. Viktoriya Şinkaruk Rosfinmonitorinq tərəfindən ekstremistlər və terrorçular siyahısına daxil edilib. 2-ci Qərb Dairə Hərbi Məhkəməsinin qərarı ilə Şinkaruk yeddi maddə üzrə təqsirli bilinərək 21 il müddətinə azadlıqdan məhrum edilib.

# BİZƏ YAZIRLAR

**Bildirirəm ki, oğlum Mirzəyev Cavid Cahangir oğlu 12 ilədək qeydri rəsmi ailə münasibətində olduğu Ağdaş rayon sakini Leyla Bayramova ilə münasibətləri pozulmuşdur, bildirdiyinə görə hər hansı qeyri etik davranış qaydalarına görə olmuşdur. Bundan sonra oğlum Mirzəyev Cavid Cahangir oğlu Ağdaş rayonundan çıxmış və Bakı şəhərinə gəlmişdir. Mənbəyi bilinməyən məlumatlara görə Leyla Bayramova 26.10.2024-cü il tarixdə, saat 14:00 radələrində 28 ədəd ESPA 10 dərman preparatı qəbul etmiş, saat 16:00-da təcili tibbi yardıma müraciət etmişdir. Saat 16:16-da təcili tibbi yardım ünvana yaxılaşmış, lakin heç bir tibbi yardım göstərmədən xəstəxanaya aparmışdır. Xəstəxananın həkimi terapevt Kazımova Nüşabə Qeys qızı məhkəmədə bildirmişdir ki, Leyla Bayramovanın bildirməsinə görə 28 ədəd ESPA 10 dərmanı qəbul etmişdir. Kazımova Nüşabə Qeys qızı bildirmişdir ki, "xəstədə heç bir zəhərlənmə halı müşahidə olunmamışdır, ancaq buna baxmayaraq ona 2 ədəd rinqer sistem köçürdüm, mədəsini suni yolla yudum, saturası və təzyiqi normal idi, hətta qaraciyərin UZİ etdim, heçbir problem olmadı özü ayağa duraraq xəstəxananı tərk edib getdi" Buna bxmayaraq Ağdaş Rayon MTE Nasir İsgəndərov bildirir ki, xəstə Leyla Bayramova naməlum etalonlu tabletkadan qısa müddətli zəhərlənmişdir. Həkim Nasir İsgəndərov heç bir analiz götürmədən, ekspertiza aaparmadan zəhərlənməni hansı formada oluğunu sübut edir? Ağdaş rayon prokurorluğunun müstəntiqi Paşayev Rəfail Ərəstun oğlunun 240226011 saylıcinayət işi üzrə Azərbaycan Respublikası CM-in 125 və 134-cü maddələri ilə Mirzəyev Cavid Cahangir oğlunun barəsində cinayət işi başlanılmışdır və həbs qətimkan tədbirinin seçilməsinə dair vəsatətinicinayət işi üzrə toplanmış ilkin materiallarla birlikdə Ağdaş rayon məhkəməsinə göndərilmişdir. Ağdaş Rayon Məhkəməsinin 25.12.2024-cü il tarixli qərarı ilə vəsatət təmin edilmiş, Mirzəyev Cavid Cahangir oğlu həbs qətimkan tədbiri seçilmişdir.**

**Bildirmək istəyirəm ki, qeyd edilən cinayət işi üzrə Mirzəyev Cavid Cahangir oğlunun təqsiri olmamışdır, hüquq mühafizə orqanları və məhkəmə əsassız olaraq qərəz göstərmişdir.**

**Daha sonra istintaq dövründə Ağdaş Ryon Prokurorluğunun qərarına əsasən zərərçəkmiş şəxsə məhkəmə-tibbi ekspertizası təyin edilmişdir. Bildirmək istəyirəm ki, ekspert rəyi verilərkən şəxsin saturası yerində olmuşdur və heç bir zəhərlənmə halı müşahidə edilməmişdir. Zərərçəkmiş şəxs Leyla Bayramovanın guya qəbul etdiyi ESPA 10 adlı dərman preparatının 28 ədədini qəbul edərək yaşaması qeyri-mümkün olduğu halda həkimlərimizin və müstəntiqimizin səyi nəticəsində intihara cəhd kimi qiymətləndirilmişdir. Daha sonra cinayət işi Ağdaş rayon məhkəməsinə verilmişdir, Dəfələrlə Ağdaş rayon məhkəməsini hakimlərinə və məhkəməyə etirazlar olunmasına baxmayaraq məhkəmə görməzdən gəlmiş və ittiham etməyə davam etmişdir. 15.09.2022-ci il tarixli Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenum Qərarında göstərilmişdir ki, "Bu cinayətin ictimai təhlükəliliyi nəinki insanın ən ümdə və ayrılmaz hüququ olan yaşamaq hüququna qəsd edilməsi, həmçinin təqsirkarın mənəviyyata zidd, qeyri-humanist, məkrli və amansız hərəkətləri ilə xarakterizə olunur. Bu cinayətin obyektini başqa şəxsin həyatının təhlükəsizliyi ilə bağlı münasibətlər təşkil edir. Özünü öldürmə həddinə çatdırmanın obyektiv cəhəti mürəkkəbdir, buraya təqsirkarın davranışı (hədə-qorxu gəlmə, amansız rəftar, alçaltma), zərərçəkmişin təqsirkardan asılılığı, bunların nəticəsində şəxsin özünü öldürməsi və ya özünü öldürməyə cəhd həddinə çatması daxildir. Cinayət maddi tərkibli olmaqla, zərərçəkmişin özünə qəsd etdiyi vaxtdan və yaxud özünə qəsd etməyə cəhd etdiyi andan başa çatmış hesab edilir. Bu baxımdan zərərçəkmişin həqiqətən özünü öldürməyə cəhd etməsi, intihara cəhdin "səhnələşdirilmə" olmaması dəqiq müəyyən edilməlidir.**

**Eyni zamanda bu cinayət tərkibinin yaranması üçün təqsirkarın hərəkətləri ilə zərərçəkmişin intiharı və ya ona cəhd arasında səbəbli əlaqə olmalıdır. Maddədə özünü öldürmə həddinə çatdırma əməlinin törədilməsinin üsulları dəqiq göstərilmişdir: amansız rəftar etmə, ləyaqətini mütəmadi olaraq alçaltma, hədə-qorxu gəlmə. Bu baxımdan, bir şəxsin digər hüquqa zidd hərəkətləri (məsələn, əmək haqqının ödənilməsinin sistematik gecikdirilməsi, borcun vaxtında qaytarılmaması) nəticəsində digər şəxsin özünü öldürmə həddinə çatması, bu maddə ilə cinayət məsuliyyətinin yaranmasını istisna edir.**

**Eyni zamanda, şəxsin hər hansı qanuna zidd olmayan hərəkətləri (qanuni əsaslarla əmək münasibətlərinə xitam verilməsi, evlilik təklifinin rədd edilməsi, törədilən cinayət barəsində məlumatın verilməsi və s.) nəticəsində digər şəxsin intihar etməsi də bu maddə ilə nəzərdə tutulan cinayət tərkibini yaratmır."**

**Cahangir Mirzəyev,**
**Müharibə veteranı**
**Fizuli rayonu, Böyük Pirəhmədli kəndi**

# "Yas evini qonaqlıq məkanına, yemək ünvanına çevirmək olmaz..."

**Son illər ölkəmizdə keçirilən yas mərasimlərinin 7 gün yox, bundan sonra 3 gün keçirilməsi təklif edilir. Artıq müəyyən qədər insanlar yas mərasimlərində bunu həyata keçirirlər. Amma elə adamlar da var ki, yas mərasimini 7 gün yox, 3 gün etməyə utanır. Düşünür ki, el-oba onu qınayar ki, cavan adamı ölüb, amma 3 gün yas verdi.**

Məsələylə bağlı Adalet.az-a danışan ilahiyyatçı Tural İrfan bildirdi ki, yas məclislərində dəbdəbəli və israfçı süfrələrin ləğv edilməsi davam edir.

Onun sözlərinə görə, insanlar artıq yükdən, israfdan, borca - xərcə, kreditə düşməkdən xilas olur:

"Eyni zamanda bu məclislər dinimizə uyğun hala salınır. Ancaq hələ bir çox yerlərdə 3 günlükdən əlavə 7 məclisi də verirlər. Bu da əlavə çətinlik yaradır. Əlalxüsus bu ənənə dinimizə ziddir. Həzrət Muhəmməd Peyğəmbər buyurub ki, yas üç gündür. 3 gün yas saxlamaq dinə uyğundur, başsağlığı üçün gələnləri yola salmaq və mərasimi yekunlaşdırmaq lazımdır. 7, 40, 52, cümə axşamları, il məclisləri təşkil etmək əsla İslam ənənələrinə uyğun deyil. Nə Həzrət Muhəmməd üçün, nə onun yaxınları üçün, nə də İmamlar üçün bu rəqəmlərə uyğun yas, ehsan məclisi qurulmayıb. Nə də onların buyuruqlarında belə



məsələlərə göstəriş yoxdur. Ona görə əsasən rayonlarımızda davam edən 7 məclisi keçirmək adəti ləğv edilməlidir. Adətən dəfn mərasimi baş tutan gün mərhumun 1 günlüyü hesab olunur ki, yaxınların iştirakı ilə baş tutur. Daha sonda təzə eşidənlər, uzaqdan gələnlər üçün 3 günlük təşkil olunur". O, deyib ki, burada da əlavə israfa, təmtəraqlı süfrəyə ehtiyac yoxdur: "Yığcam şəkildə çay süfrəsi ola bilər. Mərhumun ailəsinə yardım, dəstək göstərmək istəyənlər pul, ərzaq apara bilərlər. Çünki dinimizə uyğun olanı budur. Həzrət Muhəmməd Peyğəmbərin hədislərində qeyd olunur ki, 3 gündən sonra həttа ölü sahibinə baş sağlığı vermək onun dərdini təzələyərsə, verməyin. Çünki yas 3 gündür. 3 günlükdən sonra məclis qurmağa, yemək yaxud çay süfrəsi açmağa ehtiyac yoxdur. Lakin hər bir halda gec xəbər tutub başsağlığına gələnlər olarsa adi qaydada mərhumun yaxınlarına səbr diləyib gedə bilərlər. Yəni, yas evini qonaqlıq məkanına, yemək ünvanına çevirmək olmaz. İslam dininin tələbinə görə israf etmək və yeni dini qaydalar meydana gətirmək, adətə çevirmək bidət sayılır. Bidət dində olmayan şeyi dinə əlavə etməkdir ki, bunun da cəzası cəhənnəm əzabıdır. Bu da Peyğəmbərin hədislərində öz əksini tapıb. Mərhum üçün 3 gün yas kifayət edir".

**Vasif ƏLİHÜSEYN**

# «İranda siyasi risklərin iqtisadi anatomiyası»

**"İranda son günlərdə baş verənlərin başlanğıc nöqtəsi valyuta şokudur. Rialın sürətli dəyər itirməsi qiymətləri dərhal qaldırır, alıcılıq qabiliyyətini öldürür və bazarda psixoloji panika yaradır. Bu panika isə iqtisadi narazılığı siyasi narazılığa çevirir. İnflyasiya isə artıq statistik göstəricidən gündəlik yaşayışın ölçüsünə çevrilib. Əsas çörək, ərzaq, gündəlik xərclər insanların hiss etdiyi real inflyasiyanı daha yüksəldir. Qara bazarda dollar məzənnəsi hökumətin manipulyasiya edə bilmədiyi canlı indikator kimi işləyir. Rəsmi inflyasiya ilə real hiss edilən inflyasiya arasındakı fərq böhranın yüksəldir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, valyuta bazarına müdaxilə psixoloji böhran hissini boğmağa və inflyasiyanı yavaşıtmağa hesablansa da, sərt sanksiya şəraitində bu balans davamlı qoruna bilmir:

"Hakimiyyətin iqtisadi manevr sahəsi hər gün daralır. Sanksiya təzyiqi, 12 günlük müharibə sonrası zədələnmə, büdcə sıxıntısı, subsidiyaların sızma və korrupsiya kanalları eyni anda işləyir. Üstəlik enerji və su çatışmazlığı sənaye istehsalını dayandırır. Bu isə inflyasiyanı təkcə tələb yox, həm də təklif tərəfdən də böyüdür. Belə şəraitdə iqtisadi tədbir görmək zərurətdir, amma hər tədbirin öz riski var. Hökumət etirazı söndürmək üçün iqtisadi addımlar atmağa məcbur olur. Lakin həmin addımların özü yeni qiymət dalğası yarada bilər. Subsidiyaların mexa-



nizmi dəyişəndə sistemin bir hissəsində korrupsiya azalır, digər hissəsində qısamüddətli bahalaşma riski artır. Maaş artımı, ƏDV endirimi, əsas mallar üçün subsidiyalı valyuta, çörək və təqaüd xərcləri kimi büdcə paketləri sosial amortizator rolunu oynayır".

İqtisadçı deyib ki, amma bu paketlər fiskal riskləri də böyüdür: "İnternetin və telefon xətlərinin kəsilməsi isə ikiqat iqtisadi zərbədir. Bir tərəfdən etirazların koordinasiyasını zəiflətmək üçün siyasi alət olsa da, digər tərəfdən iqtisadi dövriyyəni dondurur. Xidmət sektoru, logistika, maliyyə tranzaksiyaları, məlumat axını kəsiləndə bazarın normal işləmə qabiliyyəti pozulur. Uçuşların ləğvi kimi detallar da daxildə ticarət dövriyyəsinin, xaricdə isə sığorta və daşınma risk qiymətləndirməsinin sərtləşdiyini göstərir. Paralel olaraq ölənlərin və həbs dalğasının artması riskin dərəcəsini yüksəldən indikatordur. Yəni ölüm və həbs siyasi gözləntilərlə paralel, iqtisadi gözləntiləri də sərtləşdirir. Makro səviyyədə ən mühüm işarələrdən biri proqnozların dəyişməsidir. Artım gözləntilərinin daralmaya çevrilməsi o deməkdir ki, şok artıq yalnız küçədə və bazarda deyil, makro göstəricilərin özündə də oturub. İnvestor üçün bu riskin müvəqqəti olmadığını deyən siqnaldır. Belə yerdə əsas problem sabahın qeyri-müəyyənliyidir. Hadisələrin neft qiymətlərinə təsirinə gəlincə, neft bazarı həm aşağı, həm yuxarı istiqamətdə işləyə bilər".

E.Əmirov bildirib ki, İranın hasilat və ixrac miqyası Venesueladan böyük olduğuna görə siyasi yumşalma olarsa, sanksiyaların zəifləməsi və investisiya axını nəticəsində təklif artımı (neft satışı) mümkündür:

"Amma xaos dərinləşərsə, region sabitliyi və nəqliyyat təhlükəsizliyi riskləri qiyməti sıçrada bilər. Buna görə də belə hadisələr həm təklif artımı ümidini, həm də azalma qorxusunu eyni vaxtda yaradır. Digər diqqət cəlb etməli istiqamətlərdən biri Hörmüz boğazıdır. Oradan gündə təxminən 20 milyon barel neft keçir. Bu isə qlobal istehlakın 1/5-nə bərabərdir. LNG ticarətinin də əhəmiyyətli hissəsi həmin boğazdan keçir. Alternativ marşrutlari isə məhduddur, yəni risk yüksələn kimi daşınma və sığorta xərci dərhal artır və bu xərc qiymətə risk kimi oturur. Bu istiqamətdə həssas olan isə daha çox Asiya bazarlarıdır. Çünki əsas axın istiqaməti elə oradır.Buna görə də bahalaşma üçün Hörmüzün bağlanması şərt deyil. Hər zaman qeyd etdiyim kimi müasir dünyada proqnozlar və ehtimallar qiymətlərə tələb-təklifdən daha çox təsir göstərir. Çünki, bazar artıq çox vaxt bağlanma ehtimalının özünü qiymətə yazır. Gərginlik uzandıqca qlobal iqtisadi nəticə tək enerji qiyməti ilə məhdudlaşmır, logistika və tədarük zənciri xərcləri üzərindən inflyasiyaya da çevrilir.Əlqərəz, İran məsələsinin iqtisadi özəlliyi odur ki, daxildə valyuta və yaşayış xərci böhranı, xaricdə isə risk faktorları və Hörmüz kanalı eyni anda işləyir".

**Eldar**

# Qrenlandiya xalqından Trampa: "Biz Amerikalı olmaq istəmirik!"

**Qrenlandiyadakı siyasi partiyalar ABŞ prezidenti Donald Trampın Danimarkaya məxsus ada üzərində nəzarəti ələ keçirmək cəhdlərinə qarşı çıxıb.**

Adalet.az xarici mediaya istinadla xəbər verir ki, Qrenlandiya Parlamentində beş partiya tərəfindən imzalanan birgə bəyanatda deyilir:

"Biz Amerikalı olmaq istəmirik, biz danimarkalı olmaq istəmirik; biz qrenlandiyalı olmaq istəyirik".

Partiyalar ABŞ-ni ölkəyə qarşı alçaldıcı münasibətinə son qoymağa çağırıb və bildiriblər ki, Qrenlandiyanın gələcəyinə Qrenlandiya xalqı qərar verməlidir. Verian tədqiqat şirkətinin sorğusuna əsaslanan Financial Times hesabatına görə, Qrenlandiya əhalisinin 85 faizi ABŞ vətəndaşı olmaq istəmir.

Sorğuda iştirak edənlərin əksəriyyəti Danimarkada həyat səviyyəsinin daha yüksək olduğunu, ABŞ-də cinayətkarlıq səviyyəsinin və yüksək səhiyyə xərclərinin onları narahat etdiyini bildirib.

Tramp isə Vaşinqtonun strateji əhəmiyyətli Arktika adasının Rusiya və ya Çinin təsiri altına düşməsinin qarşısını almaq üçün hərəkətə keçməli olduğunu iddia edib. Ağ Evdə keçirilən tədbirdə jurnalistlərə danışan Tramp deyib ki, Başqalarının xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq, Qrenlandiya ilə bağlı bir şey edəcəyik. Əks halda, Rusiya və ya Çin nəzarəti ələ keçirəcək. Asan bir razılaşma əldə etmək istərdim, amma asan deyilsə, bunu çətin yolla edəcəyik".

**ABŞ prezidenti dəfələrlə bildirib ki, Danimarkaya məxsus və NATO müttəfiqi olan ada ABŞ-nin nəzarəti altına keçməlidir. O, işğal ambisiyaları üçün Rusiya və Çin gəmilərinin bölgədə artan iştirakını əsaslandırıb. Trampın hərbi güc və ya iqtisadi təzyiq ehtimalını istisna etməyən açıqlamaları isə narahatlıq doğurub. Ərazisi əsasən buzlaqlarla örtülü olan Qrenlandiyanın təxminən 57.000 əhalisi var.**

**Sübhan**



Günel Məlikli,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

# Ölkəmizin elmi nüfuzu

**Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, sabit və inamlı inkişafı liderlik amili ilə birbaşa bağlıdır. Lider öz ağlı, iradəsi, qərar qəbul etmək səriştəsi, insanlara doğru yolu göstərmək bacarığı ilə xalqı vahid amal uğrunda səfərbər edən, arxasınca apara bilən qüdrətli şəxsiyyətdir. Cənab İlham Əliyev yüksək nüfuzu, müdrikliyi, novatorluq və digər keyfiyyətləri özündə təcəssüm etdirən lider kimi dövlətimizin inkişafı, mənəvi dəyərlərimizi qorunması, xalqın güzəranının yaxşılaşması istiqamətində səylə çalışır.**

Dünya mediasının diqqət mərkəzində olan möhtərəm prezident İlham Əliyevin müsahibələri ənənəvi xarakter daşıyır.

Hər ilin əvvəlində görüşərək Azərbaycan ictimaiyyətinə yekunları ilə bağlı məlumat verir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2025-ci il tarixi il sayıla bilər. Çünki məhz keçən 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyinəzərdən son qoyuldu.

Bu tarixi müsahibə, Prezident İlham Əliyevin dünyaya təqdim etdiyi sabitlik mesajıdır. Azərbaycanın bütün sahələrdə qazandığı uğurların göstəricisi oldu . Bu gün dünyada güc amili var. Prezident İlham Əliyevin güclü diplomatik təcrübəsi, idarəetmə və liderlik təcrübəsi Azərbaycanın inkişafında, iqtisadiyyatın güclənməsində, ordu quruculuğunda, neft strategiyalarının həyata keçirilməsində böyük rol oynamışdır. Cənab Prezident İlham Əliyev də güc faktoru haqqında qeyd etdi: ”Güclüsənsə, haqlısan” məntiqi işləyir. Ona görə biz gücümüzü artırırıq, o cümlədən hərbi gücümüzü. Ordu quruculuğu məsələsində səsləndirilən fikirlər dövlətimizin hərbi qüdrətinin zirvəsini göstərir. Sülh şəraitində yaşamaq nə deməkdir? Amma, eyni zamanda, yenə də qayıdıram danışdığımız məsələyə. Hər an ayıq olmalıyıq, güclü olmalıyıq. Hər an öz torpağımızı müdafiə etmək üçün güclü olmalıyıq, hazır olmalıyıq və əminəm ki, bundan sonra heç vaxt bir qarış torpağımız heç kimin tapdağı altına düşməyəcək. Bunun üçün həm güc var, həm iradə var, xalqın birliyi var. Güclü Azərbaycan dövləti var.

Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibə Azərbaycanın gələcək strateji hədəflərini, inkişaf yolunu müəyyən edir. Bu gün ölkəmizin inkişafında və dünya səviyyəsində tanınmasına səbəb olan təcrübəli diplomat, Prezident İlham Əliyev məhz gənc yaşlarında yiyələndiyi diplomatiyanın bütün sirlərindən məharətlə istifadə edən siyasi xadim beynəlxalq arenada Azərbaycanın maraq və mənafelərini qorumuşdur. Prezident İlham Əliyevin xarici siyasətimizin uğurları haqqında sadalamışdır: ”Böyük əhəmiyyət daşıyan hadisələrdən biri də bizim Çinlə olan strateji tərəfdaşlığımızdır. Digər tərəfdən, biz D-8 təşkilatına üzv olduq. Bu təşkilat 30 ilə yaxındır ki, yaradılmışdır və yarandığı gündən yeni üzv qəbul etməmişdir. Ona görə bu günə qədər adı da D-8-dir. Yeganə yeni üzv Azərbaycan olmuşdur. Xarici siyasətlə bağlı digər önəmli nailiyyət Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməyimizdir. Xankəndidə keçirilən ECO Zirvə Görüşü. Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşü. Bu, həmişə bizim siyasətimizin ana xəttini müəyyən edən istiqamətdir.

Prezident İlham Əliyevin liderlik fəlsəfəsinin əsas hissəsini güclü dövlət təşkil edir. Ali Baş Komandanımız qeyd edir: ”Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Çünki mən uzun illərdir deyirəm və bunu əməli işlərdə də biz görürük ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu, sadəcə olaraq, şüar deyil. Bizim bütün siyasətimiz həm sosialyönümlüdür, həm də ki, investisiyayönümlüdür. Prezident İlham Əliyevin müsahibəsi Azərbaycanın enerji siyasətinin təkcə bu günü deyil, gələcək inkişafını göstərir. Günəş panellərinin istehsalı üzrə zavodun tikintisinə başlanılıb, elektrik avtobuslarının yığılmasına başlanılıb. Bununla bağlı deməliyəm ki, bu, Azərbaycan tərəfinin strateji qərarı olub, çünki biz təkcə yaşıl energetikanı deyil, həm də yaşıl nəqliyyatı inkişaf etdirmək qərarına gəldikdə, gündəmdə strateji tərəfdaş seçmək məsələsi dayandı və Çin şirkətlərini seçdik.

Prezident müsahibədə daxili və xarici siyasətin əsas istiqamətləri ilə yanaşı, enerji sektorunda həyata keçirilən islahatlara toxunaraq bildirdi. Azərbaycan bu gün və gələcək illərdə Avropa istehlakçıları üçün mühüm tərəfdaşdır. Enerji təhlükəsizliyi baxımından etibarlı təchizatçı kimi rolumuz yalnız artacaq, azalmayacaq, artacaq. Elektrik enerjisini, yaşıl enerjini, hidrogeni, eləcə də yaşıl hidrogeni əlavə etsək, rolumuz daha da böyük olacaq.

Bizim ən böyük sərvətimiz dilimiz yaşayıb və zənginləşməsi ilə bağlı. Prezidentin sözləri diqqəti cəlb edir: ”Dil dövlətçiliyin əsas atributlarından biridir, bəlkə də birincisidir, təbii ki, bayraqla, gerblə, himnlə birlikdə. ”Elm heç kəsin istəyindən və iradəsindən asılı olmayan gerçəkliyi aşkar və sübut edir.Hər bir dövlətin keçdiyi inkişaf yolunu, siyasi-ictimai, elmi-mədəni fəaliyyətini müəyyən edən milli inkişaf sistemi və bu sistemin qurulması üçün görüləcək işlərin xarakterini və ardıcıllığını müəyyən edən milli inkişaf strategiyası vardır. Bu baxımdan Prezident İlham Əliyevin həyata keçirdiyi milli inkişaf strategiyasının araşdırılması elmi-praktik baxımdan zəruridir. Bu müsahibə bir daha göstərdi ki, dövlətimizin strateji inkişaf xəttinin mərkəzində insan kapitalı, dayanır. Prezident İlham Əliyevin qətiyyətlə vurğuladığı kimi, inkişaf etmiş ölkələrin uğurunun əsasında elm və təhsil dayanır. Prezident İlham Əliyevin Akademiyanın tədbirinə gəlməsi biz alimlərin həyatında müstəsna rol oynamışdır. Prezident vurğulayır: Elmlər Akademiyası təbii ki, artıq uzun illərdir fəaliyyət göstərir və mən də yubiley tədbirlərində iştirak etmişəm. İndi struktur islahatları gedir. Bir çox elmi-tədqiqat institutları bir-biri ilə birləşdirilir. Struktur islahatları ilə paralel olaraq, kadr islahatları da gedir, daha müasir, daha gənc kadrlar önə çəkilir. Burada keyfiyyət əmsalını da tapmaq o qədər də çətin deyil.

Bu, dünya təcrübəsində var. Prezident İlham Əliyevin çıxışı Azərbaycan elminin inkişafının daha zirvəyə çatmasına xidmət edəəkdir. ” Sənin elmi əsərlərin hansı elmi jurnallarda, hansı dərgilərdə nə qədər çap olunub və sənin elmi potensialın bugünkü reallıqlara nə dərəcədə uyğundur.” Prezident İlham Əliyev vurğuladı ki, ”Təhsilin keyfiyyətinin, müəllimlərin sosial təminatının və peşəkarlığın artırılması, test sistemi və sair. Bütün bu amillər bir məqsəd güdür ki, cəmiyyət savadlı və bilikli olsun. Ancaq o halda biz uzunmüddətli inkişafa nail ola bilərik. ”.Hazırda Prezident İlham Əliyevin Azərbaycan gəncliyinin elm sahəsindəki maraqlarının inkişafına diqqət və qayğısının sayəsində Azərbaycan gəncliyi özünün intibah dövrünü yaşayır. Dövlətimizin başçısı İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində qeyd etdi ki, bizim çoxlu istedadlı gənclərimiz var. Dövlət başçısının səsləndirdiyi fikirlər alimlərin, xüsusilə də gənclərin diqqət mərkəzindədir. Əgər biz doğrudan da elmi inkişaf etdirmək istəyiriksə, sadəcə, elmi işçiləri işlə təmin etmək yox, elmi inkişaf etdirmək istəyiriksə, bu islahatlara getməliyik. Bizim çoxlu istedadlı gənclərimiz var. Bizim cəmiyyətimiz çox gözəl cəmiyyətdir. Bütün bu prezidentin müsahibəsində prioritet hədəflər biz gənclərin üzərinə də böyük məsuliyyət düşdüyünü göstərir. Fəaliyyətinizdə biz gənc alimlər hər zaman Prezidentin ətrafında bir yumruq kimi birləşəcəyik.

**Sonda prezident İlham Əliyevin qeyd etdiyi kimi bildirmək istəyirəm ki, atılan bütün addımlar müasir müstəqil, qalib Azərbaycanın.gələcəyinə xeyli fayda gətirib, xidmət edir və bu müsahibə gələcək yol xəritəsinin prioritetlərinin göstəricisidir. Prezident İlham Əliyevin Azərbaycanı qalib dövlətə çevirmək strategiyası və bacarığı təkcə gənc nəsil və gələcək nəsillər üçün nümunə olacaqdır. Azərbaycan Respublikası Prezident cənab İlham Əliyevin titanik fəaliyyəti ilə daha yüksək zirvələri fəth edəcəkdir.**

*Murad Köhnəqala*



# Axrınıza çox az qaldı, mollalar!

**İranda baş verən ixtişaşlar artıq təkcə etiraz dalğası deyil, minlərlə insanın həyatına son qoyan qanlı bir faciəyə çevrilib. Rəsmi rəqəmlər gizlədilsə də, qeyri-rəsmi məlumatlar bu prosesdə minlərlə etirazçının öldürüldüyünü, on minlərlə insanın isə yaralandığını və həbs olunduğunu göstərir. Küçələrdə axıdılan qan, boğulan səslər və susdurulan etirazlar bu ölkədə hakimiyyətin xalqla hansı dillə danışdığını açıq şəkildə ortaya qoyur.**

**Bu ixtişaşların yatırılması zamanı istifadə olunan üsullar qəddarlığı, alçaldıcı mahiyyəti və açıq şəkildə qisas xarakteri daşıması ilə seçilir. Kütləvi etirazların dağıdılması prosesində təhlükəsizlik strukturları klassik polis tədbirlərindən çox, hərbi əməliyyatları xatırladan metodlara əl atır. İslam İnqilabı Keşikçiləri Korpusu (Sepah) və ona bağlı ”Bəsic” qrupları təkcə rəsmi formada deyil, həm də mülki geyimli dəstələr şəklində etirazçıların arasına sızaraq qəfil hücumlar təşkil edir. Bu taktikalar kütlə içində qorxu, panika və tam nəzarətsizlik yaratmaq məqsədi daşıyır.**

**Ən sarsıdıcı məqamlardan biri isə humanitar dəyərlərin açıq şəkildə tapdalanmasıdır. Təcili tibbi yardım maşınlarının və üzərində humanitar simvollar olan nəqliyyat vasitələrinin əməliyyat məqsədilə istifadə olunması, yaralıların daşınmalı olduğu texnikanın repressiya alətinə çevrilməsi tibbi neytrallıq prinsipini yerlə-yeksan edir. Bu addımlar insanlarda artıq heç bir quruma güvən qalmadığını acı şəkildə göstərir.**

**Müşahidələr və yayılan görüntülər sübut edir ki, güc tətbiqi zamanı atəşlər əsasən insanların həyati vacib nahiyələrinə - başa və bədənin aşağı hissələrinə tuşlanır. Bu fakt, məqsədin sadəcə izdihamı dağıtmaq olmadığını, etirazçıları həm fiziki, həm də mənəvi cəhətdən sındırmaq, alçaltmaq və sıradan çıxarmaq niyyəti güddüyünü açıq şəkildə ortaya qoyur.**

**Bütün bunlar göstərir ki, İranda etirazlara yanaşma hüquq-mühafizə çərçivəsindən çıxaraq hərbiləşdirilmiş, qorxu və psixoloji təzyiq üzərində qurulmuş bir repressiya modelinə çevrilib. Bu model isə nəinki ölkədaxili qanunları, eyni zamanda beynəlxalq insan haqları prinsiplərini kobud şəkildə pozur və İran cəmiyyətini daha dərin qisasçılığa sürükləyir.**

# *ABŞ niyə İranın parçalanmasını istəməz?*



**”Neft və qazla zəngin olan 90 milyonluq ölkəni dağıtmadan, bütövlükdə götürüb koloniyaya çevirməkdən hansı ağılsız imtina edər? Bunun üçün lazım olan əsas məsələ ölkəyə rəhbər kimi öz vassalını təyin etməkdir. Hər şey buradan başlayaraq, ingilisin əsrlər boyu sınanmış koloniya idarəetmə konsepsiyası ilə həll oluna bilər”.**

Adalet.az xəbər verir ki, bunu yazıçı Səfər Alışarlı deyib.

O, deyib ki, ondan sonra sərvətləri talanan, aclıq və səfalət içində çabalayan xalq yalnız bir tikə çörək və kommunal xərcləri haqqında düşünəcək, getdikcə oturuşan diktatura möhkəmlənə-möhkəmlənə xalqa düşmən kəsiləcək, rüşvətxor məmur ordusu yadelli ağalara yaxşı xidmət üstündə bir-birini qıracaq, ölkənin ordusundan qonşulara və daxili əleyhdarlara qarşı cəza dəstələri kimi istifadə olunacaq:

”Rus imperiyası sərasər 200 il bunun hər üzünü bizə, qonşularımıza və bütün dünyaya göstərib. Budur müasir və klassik müstəmləkəçiliyin anatomiyası. İran parçalansa, müstəmləkəçilər üç-dörd kiçik dövlətlə üz-üzə qalaraq başağrısı çəkə bilərlər. Belədə isə 1 nəfəri itaətdə saxlayıb, onilliklər boyu zəngin bir ölkəni talayar, böyük bir xalqı, sözün həqiqi mənasında, minib çapa bilərlər. Bu mənada, hətta ehtimal etmək olar ki, ABŞ nə vaxtsa Maduranı azad edib, onu yenidən öz ölkəsinin rəhbərliyinə qaytarsın. Onlar üçün ilanı kimin əli ilə tutmağın heç bir fərqi yoxdur. Ona görə ABŞ və onun Yaxın Şərqdəki əlaltıları İranın parçalanmasını istəməz və istəklərinə nail olsalar, tezliklə ondan Türkiyəyə qarşı düşmənçilik aləti kimi istifadə etməyə başlayarlar. Belə bir vəziyyətdə İranın və bütövlükdə regionun türkləri çox tədbirli olmalı, vəziyyəti öz xeyirlərinə dəyişmək üçün lazım olan nə varsa, vaxtında etməlidirlər. Heç bir şahzadə, heç bir monarxiya xalqları quduz imperializmin caynaqlarından qoruya bilməz”.

**Vasif ƏLİHÜSEYN**

# Saxta saytlara qarşı diqqətli olun!

**Son günlərdə fişinq xarakterli müxtəlif saxta domenlər yaradılaraq sosial şəbəkələr və messengerlər vasitəsilə əhali arasında dövlət tərəfindən ünvanlı sosial yardımların verilməsi ilə bağlı dezinformasiya yayılmaqdadır.**

Adalet.az xəbər verir ki, bu barədə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti məlumat yayıb. Bildirilib ki, xüsusilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin və tabeliyində fəaliyyət göstərən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi PHŞ-yə məxsus ”myGov” portalının adından istifadə olunmaqla saxtalaşdırılmış saytlar yaradılaraq vətəndaşların fərdi məlumatlarının ələ keçirilməsi hədəflənir.

Sözügedən saxta saytlar vasitəsilə kimlik məlumatlarının, istifadəçi hesablarının və bank kartları kimi mühüm məlumatların ələ keçirilməsinə cəhd edilir.

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter İnsidentlərinə Qarşı Mübarizə Mərkəzi (bundan sonra Mərkəz) tərəfindən bu kimi saxta domenlərin bir neçəsi müəyyən edilərək müvafiq qurumlarla birgə ölkə üzrə bloklanması təmin edilmişdir.

Eyni zamanda, həmin saxta domenlər Mərkəzin ”Blacklist.gov.az” platforması vasitəsilə də ictimaiyyətə təqdim olunub.

**”Vətəndaşlara saxta domenlər aşkar etdikdə bu barədə məlumatı Blacklist.gov.az - vətəndaşların saxta domenlərdən qorunması platformasına əlavə etmələri, saxta saytlardan qorunmaq məqsədilə öz brauzerlərində platformanın müvafiq genişlənməsindən istifadə etmələri, eləcə də şübhəli sayt və keçidlərə qarşı diqqətli olmalarını tövsiyə edirik”, - deyə məlumatda qeyd olunub.**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# SİRLƏRİMİ ÖZÜNƏ HOPDURAN OTAQ

Mənə görə sözü eşitmək, onu qavramaq artıq elə onun mahiyətinə varmaqdı. Yəni qəzetin hansı gün çap olunmasından söhbət getmir, onun oxunmasından söhbət gedir. Fikrimi sadə bir məsəllə açıqlayım : - Əgər beş il, on il bundan öncə çap olunmuş qəzeti mən bu gün oxuyuramsa, deməli, o mənim üçün təzədi. Bax, bu mənada hər gün səslənən söz nə qədər ətrafımda gəzib dolansa da, o, əgər mənə ünvanlanmayıbsa mən onun ardınca getmirəm. Amma söz qapımı döyəndə ona ürəyimin qapısın açıram ...

Bax, bu mənada mənim bu yazımın da işıq üzü görməsində bir sözün qığılcım kimi alışması kifayət etdi. Yəni iş otağıma daxil olan bir Allah bəndəsi vurğuladı ki, bu otaq mənə keçmişi xatırladır - həm aurası ilə, həm içərisindəki mənzərə ilə, həm də burada tez-tez səslənən retro musiqilərlə...

Doğrusu, mən özüm də bu barədə düşünmüşdüm və hətta ən yaxın dostlarım, mənə ərki keçən doğmalarım məni köhnəliyin qalığı kimi bir az qınasalar da, nədənsə mən köhnədən qaldığıma heç vaxt təəssüflənməmişəm, üzülməmişəm. Hətta zaman-zaman düşünüb belə bir məntiqi nəticəyə gəlmişəm ki, baş verənlərin heç biri təsadüf deyil. Onların hamısının mayasında bir zərurət var. O zərurət ilk anda təsadüf formasında ortaya çıxır. Elə ki, sular axıb durulur, elə ki, hər şey öz yerini tutur, bax, ondan sonra sakit bir tərzdə olanı, olmuşu vərəqləyəndə,saf-çürük edəndə və yaxud da düşünəndə adamın qarşısına təsadüfün mayasındakı zərurət çıxır. Elə səhər-səhər eşitdiyim iş otağımla bağlı fikrin də arxasında sən deməbir zərurət dayanırmış. O zərurət bu yazının doğulması imiş. mən də həmin zərurəti ürək açıqlığı ilə qəbul edib bu otaqda dünyaya gələn fikirlərin, duyğuların,misraların axarına düşürəm...

*Özü özündən bezib,*
*Küsmüş adam, kimiyəm...*
*Əlin ümiddən üzüb -*
*Kəsmiş, adam kimiyəm...*

*Yıxılıb əsən yelə,*
*Özün axıdıb selə...*
*Hətta ruhunu belə -*
*Əzmiş , adam kimiyəm!..*

*Sevgi adlı sənəti -*
*Məram etdim, mən qəti!*
*Sevinirəm, Cənnəti -*
*Gəzmiş, Adəm kimiyəm!*

***

Arxada bir zaman kəsiyi qaldı. Elə bir zaman kəsiyi ki, mən o zamanın içərisində təkcə özümünyox, həm də doğmalarımın, ailəmin ömrünə yazılan məqamların sevincini yaşamışam. Bu gün də həmin o sevinc mənim və doğmalarımın həyatını bəzəyir. Deməli,insan yaşa dolduqca onu iki məqam daha çox özünə çəkir. Biri torpaq, biri də ətrafında böyüyən körpələr, yəni nəvələr. Mən torpaq həsrətinin bütün acısını, bütün yanğısını artıq 30 ilə yaxın çəkdim... Yəni 1991-ci il oktyabrayının 30-dan bu acının, bu nisgilin nə demək olduğunu varlığımda hiss edim və elə o hiss etdiyim ağrının içərisində də özüm də özümüçün ikinci bir ağrıya çevrildim... Ona görə də yazanda ki, "torpaq çəkir adamı" mənə heç kim etiraz etmir. Ən azından bu şeirə görə oxucular məni qınamır. İnsanı çəkən, təbiiki, yaşlı insanı çəkən ikinci məqam nəvələrdi. Mən zaman-zaman qonşuda, qohumda"dövlətdə dəvə, övladda nəvə" deyən yaşlıların fikirlərini çox dinləmişəm.Amma etiraf edim ki, onların nəvə ilə bağlı söylədikləri mənə bütünlüklə hopmamışdı. Elə ki, mənim də boynuma baba misiyası düşdü, onda anladım ki, sən demə yaşlı kişilər ağızlarının dadını bilirmiş. Baba sözünün şirinliyini , təravətini qiymətləndirmək və onun işığında yaşamaq sən demə ayrı bir dünya imiş.



Mən bu doğmalığın, yəni bu mühitin içərisində anladığım həmin o torpağın və nəvənin, yəni uşağın yaşlı insanı özünə çəkməsinin nə qədər böyük bir mənanın, nə qədər tutumlu bir həyat sirrinin gücü qarşısında, ağırlığı altında susuram. Və düşünürəm ki, bu həm də onlara qoşulub əylənəndə məni uşaqlaşdırır, məni uşaqlığıma qaytarır. Necə deyərlər, mən də uşaq oluram. Bax, İlahi güc, İlahi sevgi, həm də gözə görünmədən öz əhatə dairəsində insanı yaşadan, hərəkət etdirən qüvvə məncə elə budu. Bu qüvvənin, bu gücün adı və həm də dadı yəqin ki, böyük hərflərdə yazıla bilən bağlılıqdı. Qan, hiss, duyğu və bütövlükdə sevgi bağlılığı! Ailəyə, dünəninə, bugününə və sabahına olan bubağlılıq bəlkə də elə biz dünyaya gələn andan bizimlə birgə doğulur, bizimlə birlikdə günləri, illəri, ayları başa vurur.

Mən də öncədən dediyim kimi, bax bu sirli, həm də köhnəliyi özündə ifadə edən iş otağımdan kağıza köçürdüyüm duyğularımı sizə anladanda bu təzə sözü də, yəni nəvələrlə bağıl fikirləri də fadə etimş oldum. Bu fikirləri bir tala çiçəyə bənzətsək, onun üzərindəki şeh damlalarının da yəqin ki, öz yeri olar.

*Vəd vermişdim -vədimi*
*Özüm unutdum,özüm...*
*Su səpdiyim ocağın -*
*Közün unutdum,közün...*

*Bəllidi neylədiyi*
*Yaramın göynədiyi*
*Ucadan söylədiyi-*
*Sözün unutdum, sözün...*

*Bir dəli məhəbbətin*
*İçmək üçün şərbətin...*
*Bu yazıq Əbülfətin-*
*Özün unutdun,özün!*

***

Hər kəs durduğu yerdə, daha doğrusu, doğulduğu yerdə özünü güclü sayır, özünü güvəncli, arxalı,həm də bir az başqalarından səlahiyyətli hesab edir. Bu mənada götürəndə mənim doğulduğum kəndlə paytaxt arasında çox böyük bir məsafə var.

Mən o məsafəni hərgün xəyalən azı iki-üç dəfə gedib qayıdıram. Gedəndə də nəfəsim kəsilir,qayıdanda da. Gedəndə də gözlərim dolur, kirpiklərim nəmlənir, qayıdanda da yanaqlarımdakı şırımları silmək, qurutmaq yadımdan çıxır...

... Və yaxşı bilirəm ki, inamsız yaşamaq qeyri-mümkündü. Ona görə içimdəki inamın ətəyini əldən buraxmıram.Əksinə, onun daha da möhkəmlənməsi, ayağının yer tutması üçün özümü hər gün təkrar-təkra kökləyirəm. Necə deyərlər, hazırlıqlı bir duruma gətirirəm.Və yaxşı ki, hər kəs özünə, öz içinin havasına köklənir...

Bəli, bu gün köhnəliyi xatırladan bir otaqda köhnəliyin nişanəsi olan bir Allah bəndəsi düşüncələrini, yaşantılarını və bir az da duyğularını araya-ərsəyə qoydu. İndi necə ifadə olundu, necə alındı, bu tamam başqa söhbətdi. Əsas odur ki, dünən bugünün bünövrəsidi. Köhnəlik yeniliyin alt qatıdı.

Bunlarsız ayaqda durmaq,mübarizə aparmaq zənnimcə çətindir, hətta bəlkə mümkün də deyil. Çünki özülsüz,köksüz, köməksiz evi də, ağacı da külək daha tez yıxır, daha tez uçurur.

Mən daxilən, həm də inamıma görə, özülü üst qatdan daha gərəkli saymışam.

Tural Adışirin



# Azərbaycan dili və müasir dil siyasəti

## *Prezident İlham Əliyevin çıxışları kontekstində*

*Azərbaycan dili müasir milli dövlətçilik quruculuğunda identiklik, siyasi suverenlik və mədəni davamlılıq baxımından strateji status daşıyan əsas institutlardan biridir. Azərbaycan Respublikasının dövlət dili kimi təsbit olunmuş bu dil yalnız kommunikasiya vasitəsi deyil, həm də milli yaddaşın, sosial sərhədlərin və mədəni simvolların qorunmasının aparıcı mexanizmlərindən hesab olunur. Müasir dövrdə dil siyasəti müxtəlif dövlətlərin mədəni təhlükəsizlik strategiyalarında prioritet sahə kimi qiymətləndirilir və Azərbaycan da istisna deyil.*

*Prezident İlham Əliyevin müxtəlif çıxışlarında Azərbaycan dilinin statusu, tarixi inkişaf xətti və gələcək perspektivləri məsələsinə xüsusi yer ayrılır. Bu çıxışlar dil məsələsinin Azərbaycanda dövlət ideologiyasının tərkib hissəsi olduğunu göstərir. Prezidentin vurğuladığı kimi, Azərbaycan dilinin qorunması həm milli identikliyin saxlanılması, həm də qlobal təsir prosesləri şəraitində mədəni suverenliyin təmin olunması kontekstində strateji əhəmiyyət kəsb edir. Bu yanaşma sosiolinqvistika və dil siyasəti nəzəriyyələri ilə səsləşir; çünki müasir dünyada dil yalnız mədəni fenomen kimi deyil, həm də "yumşaq güc" elementlərindən biri kimi qəbul olunur.*

*Azərbaycan dilinin dövlət səviyyəsində inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən təhsil sistemində dilin mövqeyinin möhkəmləndirilməsi, media və kommunikasiya sahələrində normativ standartlaşdırma, terminologiya komissiyalarının fəaliyyəti və informasiya mühitində ədəbi dilin qorunması, dil siyasətinin institusionallaşdığını göstərir. Bu mühitdə Prezidentin dil haqqında çıxışları siyasi diskursda Azərbaycan dilinin yalnız keçmişin mirası kimi deyil, həm də gələcəyin strateji kapitalı kimi təqdim olunduğunu nümayiş etdirir.*

*Digər tərəfdən, qloballaşma şəraitində dil məsələsi texnoloji faktorlarla da sıx bağlıdır. Rəqəmsal media, süni intellekt sistemləri və internet kommunikasiya ekosistemi milli dillər üçün həm risk, həm də imkan yaradır. Bu çərçivədə dövlət rəhbərliyi səviyyəsində dilə dair vurğular milli dilin qlobal rəqabətə adaptasiyasının vacibliyinə işarə edir. Dilin yalnız qorunması deyil, həm də modernləşdirilməsi məsələsi sosiolinqvist kontekstdə xüsusi aktuallıq qazanır.*

*Nəticə etibarilə, Prezident İlham Əliyevin çıxışlarında Azərbaycan dilinə verilən yer ölkədə dilin milli kimliyin, mədəni suverenliyin və siyasi legitimliyin əsas komponentlərindən biri kimi qəbul edildiyini göstərir. Bu fakt dilin dövlətçilik institutları ilə qarşılıqlı əlaqəsini və onun müasir milli ideologiyada oynadığı funksional rolu elmi səviyyədə təsdiqləyir. Beləliklə, Azərbaycan dili həm tarixi-mədəni varislik xəttinin daşıyıcısı, həm də qlobal çağırışlara adaptasiya olunan müasir dövlət siyasətinin mühüm elementi kimi qiymətləndirilməlidir.*

# *Məzuniyyətə görə pul almaq olar?*



**İşçi ilə işəgötürən arasında əmək müqaviləsinin əsas şərtlərindən biri işçinin məzuniyyət hüququdur. Belə ki, rəsmi əmək müqaviləsi ilə işləyən hər kəsə 21 gündən az olmayaraq ödənişli məzuniyyət verilir. Bəzən isə işçilər məzuniyyət götürmək istəmir, əvəzində kompensasiya istəyirlər. Bəs bu necə tənzimlənir?**

Adalet.az xəbər verir ki, işçilərin məzuniyyətə çıxmaması Konstitusiyada əks olunmuş istirahət hüququnun pozulması deməkdir. Eyni zamanda əməyin mühafizəsi qaydalarına ziddir.

Məsələ ilə bağlı Dövlət Əmək Müfəttişliyi xidmətinin əməkdaşı Namiq Ağayev bildirib ki, hazırda işçinin məzuniyyətə çıxmayıb kompensasiya istəməsi mümkündür: "Müvafiq iş yerində istənilən səbəbdən işçi tərəfindən əmək məzuniyyətindən istifadə edilmədikdə həmin iş yerinə görə işə götürən tərəfindən müvafiq qaydada kompensasiya ödənilməlidir. Həmçinin, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 192.6-cı maddəsinə əsasən, işçinin məzuniyyət hüququnun pozulmasına, işçiyə əmək məzuniyyətinin verilməməsi və kompensasiyanın ödənilməməsi görə inzibati tənbeh tədbiri nəzərdə tutulmuşdur. Bu halda vəzifəli şəxslər 1500 manatdan 2000 manata qədər cərimə edilə bilərlər".



Ayaz Arabaçı

# Proloqsayağı...

Hekayə

Bu hekayəni qələmə almağa nə gücüm, nə də həvəsim vardı, oldu-keçdi bir şey kimi qəbul edib bu mövzunun başını bağlamağı düşünürdüm. Amma sonra elə şeylər oldu ki, mən yaddaşımı təzələyə-təzələyə olub bitənləri bir də vərəqlərdə şəkilləndirmək qərarına gəldim.

"Bir manatlıq" taksidən köhnə çay fabrikinin yanında düşdüm.

Axşamdan başlayan qar yolu-izi bağladığından maşınlar təkəm-seyrək dəyirdi gözə. Adamlar qalın kürkdə bizonları xatırladırdı.

Burda 28- tərəfdə günəş çıxmışdı, həm də elə-belə yox, yanvarın ortasında qışa meydan oxurcasına. Günəşə ac gözlərimlə, onu uzun müddə seyr eləyərək istiliyini sonsuzadək gözlərimdə qapatmaq istəyirdim. Qar güclənirdi. Havanın üzündəki ifadədən hiss olunurdu ki, bir azdan günəşi paketləyib atacaq buludların dalına. Üzü parka tərəf gedən yolda iki dəfə sürüşüb yıxıldıqdan sonra addımlarımı diqqətlə atmağa və qarla daha çox ehtiyatlı davranmağa qərar verdim. Rəşidlə 12-də görüşəcəkdik..Mən saat 10-da çıxmışdım evdən. Əqrəblər xeyli irəliləsə də hələ vaxta vardı.

Önümdə qəfil bitən dilənçi qadının "Allah balalarını saxlasın"alqışına 50 qəpik verib yoluma davam etdim.Axşamdan yağan qara əvvəlcə hirslənsəm də qəlbimi sonsuz fərəhlə doldurduğundan indi ona hüsn-rəğbətim artmışdı. Qar şəhəri əməlli-başlı korreksiya eləmişdi,yolların çala-çuxurlarını örtmüş, zibil yeşiklərini gizlətmişdi.Vaxta hələ vardı,parka keçdim. Ağappaq qar şəhərin həm cismini , həm də ruhunu qaranlıq və bulanıq görüntülərdən təmizləmişdi.

Mən hələ də bir neçə həftə əvvəl oxuyub sona çatdırdığım kitabın təsirindən çıxa bilməmişdim..Heyrətləndiyim və düşünməyə vadar olduğum cümlələrin altından yaddaş üçün qırmızı xətt çəkməyimə baxmayaraq, gözlərimi ani olaraq yuman kimi həmin cümləni olduğu kimi görürdüm.Hər kəsdən gizlətdiyim qəribəliklər vardı məndə.Əvvəllər qurşandığım qumar oyununda da kartların o biri üzünü görə bilirdim.Pula güclü ehtirasım olmadığından və bu oyun məndə artıq təlaş və həyəcan yaratmağdığından o oyuna son verdim.

Olur ki, bəzən küçədə lap ciddi bir adam görəndə saxlayıb, ona gülməli bir lətifə danışmaq istəyirəm.Bəzən də avtobusda gedərkən elə bilirəm çimərlikdəyəm..Bir dəfə ortası qarmon kimi açılıb yığılan böyük avtobusun sürücüsündən soruşdum ki, toylara neçəyə gedir..Kişi təəccüblə üzümə baxıb mən "muzıkant" deyiləm dedi.. Mən də qeyri-ixtiyari, bəs onda bu qarmonu niyə almısan dedim.

Ən qəribə və inanmaz şey isə ikiləşməyimdir.Bəzən özümü skamyada oturub siqaret çəkdiyim halda görürəm, bəzən də kiminləsə şirin-şirin söhbət edən halda.Bu nəsə dərin bir mövzu olduğundan izahı üçün özümü yorub,əldən salmaq fikrim yoxdur.

Olsun ki, bu şeylər mənim psixikamla daha çox ələqəlidir, amma hisslərimə və gücümə inamım məndə müalicəlik bir şeyim olmadığına zəmin yaradır.Düzdür, bir az içənəm,bu da təsəvvürün dəyişməsi,tənhalıq əzabından qaçılması, həyata sevginin güclənməsi üçün pis deyil.

Qarşıdakı binanın üzü parka baxan pəncərəsi açıqdı. Parkda üç-dörd qarğadan və məndən başqa kimsə yoxdu. Qar sakitlik gətirmişdi. Gözlərim pəncərəyə yöneldi. Pəncərədə heç kim yox idi, bu soyuqda niyə açıq qoymuşdular ki..İçəri tam qaranlıqdı.Pəncərə nədənsə mənə "qara dəliy"i xatırlatdı. Özümü kosmik səyahətə çıxmış kimi hiss elədim. Hansısa cazibə məni o pəncərəyə çəkirdi. Mənə elə gəldi ki, bir azdan o pəncərə məni kamına çəkib udacaq. Başımda o qədər fikirlər cərəyan elədi ki, harda olduğumu unutdum. Dünyayla əlaqəmin pozulduğu açıqaydın özünü biruzə verirdi.Mənə elə gəldi ki, ayrı bir koordinat sistemindəyəm..Anidən pəncərə işıqlandı və pəncərədə səmadakı günəşi alt-üst eləyən bir gözəllik peyda oldu.Başım dumanlandı və get-gedə bu duman qıpqırmızı rəngə büründü və sonra tamamən çəkilib getdi.

Aramızdakı məsafənin uzaq olmasına baxmayaraq sifətini aydınca gördüm. O mənim gizlində saxladığım bir para hissləri vurub üzə çıxartmışdı. Aramsız olaraq necə nəfəs ala bildiyim özümə təəccüblü gəldi. Baxışlarımı onun pəncərəsindən ayırıb sol tərəfdəki reklam şitinə baxdım. Bayaq orda yeni nəsil avtomobil reklamı göz oxşayırdı. İndi isə onun şəkli vurulmuşdu- yox bu dəfə doğrudan-doğruya içimdəki bulanıq fikirlər yox olub getdi.Ürəyim artıq nələr olacağından agah idi. Dərindən nəfəs alıb bir siqaret yandırdım. Gözlərimə həkk olunmuş gülər üzü xəsarət almasın deyə kirpiklərimdə qalınlaşmış qara əl vurmaqdan qorxdum.Əlini çölə çıxardıb havada bir neçə hərf yazdı. Çox da uzaq olmayan keçmişə aid mənzərələr canlandı gözlərimdə. Mənim arzu və istəyimdən asılı olmayan bir şeylər baş verirdi. Yüngül külək başladı, uçurumun kənarındaymışam kimi ayağım yerdən üzüldü. Bütün bədənimlə yuxarıya doğru qalxdığımı hiss elədim.Başqa vaxt olsa bəlkə qorxardım, amma indi bu hiss tamamilə yox olmuşdu. İxtiyarında olduğum külək məni yavaş-yavaş pəncərəyə qaldırırdı.Get-gedə duyğularım cilalanır, düşdüyüm vəziyyətdən zövq almağa başlayırdım. Beləcə səmanın mavilikləninə qərq olmaq, qalaktikadakı bütün dalğalara qoşulmaq istəyirdim. Amma yox külək məni o qızın pəncərəsinə qaldırırdı. Bu təxminən yuxuda uçmaq kimi bir şey idi..Yuxudaydımmı?..Yəqin ki yox desəm inanmayacaqsınız.

Ancaq mənim sizi inandırmaq kimi bir öhdəliyim olmadığından çox rahatam.

Birdən-birə bir an içində qalxacağım yerə çox yavaş-yavaş çatırdım, onu da deyim ki, özümü ağır xəstəlikdən möcüzə nəticəsində qurtulmuş adam kimi hiss etməyə başlamışdım.Emosianal neyron sistemimdə mənə cənnət həzzi yaşadan hansısa dəyişikliklər baş verirdi.Bu uzun illər yuxusuzluqdan olmazın əziyyət çəkən bir adamın qəflətən şirin yuxuya getməsi kimi bir şey idi. İndi onun bərabərində idim,eləcə havada durmuşdum, həyatım üçün təhlükəli olacaq neçənci mərtəbədəsə.Bütün bunlar mənim üçün maraqlı deyildi və mən izaholunmaz bir xoşbəxtlik duyğuları içində idim. Qız daha çox gülümsəməyə başladı və bu mənə daha çox nəşə gətirdi.O mənimlə hansısa başqa dildə danışmağa başladı.Qulağıma bu qədər gözəl gələn sözləri sanki nə vaxtsa eşitmişdim, ona qulaq asa-asa mən də o dildə danışmağa başladım...

-Hər şey yuxu kimidir,-deyilmi?

Kəskin nüfuzedici baxışları ürəyimin dərinliklərinə işlədi. Alın damarlarım şişdi və gicgahlarımda qanın var-gücüylə vurduğunu hiss etdim.Təsirlənmişdim,hansısa bir enerjinin sehrindəydim.

Artıq Rəşidlə görüşüm unudulmuşdu.Qəribə idi bütün bu olanlara məntiqi dəlil tapıb, hansısa izaha nail olmaq üçün heç bir şey fikirləşmirdim.Bəlkə də sonralar bu işə saatlarca vaxt sərf etmək bəzi kitablar və nümunələr oxumaq olardı. Ancaq bunlar mənə lazım idimi...

İçimdəki xəfif ürpəriş gəridə qalmışdı.Bütün günümü bu qızla keçirmək istəyirdim.Məni bu şəkildə yuxarı qaldıran cazibənin bu qız olduğuna əmin idim, astaca soruşdum:

-Mənim buraya necə qalxdığımı söyləyə bilərsənmi?

O isə nəzərlərini üzümdən ayırmadan, telefonun zəng çalır dedi.

Ciblərimi eşələsəm də telefonumu tapmadım, evdə unutmuş olduğumu xəyal etdim..O isə özümü itirdiyimi görüb, pəncərəsinin altındakı ağaca işarə etdi-odur bax orda!

Aşağı baxanda telefonumu gördüm.Qarın üstünə düşmüşdü.Qəfildən zəngin səsini də eşitdim,bir az da diqqətlə baxıb zəng vuranın kimliyini ekrandan oxumaq istərkən telefon özözünə ağzı üstə çevrildi.

Qızın nəfəsini üzümdə hiss elədim,sanki içimdə nəsə qanadı. Qarğaların kinayəli və boğuq qəhqəhələri küçəni başına götürmüşdü.

# Hava şəraiti bu tarixdən dəyişəcək

**Azərbaycanda yanvarın 17-si gündüzdən 22-dək hava şəraitinin yenidən yağıntılı olacağı, bəzi ərazilərdə sulu qar, dağlıq və dağətəyi rayonlarda isə qar yağacağı gözlənilir.**



Adalet.az xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Gülnarə Abbasova bildirib.

Onun sözlərinə görə, yağıntıların ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimal olunur. Bəzi ərazilərdə şimal-qərb küləyinin güclənəcəyi proqnozlaşdırılır. Gülnarə Abbasova qeyd edib ki, bu müddət ərzində Bakıda və Abşeron yarımadasında da havanın yağıntılı olacağı və yağıntıların sulu qara keçəcəyi gözlənilir:

**"Havanın temperaturu ölkə ərazisində ötən günlərlə müqayisədə tədricən 5-8 dərəcə enərək, minimal temperatur Bakıda və Abşeron yarımadasında 0-2 dərəcə isti, dağətəyi rayonlarda 3 dərəcəyədək, dağlıq rayonlarda 5-10, yüksək dağlıq ərazilərdə isə 15-20 dərəcə şaxta olacaq. Dağlıq və dağətəyi rayonlarda bəzi yollar buz bağlayacaq".**

Həzi Həsənli,
şair-publisist



# Elin vəfa borcu

**Dünən eşitdim ki, kəndimizin daha bir dəyərli oğlu dünyasını dəyişib. Kəndimizdə kimliyindən asılı olmayaraq, adamların amansız və zamansız ölümlərinə təəssüflənirəm.**

**Onun böyük ürəyi vardı. Böyük ürəkli adamların yaşamaq eşqi də böyük olur. O, xaraktercə iradəli və diribaş adam idi. Qamsaxurdiya dövründə gürcü millətçilərinin tənəsi və təzyiqi ilə üzləşsə də, böyük inam, böyük əqidə və böyük iradə onu heç vaxt tərk etmədi.**

**Həmin dövrlərdə Borçalıda müxtəlif vəzifələrdə işləmiş imkan sahibləri kənddən çıxıb, Azərbaycana üz tutur və paytaxt Bakıda məskunlaşırdılar. O, el-obasının dar günündə kəndinin qədir-qiymətini daha yaxşı bilir və öz yerini doğma kəndində daha uzaqgörənliklə müəyyənləşdirir, öz məsuliyyətini dərindən dərk edirdi. Ona görə də dünyaya göz açdığı, qucağında böyüdüyü yurd-yuvadan, el-obadan - Faxralı kəndindən ömrünün sonunadək ayrılmadı.**

**... Mən onu uşaqlıq illərimdən tanıyırdım. Hələ orta məktəb şagirdi olduğum illərdə rayonda çıxan "Qələbə bayrağı" qəzetində gələcəyin jurnalisti kimi, məqalələrim dərc olunurdu. O zaman Bayram müəllim də rayonda məsul vəzifədə işləyirdi. Rayon mərkəzində təsadüfən onunla rastlaşanda qabağında dili topuq çalan uşaq kimi olurdum. Görüşüb salamlaşanda da həyacandan səsim titrəyirdi, nəfəsim təntiyirdi. Yaxşı ki, onun xoş təbəssümü və isti ürəklə hal- əhval tutması məni vəziyyətdən çıxardırdı. Mənə ürək-dirək verirdi.**



**Deyirdi ki, məqalələrini oxuyuram, yaxşı yazırsan. Belə də davam et, yaz. Sanki demək istəyirdi ki, yad millətin, yad adamların içində özünü adamsız hiss eləmə, yaz, yarat...**

**Böyük ürəkli insanlar böyüklə böyük, kiçiklə kiçik olduqları üçün uca məqama çatırlar. Ona görə də insanların yaddaşında yaşamaq haqqı qazanırlar. İllər ötdü. O, mənim yaddaşımda böyük ürəkli adam kimi qaldı.**

**Bayram Əliyev kəndimizin sayılıb seçilən, nüfuz sahibi olan oğullarından idi. O, çox xoşrəftarlı idi, hamıya hörmətlə, ləyaqətlə yanaşırdı. Bu da təsadüfi deyildi.**

**Bayram müəllim kəndimizdə yurd salan, çıraq yandıran, el dolandıran və uzun illər rayonun rəhbər işçilərindən, eyni zamanda ağsaqqallarından biri olmuş Əli Əliyevin ailəsində dünyaya göz açmışdı.**

**Atasının yolunu ləyaqətlə davam etdirən Bayram Əliyev yüksək təhsil almışdı. Bir neçə dil bilirdi. Dil içində dil, din içində din bəsləyib yaşadığımız Gürcüstanda Bayram Əliyev kimi elmli, savadlı, yüksək təhsilli kadrlara soydaşlarımızın böyük ehtiyacı vardı. Bayram müəllim harda, hansı vəzifədə işləyirdisə, soydaşlarımızın etimadını səylə, bacarıqla doğruldurdu.**

**Atasının vəfatından sonra Bayram müəllim də vəzifə pillələrində irəlilədi və Bolnisi Rayon Partiya Komitəsinin katibi kimi rəhbər vəzifəyə yüksəldi. Rayonda təhsil, səhiyyə və ideoloji iş sahəsində fəaliyyətini doğru-düzgün məcraya yönəltdi.**

**Millətinə, el- obasına mehri-məhəbbəti böyük idi. Onun xeyirxahlığı qonşu İmirhəsən kəndinin və doğma Faxralı kənd sovxozunun direktoru işlədiyi illərdə daha qabarıq görünürdü. Ana kəndi üçün gördüyü xeyirxah işlər zaman-zaman xatırlanır və xatırlanacaq.**

**Doğma elimiz öz oğlu ilə vidalaşdı. Bu kiçik yazım da elimiz üçün vəfa borcu, Bayram Əliyevin doğmaları üçün isə kiçik bir təsəllidir. Gözəl dağına söykənmiş Faxralı kəndini- öz elini canı qədər sevən bir gözəl insan bu gün elimizi cismən tərk etsə də, ruhən həmişə doğmaları ilə olacaqdır. Məkanı behiştlik, ruhu şad olsun.**

# "Müdrik kəlamlar"ın işığında

## Sabir Əzizoğluna dost təşəkkürü

**Sabir həkimi çoxdan tanıyıram. Bu tanışlığımın kökündə də onun sözə, mətbuata bağlılığı dayanır. İllər öncə bir qələm dostumun vasitəçiliyi ilə tanıdım Sabir həkimi. Yazılarını oxudum, hətta "Ədalət"in səhifələrində onun dəyərli yazılarına "yaşıl işıq" da yandırdıq. Amma üzbəüz görüşümüz bu illər ərzində bir neçə dəfə oldu. Sayca az olsa da bu görüşlərdə etdiyimiz söhbətlər, qarşılıqlı fikir mübadiləri bir daha mənim içimdə Azərbaycanın bir aydınının yerini müəyyənləşdirdi. Yaddaşıma, ruhuma bir ziyalının adı yazıldı. Maraqlı burasıdır ki, Sabir həkim mənə təbabətlə fəlsəfənin, ədəbiyyatın, hətta tarixin müəyyən paralellərini o qədər sadə və anlayışlı bir şəkildə izah etdi ki, mən onun dünyagörüşünün, zəkasının heyranı oldum**

Yaxın günlərin söhbətidir. Mobil telefonuma zəng gəldi, səs onun səsi idi. Dərhal tanıdım. Bildim ki, onu tanıdığımı hiss etdi. Amma hissində yanılmadığını təsdiqləmək üçün "salam"dan sonra "tanıdınmı" deyə soruşdu. Və cavabımı gözləmədən "Sabir həkimdir" əlavə etdi. Mən də geri qalmadım. Dərhal az qala birnəfəsə "Sabir həkimi - qardaşı tanımamaq olar"? - dedim. Burada bir haşiyəyə çıxım. Qardaş sözünü ona görə xüsusi vurğuladım ki, biz ilk tanışlığımızda həkimə xatırlatmışdım ki, mənim kiçik qardaşımın adı da Sabirdir. O da gülümsəyib, deməli, Sabir adında iki qardaşın var, demişdi...

Bəli, həkimlə Azərbaycan Nəşriyyatının foyesində qarşılaşdıq. Söhbətimiz yenə ötən günlərdə olduğu kimi özümüzdən başlayıb, bədii yaradıcılığa, mətbuata qədər uzandı. Bu söhbət əsnasında məlum oldu ki, Sabir həkimlə görüşmədiyimiz müddətdə maraqlı yaradıcılıq uğurları olub. İki kitabı işıq üzü görüb. Onlardan biri fəlsəfə ilə bağlıdır. İkincisi isə "Müdrik kəlamlar" adlanır. Doğrudur, bu gün özünü və sözünü müdrik hesab edənlər kifayət qədərdir. Amma söhbət mənim özümü necə qiymətləndirməyimdən, təqdim etməyimdən getmir. Axı son fikir oxucuya aiddir. O qoyur nöqtəni. Yeni yaradıcılığa dəyər verən, münasibət bildirən oxucudur. Bunu yaxşı bildiyimdən mən də həmişə oxumadığım bir şey haqqında öncədən heç nə deyə bilmirəm. Daha doğrusu, demirəm. Lakin Sabir həkimin qələminə bələd olduğumdan içimdə onun kəlamlarının müdrik olacağına şübhə yox idi. Kitabı oxuyanda da yanılmadığıma bir daha əmin oldum. Belə ki:

-Dərketmə ağılın qapısı, ağıl dərketmənin müəllimidir.

Yəqin ki, bu cümlənin neçə qatdan ibarət olduğunu tuta bildiniz. Və elə ağılla düşünəndə dərk etdiyimizin ağlın qapısından içəri keçdiyini anlayırıq. Və onda bir daha əmin oluruq ki, bizi dərk etməyə istiqamətləndirən, yönəldən ağıl imiş. Bax bu iki fikir özü-özlüyündə Sabir həkimin bizə söylədiyi kəlamın həm məntiqli, həm də müdrik olduğunu sübut edir. Yaxud da:

*Xəsislik, nadanlıq, bir də qısqanclıq*
*Sağalmaz yaradır, yolu qaranlıq.*

Bu iki misranın çözümünü etsək, ilk baxışdan qeyri-adi heç nə yoxdur. Adi sözlərdir. Cümlə bağlılığı ilə bir-birinin ardında düzülüb gəlib çatıb nöqtəyə, amma...

- Xəsisliyin yozumu? - Bu, hər kəsə bəlli.

- Nadanlığın fəsadları? -Bu, hər kəsə bəlli.




- Qısqanclığın faciəsi? - Bu da hər kəsə bəlli.

Sonda bu bəlli olanların zərbəsi insana dəyir, insanı yaralayır, insanı ağrıdır. Deməli, fikrin müdrikliyi də burada ortaya çıxır. Özümüz də bilmədən könüllü qoşuluruq Sabir həkimin fikrinə. Onunla razılaşırıq. Daxilən etiraf edirik ki, bəlli olan üç insan əxlaqına qüsur olan cəhətlər (xəsislik, nadanlıq, qısqanclıq - Ə.M.) həqiqətən ürək yaralayır.

Başqa bir kəlama üz tuturam. Sabir həkim yazır ki:

***Çox işlər görülür bir sağ ol üçün***
***Çox sağ ol yaşayır kiçik an üçün.***

Mən bu bəndi oxuyanda həqiqətən bir qədər tərəddüdlü an yaşadım. Elə həmin tərəddüdlü an da mənə həyatımın bir məqamını xatırlatdı. Haqsız basqı ilə üzləşdiyim bir yerdə gözləmədiyim, hətta ummadığım bir nəfər məni ağrıtmağa, sıxışdırmağa çalışan adama dedi ki, düz hərəkət etmirsən. Burda sən sağ ol deməlisən. Çünki edilən hərəkət sabah sənə təşəkkür gətirəcək. Sən sabahı görmürsən. bu günlə yaşayırsan. Bəli, xatırladığım məqam bu bənddə mənə bir çözüm köməkçisi oldu. Və çevrəmə baxdım. Anladım ki, kimsə hansısa bir işi təmənnalı, özü də insanlıq üçün uyğun sayılan hədləri keçməklə edirsə, onun qazandığı sağol əslində o işə görə deyil, o işi görənin yarınmağının, yaltaqlanmağının sağoludur. Hətta bu sağol üçün yarışanların da boy sırası məlumdur. Amma normal, adi bir Allah bəndəsi kimi, Xalq şairi Məmməd Arazın təbirincə desək, Vətənin daşı olmaq naminə görülən işə mükafat olan sağol isə halal haqqdır, halal dəyərdir. Zənnimcə, Sabir həkimin müdrik kəlamının bir yozumu da halal sağolun önə çıxmasıdır. Bütün hallarda çoxalan "sağollar" müəyyən mənada sabun köpüyünü də göz önünə gətirir. Çünki o, sadəcə nəyinsə xatirinə, nəyəsə görə-


Sabir Əzizoğlu Azərbaycan Respublikasının Cəlilabad şəhərində anadan olmuşdur. İlk təhsilini Cəlilabad şəhər 2 saylı orta məktəbində almış Azərbaycan dövlət tibb universitetini 1975-ci ildə bitirmişdir. 2011-2012-ci illərdə Moskva Dövlət energetik və tibbi biologiya institutunda hazırlıq tədrisini bitirmiş, sonra Multirezonans və biorezonans müalicəsi tətbiqinin nəzəri və kliniki aspektləri üzrə beynəlxalq konfransa üzv seçilmişdir. Sabir Əziz oğlu Əliyevin yazmış olduğu "Yaranışın elmi fəlsəfi və İlahi mahiyəti", "Fəlsəfənin fizialoji və İlahi mahiyəti" adlı kitabları cəmiyyətdə yeni elmi dünyagörüşün yaranmasında öz layiqli yerini almışdır. Müəllifin yeni yazmış olduğu "Müdrik kəlamlar" kitabı insanları dərin düşüncəyə sövq etdirməklə, cəmiyyətin inkişafı üçün elmi əxlaqi fikirləri ön plana çəkmişdir. Müdrik fikirlərin hər birində izaha ehtiyacı olan məna, dəyər vardır. Kitabda dünya-insan, insan-cəmiyyət bağlılığının məqsədi, yaranışın aqibəti kimi fəlsəfi fikirlər yer alır. Düşünülür ki, bir çox mürəkəb məsələlərə toxunan filosof dəyərli fikirləri ilə oxucuların marağına səbəb olmaqla, düşüncə tərzinin inkişafına töhvə verəcəkdir

dir. Bu yerdə özümün özümə sağol deməyim gəlmir.

Bax, fikrimin davamı olaraq mən sonuncunu, yəni halal sağolu götürərdim. Sizi deyə bilmərəm. Deməli, çoxluğun, kütləvi olması dəyərin də itməsidir. Ona görə də hər işi "sağ ol" üçün etməkdənsə, bütün "sağ ol"ları bir dəyərli işə yönəltmək daha dürüst seçim olar.

Sabir Əzizoğlunun "Müdrik kəlamlar"ı haqqında bu qısa qeydlərimi bilgisayara diqtə edəndə içimdən keçən bir fikri də açıqlamaq istədim. Belə ki, bu gün insanlığın eroziyası, sadə dildə desək, gödəniyyətin mədəniyyəti üstələdiyi bir vaxtda yaxşı sözə, yaxşı bir fikrə, müdrik kəlama yer qaldığı üçün sevinməyə, yaşamağa dəyər. Çünki bu məqam hər şeyin bitmədiyini göstərir. Və elə bu fikirlə də Sabir həkimin əl boyda, amma kifayət qədər sanballı kəlamlarının birini də diqqətinizə təqdim edirəm:

***Özgəsinə atılsa məkrli bir daş,***
***Ziyanın çəkəcək düşünməyən baş.***

Mən bu kəlamın yozumunu siz oxucuların ixtiyarına buraxıram.

**ƏBÜLFƏT MƏDƏTOĞLU**

# 2026-cı ilin ən güclü pasportları

**Dünyanın ən güclü pasaportuna sahib ölkələrin adları açıqlanıb.**

Adalet.az xəbər verir ki, bu barədə "Henley Passport Index" hesabat yayımlayıb.

Hesabata əsasən, Sinqapur pasaportu 195 ölkəyə vizasız giriş imkanı verərək birinci yerdə qərarlaşıb. Yaponiya və Cənubi Koreya isə 188 istiqamətə vizasız səyahət imkanı ilə ikinci pilləni bölüşüb.

Avropa ölkələri üst sıralarda qərarlaşıb:

- 3-cü sırada Danimarka, Lüksemburq, İspaniya, İsveç və İsveçrə yer alıb (186 istiqamət),

- 4-cü sırada Avstriya, Belçika, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, İrlandiya, İtaliya, Niderland və Norveç qərarlaşıb (185 istiqamət),

- 5-ci sırada isə Macarıstan, Portuqaliya, Slovakiya, Sloveniya və Birləşmiş Ərəb Əmirlikləri (BAƏ) 184 istiqamətə vizasız giriş imkanı ilə yer alıb.

- 6-cı sırada Xorvatiya, Çexiya, Estoniya, Malta, Yeni Zelandiya və Polşa,

- 7-ci sırada Avstraliya, Latviya, Lixtenşteyn və Böyük Britaniya yer alıb.

Hesabata görə, Böyük Britaniya son bir ildə ən böyük geriləməni yaşayan ölkə olub. Britaniya pasaportunun vizasız giriş imkanı olan ölkələrin sayı 182-yə düşüb və son 12 ayda 8 istiqamət itirilib.

- 8-ci sırada Kanada, İslandiya və Litva (181),

- 9-cu sırada Malayziya (180),

- 10-cu sırada isə ABŞ (179) qərarlaşıb.

Qeyd olunur ki, ABŞ 2025-ci ilin sonunda qısa müddətə ilk 10-luqdan çıxsa da, sonradan yenidən siyahıya daxil olub.

## *Uşağınız niyə sizə deyil, naməlum blogerlərə inanır?*




**"Yeniyetməlik dövrünün əsas cəhətlərindən biri də müstəqilliyə can atmalardır".**

Adalet.az xəbər verir ki, bunu "Sağlam radio"nun (93 FM) "Sağlam səhər" efirində klinik uşaq psixoloqu Elnarə Baxışlı deyib. Onun sözlərinə görə, bu müstəqillik anlayışı onlar üçün subyektivdir:

"Müstəqil olmaq valideynlərin nəzarət və qadağalarından azad olmaqdır, böyüklərin həyat tərzinə can atmaqdır: pul qazanmaq, istədiklərini ala bilmək, maşın sürmək, evə gec gəlmək və s. Məhrum olduğunu düşündüyü həyat tərzini yaşamaq istəyidir: içki içmək, siqaret çəkmək, dostları ilə bütün gecə şəhərdə gəzmək və s. Problemli ailələrdə müstəqilliyə can atmanın ən əsas səbəbləri pul qazanmaqla ailədən uzaqlaşa bilmək istəyidir. Həmçinin sevdiyi şəxslə sərbəst görüşmək istəyi ola bilər. Universitetə daxil olmaq həvəsi çox zaman bu istəklərin gizli forması olur".

Klinik uşaq psixoloqu qeyd edib ki, valideynlər bu yaş dövründə azadlığın bir məsuliyyət olduğunu təlqin etməlidirlər:

"Məsuliyyət, cavabdehlik, intizam uşaqlarda tədricən şəxsi nümunə əsasında və həyat təcrübəsi ilə formalaşmalıdır. Bunu ilk 8-9 yaşlarında özünəqulluq bacarıqları əsasında alışdırmaq lazımdır. Uşağın gücü yetdiyi kiçik, zamam alacaq ev işlərinə cəlb edilməsi vacibdir. Uşaq böyüdükcə bu zaman müddəti və işin gücü artırıla bilər. Həmçinin, özü ilə bağlı öhdəlikləri: çantasını toplamaq, ev tapşırıqlarını yerinə yetirmək, kiçik bacı qardaşına kömək etmək və s. Müstəqilliyin özü ilə bağlı qərarların verilməsi vacibdir: hansı ixtisası bəyənməlidir, geyim tərzini seçməlidir, otağının mebelin seçə bilməlidir. Dostların seçimində, səhv edən insanları tənqid edərkən, müəllimləri tərəfindən özü tənqid edilərkən azad və cəsarətli olmağa çalışan yeniyetmə çətinliklər yaşaya bilər".

E.Baxışlı bildirib ki, valideyn bilməlidir ki, səhv edən övladı acıq vermək, istehza etmək, əzmək və eqolarını üstələmək üçün vasitə deyil:

"Səhv edən övlad valideynin yeni və fərqli variantıdır. Onu qaldırmaq və ona dəstək olmaq lazımdır, ona həyatı tam öyrətmək mümkün deyil. Onu bütün həyat çətinliklərindən azad etmək də mümkün deyil. Amma uşağa hər yıxıldığında təkrar qalxa bilmək bacarığını öyrətmək olar. Səhvini qəbul etməyi, üzr istəməyi, gərəkirsə bağışlamağı öyrənməlidir. Öz nümunəniz ilə özəlliklə".

**Sübhan**

## *Azərbaycan 49 adda dini ədəbiyyatı qadağan etdi*

**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkə ərazisində istehsal olunan, eləcə də idxal və ixrac edilən dini təyinatlı ədəbiyyatın kağız və elektron daşıyıcılarında, audio və video materialların, dini məzmunlu mal və məmulatların, habelə bu istiqamətdə olan digər məlumat materiallarının dinşünaslıq ekspertizasını həyata keçirir. Aparılan dinşünaslıq ekspertizasının nəticələrinə görə 3549 adda dini ədəbiyyatın idxalına və nəşrinə müvafiq razılıq verilib, 49 adda dini ədəbiyyatın idxal və nəşri isə məqsədəuyğun sayılmayıb.**

Adalet.az xəbər verir ki, bu barədə Komitədən məlumat verilib.

Bildirilib ki, bununla yanaşı, Komitə dini təyinatlı ədəbiyyatın və digər dini məzmunlu materialların qanunvericiliyin tələblərinə uyğun şəkildə nəzarət markası verilməsini təmin edir.

"Dövlət Komitəsinə ekspertizası keçirilən dini məzmunlu bütün materiallarla bağlı müraciətlər müxtəlif istiqamətlərdən daxil olur. Bunlar hüquqi və fiziki şəxslərin xaricdən şəxsi istifadə, satış və yayılması məqsədilə dini məzmunlu materialların idxalına müvafiq razılığı verilməsi ilə bağlı müraciətlər, ölkə nəşriyyat və mətbəələrinin sifariş əsasında nəşr etmək istədikləri dini ədəbiyyatlar, dini ədəbiyyatların ixracı ilə bağlı olan müraciətlərdir.

Qeyd edilib ki, Dövlət Komitəsində dinşünaslıq ekspertizasına təqdim edilmiş hər bir kitab barədə rəy hazırlanır. Rəy əsasən iki hissədən - tədqiqi hissə və nəticədən ibarət olur. Dini ədəbiyyatın çapı və ya idxalı məqsədəuyğun hesab edilmədiyi halda rəydə bunun səbəbi göstərilir.

"Azərbaycan Respublikasının Konstitusiyasının 48-ci maddəsi və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsində nəzərdə tutulmuş məhdudiyyətlər sırasında mənəviyyatın və başqalarının hüquqlarının qorunması müddəası yer almaqdadır. Dinşünaslıq ekspertizasının məqsədi məhz sağlam mənəvi mühitin və inancından asılı olmayaraq hər kəsin hüquqlarının qorunmasıdır. Qeyd edilən meyarlar əsasında 2025-ci ildə ölkəyə idxal edilməsi və ölkə daxilində nəşr olunması məqsədilə daxil olmuş müraciətlər əsasında ümumilikdə 3598 adda dini məzmunlu ədəbiyyata baxılıb. Həmin materiallardan 3385 adda ədəbiyyat idxal, 213 adda ədəbiyyat isə nəşr üçün təqdim edilib. Aparılan dinşünaslıq ekspertizasının nəticələrinə görə 3549 adda dini ədəbiyyatın idxalına və nəşrinə müvafiq razılıq verilib, 49 adda dini ədəbiyyatın idxal və nəşri isə məqsədəuyğun sayılmayıb", - qurumdan əlavə olunub.

# Azərbaycanı şöhrətləndirən alim

## (Professor Əli Əmiraslanovun anadan olmasının 125 illiyinə)

**Görkəmli geoloq, geologiya-minerologiya elmləri doktoru, professor, SSRİ Elmlər Akademiyasının ilk azərbaycanlı müxbir üzvü Əli Ağamalı oğlu Əmiraslanov 1900-cı il dekabrın 22-də Zəngəzur qəzasının (Qubadlı mahalının) Balahəsənli kəndində anadan olub, ilk təhsilini Zəngəzur qəzasının mərkəzi olan Gorusdakı rus-tatar məktəbində alıb, atası, anası yüzlərlə həmyerslisi kimi mənfur erməni terror dəstələrinin törətdiyi qırğınlarında qətlə yetirilib, nənəsinin himayəsində böyüyüb. XI qırmızı ordu hissələri Zəngəzurda bolşevik hakimiyyətini qurmaq, daşnakların bölgədəki hökmranlığına son qoymaq üçün gələndə valideynlərinin intiqamını almaq məqsədilə yaşını gizlədib onlara qoşulur, boy-buxunu, fərasəti, rus dilini əla bilməsi ona inam yaradır, həm cəsur bələdçi, həm də partizan, döyüşçü olur. Gənc yaşda Qubadlı Qəza İnqilab Komitəsində rəhbər işlərdə çalışır.**

Sonra Şamaxıda yaşamış, rus-yapon müharibəsinin iştirakçısı, Cümhuriyyət qurulana qədər Şamaxı şəhərinin idarəedicisi - "qlava"sı olmuş dayısı Yusif ağa Sultanovgilə köçüb əmisi oğlu - sonralar Azərbaycan SSR Nazirlər Soveti sədrinin I müavini, Mərkəzi Komitə bürosunun üzvü Mehbalı Əmiraslanovla birlikdə burada yaşayır və Şamaxı realnı məktəbində oxuyur. Kommunist Partiyası sıralarına daxil olur, Sovetlərin IX qurultayına Azərbaycandan nümayəndə heyəti tərkibində iştirak edir, 1925-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində təlimatçı, Respublika Xalq Təsərrüfatı Şurasında şöbə müdiri təyin olunur. İşləyə-işləyə Azərbaycan Politexnik İnstitutunda təhsil alır, köçürmə yolu ilə Moskva Dağ-Mədən Akademiyasının geoloji-kəşfiyyat fakültəsinə qəbul edilir. 1930-cu ildə ali təhsilini mühəndis-geoloq ixtisası üzrə bitirib Moskva Geoloji Kəşfiyyat İnstitutunun təşkilində böyük elmi işçi kimi fəal iştirak edir, Ümumittifaq Mineral Xammal Ehtiyatları İnstitutunda geoloji-kəşfiyyat dəstələrinin, ekspedisiyaların rəhbəri olaraq ömrünü SSRİ Əlvan Metallurgiya Sənayesi nazirinin müavini- SSRİ-nin Baş geoloqu olur. O, ömrünü mineral xammal bazasının kəşfi, tədqiqi, istismarına həsr edir-Ural, Zabaykalye, Orta Asiya, Şimali və Cənubi Qafqazla yanaşı, Gədəbəyin, Qərbi Azərbaycan torpaqları olan Qafan və Qacaranın mis yataqlarının öyrənilməsinə, istifadəsinə də xüsusi diqqət yetirir, bir müddət Cənubi Azərbaycanda geoloji axtarışlara rəhbərlik edir. Praktiki fəaliyyətləri ilə bərabər elmi tədqiqatlarını davam etdirir, universitetlərdə geologiyadan mühazirələr aparır, beynəlxalq geoloji konqreslərin nüfuzlu təşkilatçılarından biri olur. 38 yaşında Ümumittifaq Elmi-Tədqiqat Qızılın Geoloji Kəşfiyyatı İnstitutuna elmi işlər üzrə direktor müavini, 39 yaşında SSRİ Metallurgiya Komissarlığının Baş Geologiya İdarəsi rəisinin birinci müavini - baş mühəndisi təyin edilir, bu məsul vəzifələrdə çalışmaqla yanaşı İttifaq əhəmiyyətli yeddi əlvan metal yatağının kəşfi və istismarına da birbaşa rəhbərlik edir, geridə qalan sahələrin fəaliyyətində dönüş yaratmaq üçün vəzifəsi tez-tez dəyişdirilir, bir neçə vəzifəni eyni zamnda icra edir, davamlı olaraq sovet rəhbəri Stalinlə, hökumətin digər rəhbərləri ilə görüşür, rəsmi toplantılarda çıxış edir, həm də rəsmən Stalinin geologiya məsələləri üzrə müşaviri olur.



Əli Əmiraslanovun yorulmaz enerjisi, yüksək intellekti, natiqliyi, elmlə praktikanı yanaşı aparmaq qabiliyyəti sovet rəhbərliyində daim yüksək dəyərləndirilir, iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeninə və digər yüksək dövlət mükafatlarına layiq görülür.

Ə.Əmiraslanovun geoloq kimi zəngin bilik və təcrübəsi SSRİ-dən kənarda da yüksək dəyərləndirilir, Çin, Polşa, Macarıstan, İsveç, İran, Ruminiya və digər ölkələrdə geoloji axtarış işlərinə dəvət edilir, həmin dövlətlərdə metallurgiya sənayesinin inkişafına mühüm töhfələr verir, xüsusən gənc kadrların yetişməsinə səy göstərir, xüsusi əhəmiyyət verir. Ə.Əmiraslanov ömrü boyu daim yüksək vəzifələrdə çalışmaqla bərabər elmi-tədqiqat işləri aparır, şoxlu kəşflər edir, sovet geologiya elmində yeni təzə cığırlar açır, zəngin nəzəri biliyi, praktik təcrübəsi ilə SSRİ-də bu sahə üzrə öndə gedən alimlərdən sayılır. Uralda mis-kolçedan yataqlarının, Qazaxıstanın və Orta Asiyada qurğuşun-sink yataqlarının mineraloji xarakteristikasının tədqiqinə həsr olunmuş elmi əsərlərinə görə ona geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi verilir. Ə.Əmiraslanovun SSRİ ərazisində qalay-sink, mis yataqlarının geologiyası və mineralogiyasına, mis filizinin genetik tiplərinə və perspektivin dəyərləndirilməsinə, yataqlarının geologiyası mövzusunda irimiqyaslı tədqiqatların aparıldığı, SSRİ-nin ayrı-ayrı filiz yataqları haqqında monoqrafik materialların həsr etdiyi monoqrafiyaları alimə bütün sosialist ölkələrində böyük nüfuz qazandırır, öyrənilir, onun yanında elmi məsələlər üzrə məsləhətləşmələr keçirilir. Mis filizi yataqlarının axtarışı və kəşfiyyatı, geoloji-iqtisadi təsnifatına həsr etdiyi monoqrafiyası əsasında doktorluq dissertasiyası müdafiə edərək geologiya-mineralogiya elmləri doktoru alimlik dərəcəsi, professor elmi adı alır, "Sovet geologiyası" jurnalının baş redaktor müavini vəzifəsində çalışır.



Geologiya-mineralogiya elminin inkişafında, eləcə də gənc geoloqlar nəslinin yetişməsində xüsusi xidmətləri nəzərə alınaraq, 1953-cü ildə professor Ə.Əmiraslanov SSRİ Elmlər Akademiyasına müxbir üzvü seçilir. O, SSRİ EA-ya müxbir üzv seçilmiş ilk azərbaycanlı olur. Azərbaycan SSR rəhbərinin Ə.Əmiraslanovu Nazirlər Sovetinin sədri, ya da Elmlər Akademiyası prezidenti vəzifələrinə gətirmək barədə təkidli dəvətlərinə, səylərinə baxmayaraq, rəsmi Moskva onun Azərbaycana gəlişinə imkan vermir, heç özü də razı olmur, düşünürdü ki, hamının ona doğma qardaş bildiyi əmioğlusu Mehbalı Əmiraslanov (tanınmış jurnalist Nəsir İmanquliyevin bacanağı - H.N) o zaman Nazirlər Sovetinin sədrinin birinci müavini, MK-nın tikinti işləri üzrə katibi, büro üzvü idi, ona görə bir ailənin iki üzvünün yüksək vəzifədə çalışması düzgün deyil. Xatırladaq ki, Azərbaycanda yeni şəhərlərin qurulmasında, sənaye müəssisələrinin inşasında böyük xidmətləri olmuş Mehbalı Əmiraslanov Mircəfər Bağırovun Bakıdakı məhkəməsində məşhur çıxışı ilə də yadda qalıb; o yeganə şahid idi ki, M.Bağırovun respublika üçün gördüyü mühüm əhəmiyyətli işlərdən danışaraq özü də aralarında olmaqla, MK büro üzvlərinin də törədilən cinayətlər üçün məsuliyyət daşıdığını, cəsarət, kommunist prinsipiallığı göstərməediyini SSRİ Baş prokuroru Rudenkonun, məhkəmə heyətinin üzünə demişdi.

Sovet geologiya elmində yeni mərhələ açmış, yüzdən çox monoqrafiya və məqalənin müəllifi olan dünya şöhrətli alim, görkəmli elm və sənaye təşkilatçısının Moskvada nəşr olunmuş "Qurğuşun və sink yataqlarının əsas tipləri (Axtarış, kəşfiyyat və qiymətləndirmə metodları)" (1957), "Avstriyanın qurğuşun-sink yataqları (Geoloji seciyyə və yerləşmə qanunauyğunluqları)" (1960), "Faydalı qazıntıların axtarışının mütərəqqi metodları" (1961) monoqrafiyalarından SSRİ-in bütün respublikalarında dərslik, ilk zəngin elmi-praktiki vəsait, mənbə kimi öyrənilir, bu gün də həmin elmi əsərlər öz əhəmiyyətini saxlamaqda davam edir.

Ancaq onun öz işinə vurğunluğundan yaranan gərgin çalışmaları, tez-tez uzaq səfərlərə getməsi bu böyük alimin səhhətində ciddi problemlər yaradır, hətta, Kreml həkimlərinin də çağırışlarına müsbət cavab verməyərək istirahətə, müalicəyə vaxt, imkan ayırmır, nəticədə bütün ruhu ilə işinə bağlı Əli Əmiraslanov ömrünün 62-ci ilində dünyasını dəyişir.

Alimin qızı, tanınmış yazıçı-publisist Elvira Araslının atasının ömür yolundan bəhs edən, 2013-sü ildə "Nurlan" nəşriyyatında işıq üzü görən "İnsan və onun dövrü" (Atam haqqında xatirələr)" kitabında və "Kremlin müşaviri" sənədli filmində, mərhum kürəkəni, 50 ilədək SSRİ, RSFSR və Azərbaycanın ərəb ölkələrində səfiri olmuş tanınmış diplomat, professor Elman Həmid oğlu Araslının haqqında yazdığı xatirələrdə alimin ömür yolu və geniş elmi fəaliyyəti, təşkilatçılıq fəaliyyəti, zəngin mənəvi dünyası, doğma Vətəni Azərbaycana məhəbbəti konkret fakt və detallarla əksini tapmışdır. Onun Moskvada öz həmvətənlərinə həmişə arxa durması, ömrünün çox hissəsini Vətəndən uzaqlarda yaşasa da, Azərbaycanı heç zaman unutmadığı, qəlbinin daim doğulduğu, erməni terror dəstələrinin silahlı hücumları ilə qanlı qırğınların meydanına çevrilmiş Qubadlı, Zəngəzur torpağı ilə bir döyündüyünü əks etdirən xatirələr çox təsirlidir.

Hazırda Almaniyada yaşayan Elvira Araslının zəngin elmi-tarixi faktlarla dolu xatirələr kitabı bu sətirlərlə bitir: "Əminəm ki, gün gələcək atamın bütün ömrü boyu xiffətini çəkdiyi, əcdadlarımızın uyuduğu torpaqlar qəsbkarlardan təmizlənəcək, qızları, nəvələri, nəticələri o doğma Qubadlı torpağına gedə biləcəklər. Ata, sən də, sənin doğma Vətənin də hər zaman qəlbimizdəsən".

**İnanırıq ki, SSRİ Elmlər Akademiyasına müxbir üzvü seçilmiş ilk azərbaycanlı alim, professor Əli Əmiraslanovun artıq 28 il davam edən əsirlikdən qurtulan, hazırda böyük quruculuq məkanına, tikinti meydanına çevrilən Qubadlıda xatirəsi də əbədiləşəcək, yubiley tədbirləri keçiriləcəkdir.**

**Hacı NƏRİMANOĞLU,**
**"Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri,**
**tarix üzrə fəlsəfə doktoru**

# Qarabağda tikinti layihələrində artıq xərclər ixtisar edilib

**Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti üzrə aparılmış uyğunluq auditi nəticəsində aşkarlanmış maliyyə və idarəetmə nöqsanları tam aradan qaldırılıb.**

Bu barədə Adalet.az Hesablama Palatasının hesabatına istiadən xəbər verir.

Audit yoxlaması 2024-cü ilin yekunlarını əhatə edib.

Audit zamanı dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi üçün ayrılmış vəsaitdən büdcə ilinin sonuna qalıqda qalmış 627 min 58,6 manatın 2024-cü il üzrə bağlanılmış müqavilələrin şərtlərinə uyğun olaraq faktiki ayrılmış vəsaitdən azaldıldığı müəyyən edilib. Eyni zamanda, dövlət vəsaitindən qənaətlə istifadənin təmin edilməsi, layihə, smeta və müqavilə sənədlərində işlərin adlandırılmasında fərqli yanaşmanın aradan qaldırılması və gələcəkdə əlavə xərclərin qarşısının alınması məqsədilə Zəngilan şəhərində yaşayış məhəlləsinin tikintisi layihəsi üzrə 12 yaşayış evi üçün 104 min 608 manat məbləğində qənaət müqavilə dəyərindən çıxarılıb. Bununla bağlı layihə-smeta sənədləri yenidən ekspertizadan keçirilib.



Həmin obyekt üzrə smeta sənədlərinə və müqaviləyə iş həcmlərindən artıq və təkrar daxil edilmiş xərclər, eləcə də eyni işlərin fərqli qiymətlərlə göstərilməsi nəticəsində 146 min 942,8 manat məbləğində artırılmış müqavilə dəyəri də azaldılaraq yenidən ekspertizaya təqdim olunub. Audit zamanı Cəbrayıl rayonunun Horovlu kəndində qeyri-yaşayış obyektlərinin, eləcə də 2, 3, 4 və 5 otaqlı fərdi yaşayış evlərinin tikintisi üzrə layihədə nəzərdə tutulandan artıq həcmlərin daxil edilməsi aşkar edilib. Nəticədə 996 min 46,5 manat məbləğində vəsaitin müqavilə dəyərindən azaldılması təmin olunub.

Əməyin ödənişi sahəsində isə Zəngilan rayonunun Ağalı kəndində çalışan işçilərə işğaldan azad edilmiş ərazilərdə işləyən mütəxəssislər üçün nəzərdə tutulan əlavələrin düzgün tətbiq edilməməsi nəticəsində 137 min 258,7 manat məbləğində artıq ödəniş müəyyən edilib və həmin vəsait müvafiq qaydada bərpa edilib. Bununla yanaşı, Xidmətin balansında olan nəqliyyat vasitələri üzrə aparılmış yoxlamalar zamanı 1 min 907,2 manat məbləğində artıq silinmiş yanacaq xərci aşkar edilib və bu məbləğ də geri qaytarılıb.

Audit çərçivəsində, həmçinin 3 müvəqqəti yaşayış şəhərciyinin tikintisi və quraşdırılması ilə bağlı satınalma prosesində qanunvericiliyin tələblərinə əməl olunmadığı, eyni avadanlığın dəyərinin iki lot üzrə təkrar daxil edildiyi və nəticədə müqavilə dəyərinin 522 min 270,36 manat artırıldığı müəyyən edilib. Görülmüş tədbirlər nəticəsində qeyd olunan məbləğ müqavilə dəyərindən çıxarılıb.

Qeyd edək ki, audit nəticəsində aşkar edilmiş bütün nöqsanlar üzrə tədbirlər tam icra olunub.

# Məmməd Arazın Xatirə Gecəsindən qeydlər

**Bu yazı bir tədbirin rəsmi xronikası deyil. Burada yazılanlar Məmməd Arazın xatirə gecəsində eşitdiklərimdən, hiss etdiklərimdən və o axşam yaddaşımda qalan səssiz anlardan ibarətdir. Ola bilsin, hər şey tam deyil, amma hər şey səmimidir.**

Təxminən bir aydan artıqdır planlaşdırdığımız gecə nəhayət ki, 10 yanvar 2026-cı ildə baş tutdu. Bakının qış havası gələnlərin ovqatını bir qədər ağırlaşdırsa da, Hollywood Sarayına daxil olan hər kəsin üzündə bir rahatlıq, bir məmnunluq hissi sezilirdi. Hollivud Sarayının Monro Zalının istiliyi, bir tərəfdə oxucusunu gözləyən kitabların təqdimatı qonaqlarda xüsusi bir sevinc yaratmışdı.



Tədbirin əvvəlində şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi. Ardınca isə fəxr və qürur hissi ilə - kimimiz səsli, kimimiz içdən oxumaqla Dövlət Himni səsləndi.

Gecənin başlanğıcında Məmməd Arazın öz səsində səslənən "Məni qoymayın təklənəm" şeiri zalda xüsusi bir ovqat yaratdı. Şairin səsi illəri aşaraq bu gecənin ruhuna çevrildi, tədbirin bütün gedişinə mənəvi istiqamət verdi.

Gecənin formatı ənənəvi tədbirlərdən fərqlənirdi. Çay süfrəsi arxasında, müxtəlif təamlar ətrafında keçən vaxt poeziyanın yaratdığı poetik aləmlə qovuşur, sözlə gündəlik həyat arasında isti və səmimi bir körpü qurulurdu.

İlk çıxışlar gecənin intellektual çərçivəsini müəyyənləşdirdi. **Akademik Nizami Cəfərov**un səlis və nüfuzlu çıxışı Məmməd Araz yaradıcılığına elmi və estetik baxışın əsas istiqamətlərini açdı, şairin poetik nəfəsini və ədəbi mövqeyini dərinliklə təqdim etdi. Ardınca **Əməkdar incəsənət xadimi Nazim Kazımov**un söz və musiqinin vəhdəti barədə fikirləri bu elmi xətti tamamladı. Bu mərhələdə tamaşaçı artıq şairin sözünü həm elmi düşüncə, həm də estetik duyum müstəvisində dərk edirdi.

Bu dəfə tədbir rəsmi və bədii hissə kimi sərt bölgüyə ayrılmadı. Gecə tədricən bədii ovqata keçid etməyə başladı. **II Televiziya Muğam müsabiqəsinin qalibi Güllü Muradova**nın ifasında səslənən muğam Məmməd Araz sözünün ruhunu sanki canlı nəfəs kimi zalda dolaşdırdı. Muğamın hər notunda şairin dərdi, sevgisi və milli duyğuları duyulurdu.

Növbələşən çıxışlar **tədqiqatçı-alim, şair Qardaşxan Əzizxanlı** ilə davam etdi. O, Məmməd Araz yaradıcılığını bütöv bir poetik sistem, zamanla və tarixlə dialoqda olan düşüncə dünyası kimi təqdim etdi. Bu təqdimatda aydın hiss olunurdu ki, bu poeziya təkcə oxunmur - araşdırılır, mənalandırılır və insanın vicdan yaddaşına yazılır.

**Ədəbiyyatşünas-tənqidçi Əsəd Cahangir**in analitik yanaşması isə şairin sözünə başqa bir dərinlik qatdı. Onun çıxışında Məmməd Araz poeziyası tənqidi baxışın prizmasından keçərək həm ictimai, həm də fəlsəfi məna qatları ilə açılırdı. Bu baxış şairin sözünün zamanla necə böyüdüyünü, necə məsuliyyət daşıdığını bir daha göstərdi.



Gecənin musiqi hissəsi tamaşaçını ayrı bir aləmə apardı. **Niyaməddin Musayev**in ifasında səslənən "Dünya sənin, dünya mənim, dünya heç kimin" mahnısı söz və musiqinin nadir vəhdətini nümayiş etdirdi. Bəstəkarın öz ifasında səslənən bu mahnı Məmməd Araz dünyasını tamaşaçıya daha da yaxınlaşdırdı.



**Aktyor-qiraətçi Kamran Yunis**in ifası şairin sözünü birbaşa insanın vicdanına ünvanladı. **Həlimət Sultan**ın özünəməxsus qiraətində səslənən "Məndən ötdü" şeiri isə zalda sakit, lakin dərin bir təsir yaratdı - nəsillərin bir-birinə ötürdüyü ağrı, ötüb keçdiyini sandığımız zərbələrin əslində Vətənə dəydiyi həqiqəti hər kəsin qəlbində oyatdı.

Rəsmi çıxışlar sırasında **şair Sabir Rüstəmxanlı**nın sözləri poeziyada ruhdaşlığın və eyni dərdin eyni dildən necə danışa bildiyini göstərdi. Onun çıxışı Məmməd Araz poeziyasının vətəndaşlıq mövqeyini, milli ağrını və mənəvi məsuliyyəti bir daha ön plana çıxardı.

Gecənin elmi-fəlsəfi xətti **akademik Muxtar İmanov**un çıxışı ilə daha da dərinləşdi. O, Məmməd Araz sözünün folklor yaddaşı ilə bağlarını, şairin poeziyasında xalq düşüncəsinin, mifoloji və milli arxetiplərin izlərini ön plana çəkdi.

**Respublikanın Əməkdar artisti Nuriyyə Hüseynovanın, bəstəkar-müğənni Çilənay Hüseynovanın, Mehranə Vəliqızının, Aşıq Ramin Qarayevin və Sərxan Bünyadzadənin ifaları gecəyə ritm, axıcılıq və emosional zənginlik gətirdi. Hər ifa Məmməd Araz sözünün başqa bir qatını açırdı.**

**Şirzad Pirallahı**nın ifası gecənin ən coşqulu anlarından biri oldu. Onun haqq səsi ilə səsləndirdiyi "Qalx ayağa, Azərbaycan" misrası bütün salonu ayağa qaldırdı. Şirzad bəy səhnədə diz çökərək qoynunda saxladığı Azərbaycan bayrağını başı üzərində dalğalandırdı. Bu an zal bütövlükdə ayaqda alqışladı - bu artıq kollektiv bir hissin ifadəsi idi.

**Qiraətçilər Müşfiqə Baləddinqızı, Ülviyyə Niyazqızı, İbrahim Əhmədov və Hədəf Liseyinin şagirdləri** şairin sevgi, xatirə və insan taleyi ilə bağlı misralarını müxtəlif ovqatlarda - bəzən ümidlə, bəzən nisgillə, bəzən də Vətən və insanlıq dərdi ilə dolu şəkildə təqdim etdilər.

Gecədə mən də şairin yaradıcılığı haqqında qısa fikirlərimi bölüşdüm, ustada həsr etdiyim şeiri oxudum. Dinləyicilərin reaksiyasından hiss olunurdu ki, Məmməd Araz yaradıcılığı bu gün də çağdaş şairlərin və alimlərin düşüncə gündəmindədir və öz təsir gücünü qoruyur.




Tədbirin vizual tərəfi də xüsusi diqqət çəkirdi. **Məmməd Arazın ev-muzeyinin direktoru Əzizə Süleymanova**nın təqdim etdiyi Naxçıvandakı Ev Muzeyindən çəkilişlər şairin həyat və yaradıcılıq mühitini canlı şəkildə nümayiş etdirdi. Bu görüntülər tamaşaçıya şairi yalnız söz və səsdə deyil, onun yaşadığı məkanda da hiss etmək imkanı verdi.

**Ailə üzvləri adından yazıçı Aqil Abbas** çıxış edərək xatirə gecəsini təşkil edənlərə təşəkkürünü bildirdi və belə gecələrin xüsusilə 60-cı illər Azərbaycan ədəbiyyatının aparıcı simaları - Xəlil Rza, Tofiq Bayram, Əli Kərim və başqaları üçün də keçirilməsinin vacibliyini vurğuladı. Aqil müəllimin çıxışının sonunda səhnənin bir tərəfində kitablar və gül dəstələri ilə birgə yerləşdirdiyim masa üzərindəki rəsm əsərini götürüb səhnədən enməsi zalda xoş bir gülüş yaratdı. Bu, tədbirin sonunda Məmməd Arazın Ev Muzeyinə hədiyyə etməyi planlaşdırdığım, 25-30 il əvvəl çəkilmiş, müəllifinin adını xatırlamadığım bir rəssamın əl işi idi. Əlbəttə ki, sonda Aqil müəllimi razı salıb əsəri aid olduğu ünvana çatdırdım.

Tədbir zamanı yaranan bəzi texniki çətinliklər məni istər-istəməz həyəcanlandırmış, içimdə müəyyən bir gərginlik yaratmışdı. Amma gecənin sonuna doğru bu hisslər çəkildi, söz və ovqat yenidən öz yerini tapdı. Mən də nəhayət bir stəkan çay içmək fürsəti tapdım və beləcə tədbirin sonuna gəldik.

Gecə Məmməd Arazın öz səsində səslənən "Salamat qal, salamat" şeiri ilə yekunlaşdı. Bu səs gecənin üzərinə çəkilən həm vida, həm də əbədilik duyğusu oldu. Ümumilikdə, bu xatirə gecəsi Məmməd Araz sözünün musiqi, qiraət və canlı ifa vasitəsilə çay süfrəsi ətrafında daha fərqli, daha səmimi bir mühitdə yaşadığını bir daha sübut etdi. Hər çıxış, hər ifa onun poetik dünyasının ayrı-ayrı qatlarını açdı, tamaşaçıya təkcə söz yox, həm də hiss və ruh ötürdü.

**Bu Gecənin təşkilinə mən, hörmətli Ələddin Məmmədli, Adilə Məmmədli, İslam Bağırov, Qardaşxan Əzizxanlı və b. bir aydan artıq hazırlaşmışdıq - və əminliklə deyə bilərəm ki, əməyimiz öz bəhrəsini verdi. Bütün gərginliklərə, xırda texniki çətinliklərə baxmayaraq, söz öz yerini tapdı, ümumi ovqat dağılmadı. Məmməd Arazın adı bir daha sübut etdi ki, o, təkcə xatirələrdə yox, elə bu günün özündə, sözündə yaşayır.**

**Adilə Nəzər**
**Filoloq-alim, şair,**
**tədbirin ssenari müəllifi**

# "Dilimiz - kimliyimiz" mövzusunda ədəbi-ictimai müşavirə keçirilib

**Yanvarın 12-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Azərbaycan dilinin qorunması və inkişafına həsr olunmuş "Dilimiz - kimliyimiz" mövzusunda ədəbi-ictimai müşavirə keçirilib.**

Adalet.az xəbər verir ki, tədbir Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin Azərbaycan dilinin saflığının qorunması ilə bağlı fikir və düşüncələrindən çıxış edərək keçirilib.

Müşavirəni giriş sözü ilə Azərbaycan Yazıçılar Birliyinin katibi, Əməkdar incəsənət xadimi Elçin Hüseynbəyli açıb. O, Azərbaycan dilinin qorunması və saflığı ilə bağlı ölkə Prezidentinin çıxışlarını xatırladaraq, bu mövzunun bu gün həm elmi, həm də ictimai müstəvidə xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Elçin Hüseynbəyli qeyd edib ki, XIX əsrin sonlarından etibarən Azərbaycan türk dili Qafqazda aparıcı ünsiyyət və mədəniyyət dili olub, sonrakı dövrlərdə müəyyən tarixi-siyasi səbəblərdən sıxışdırılıb. Lakin Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan yenidən regionda söz sahibi olan dövlətə çevrilib və bu proses Azərbaycan dilinin nüfuzunun artmasına da güclü təkan verib. O, inamla bildirib ki, yaxın gələcəkdə Azərbaycan dili regionun aparıcı dillərindən biri kimi mövqeyini daha da möhkəmləndirəcək.

Daha sonra söz qonaqlara verilib, çıxışlarda dövlət dil siyasəti, ədəbi dil normaları, terminoloji təhlükəsizlik, elmi və bədii mühitdə dil mədəniyyətinin qorunması məsələləri geniş müzakirə olunub.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Birliyin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev, AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, akademik Rafael Hüseynov, akademik Nizami Cəfərov, ədəbiyyatşünas alim, professor, millət vəkili Elnarə Akimova, Xalq yazıçısı Elmira Axundova, Milli Kitabxananın direktoru Kərim Tahirli, millət vəkili Jalə Əliyeva, ictimai-siyasi xadimi Həsən Həsənov, professor Vaqif Sultanlı, professor Vaqif Yusifli, azərbaycanlı dövlət xadimi, yazıçı, jurnalist Aqil Abbas, akademik Muxtar İmanov, akademik Teymur Kərimli, akademik, Xalq yazıçısı Kamal Abdulla, yazıçı, millət vəkili Səyyad Aran, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli, professor Telman Vəlixanlı, Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr üzrə katibi, şair və tərcüməçi Səlim Babullaoğlu, Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin rəhbəri Əsəd Cahangir çıxış ediblər.

Tədbirin sonunda Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar çıxış edərək dilin milli varlığın əsas dayağı olduğunu vurğulayıb, Azərbaycan dilinin qorunmasının yalnız dilçilərin deyil, bütövlükdə cəmiyyətin borcu olduğunu qeyd edib.

**Müşavirə elmi-ədəbi müzakirələr və aktual təkliflərlə yadda qalıb.**

## *Azərbaycan və Özbəkistan rəssamlarının birgə iştirakı ilə beynəlxalq onlayn sərgi həyata keçirilib*

**Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi, Azərbaycan Rəssamlar İttifaqı və Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin birgə əməkdaşlığı çərçivəsində "İpək yolu üstündə dostluq" adlı beynəlxalq onlayn sərgi həyata keçirilib.**

Layihə Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinə həsr olunub.

Sərgidə Azərbaycan və Özbəkistanı təmsil edən ümumilikdə 18 peşəkar rəssamın müxtəlif yaradıcılıq üslublarını və estetik baxışlarını bir araya gətirən əsərləri nümayiş olunub.




Rəsmlər Böyük İpək yolunun formalaşdırdığı ortaq sivilizasiya mühitini, bu konsteksdə Azərbaycan və özbək xalqlarının müştərək tarixi yaddaşını, mədəni-mənəvi irsini müasir bədii təfəkkür prizmasından əks etdirir.

Onlayn sərgi çərçivəsində layihənin ideya və bədii məzmununu tamamlayan kataloq təqdim olunub.

Kataloq Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, Mədəniyyət komitəsinin sədr müavini, Özbəkistanın mədəniyyət elçisi Günay Əfəndiyevanın ön sözü ilə açılır. Qeyd olunur ki, Azərbaycan-Özbəkistan rəssamlarının "İpək yolu üstündə dostluq" adlı birgə sərgisi iki qardaş ölkənin, qardaş xalqın mədəni birliyinin növbəti gözəl nümunələrindəndir. Deputat iki ölkənin sənətkarlarının eyni mədəni platformada bir araya gətirilməsinin, mədəni-humanitar əməkdaşlığın gücləndirilməsinin önəminə diqqət çəkib.

O, bu təşəbbüsü Azərbaycan Respublikası ilə Özbəkistan Respublikasının diplomatik münasibətlərin qurulmasının 30 illiyinə töhfə kimi qiymətləndirərək, vurğulayıb: "Layihə iki ölkənin müştərək tarixi dəyərlər və bu gün ortaq siyasi iradə üzərində yüksələn çoxşaxəli tərəfdaşlıq ruhunu sənətin universal dili ilə bir daha əks etdirir. Çox şadam ki, xalqlarımız arasında həyatın müxtəlif sahələri ilə yanaşı, təsviri sənət müstəvisində də yaradıcı dialoq uğurla inkişaf etdirilir.

Layihədə əməyi keçən bütün təşkilatçılara və iştirak edən istedadlı rəssamlarımıza təşəkkürümü bildirir, sərginin yaradıcı heyətinə ilham və qarşılıqlı əməkdaşlığın davamlı olmasını arzulayıram. Azərbaycan-Özbəkistan qardaşlığının sənətdə təcəssümü ortaq mədəni irsimizi bir daha canlandırsın!"

Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Baxrom Aşrafxanov giriş sözündə layihəni iki qardaş xalq arasında dərin tarixi, mədəni və mənəvi əlaqələrin parlaq rəmzi kimi qiymətləndirir:

"İncəsənət universal bir dil kimi Böyük İpək yolu boyunca əsrlər boyu formalaşmış dəyərlərin, ənənələrin və dünyagörüşünün ümumiliyini aydın şəkildə əks etdirir. Bu onlayn sərginin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, o, Özbəkistan Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr olunub. Bu illər ərzində ölkələrimiz qarşılıqlı hörmətə, etimada və dəstəyə əsaslanan möhkəm strateji tərəfdaşlıq münasibətləri formalaşdırıblar.

Bu əhəmiyyətli mədəni layihənin təşkilinə bilavasitə dəstək göstərdiyinə görə Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyinə səmimi təşəkkürümü bildirirəm. Əminəm ki, bu sərgi Özbəkistan ilə Azərbaycan arasında dostluğun möhkəmlənməsinə və humanitar əməkdaşlığın inkişafına növbəti töhfə olacaqdır".

Layihənin Azərbaycan üzrə kuratoru Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva, Özbəkistan üzrə kuratoru - Özbəkistan Rəssamlarının Yaradıcı Birliyinin üzvü Xurşed Xalilovdur.

Onlayn sərginin kataloqunun tərtibatçısı Naxçıvan MR Rəssamlar Birliyinin fotoqraf-dizayneri Araz Xudiyevdir.

**Qeyd edək ki, "İpək yolu üstündə dostluq" layihəsi uzunmüddətli mədəni təşəbbüs kimi planlaşdırılıb və təqdim olunan sərgi bu layihənin ilk hissəsini təşkil edir.**

**VAQİF YUSİFLİ**
**Filologiya elmləri doktoru**



# BU, ƏLİ NƏCƏFXANLIDIR...

**Əli Nəcəfxanlı müstəqillik dövrünün şairidir. Bir jurnalist kimi tanınsa da, əsasən ikimininci illərdə özünü bir şair kimi də təsdiq etmişdir. Əgər onun bu illərdə yaradıcılığını izləsək, müxtəlif mövzularda yazdığı şeirləri ilə qarşılaşarıq, lakin ilk sırada Vətənin taleyi, Qarabağ müharibəsi ilə bağlı şeirlər yer tutur.**

***Şuşanı görmədim gözümdolusu***
***Kİrsin hirsi tutdu, zar-zar ağladı.***
***Gördü topxanaya toplar atılır,***
***Hönkürə-hönkürə Qarqar ağladı.***

***Şuşanı görmədim gözümdolumu,***
***Gileyə dağların maralı gəldi.***
***Mənə yaylıq verin, başıma örtüm,***
***Natəvan Bakıya yaralı gəldi.***

Bu elə bir dövr idi ki, şeirimizdə hüzn, kədər, Qarabağsızlıq motivləri əks olunurdu. Amma Əli Nəcəfxanlı bu mövzuda olan şeirlərində bədii təsvir vasitələrinə üz tutur, fikrini obrazlı şəkildə ifadə etməyə çalışırdı.

***Son dəfə göyləri gözüünə çəkdi,***
***Qocanız, qarınız, körpəniz belə.***
***Bir dağ da ucaldı Dağüstü bağda-***
***Bu imiş dağ üstə dağ qoymaq belə.***

***Torpağa can deyib son nəfəsdə də,***
***Əyilib öpdünüz torpağı, qardaş***
***Babəkin qolları yaşıl ağacdır,***
***Siz onunin qırmızı yarpağı, qardaş...***

Bu misralar Əli Nəcəfxanlının "Şəhidlər" şeirindəndir. Şəhidlər mövzusunda yüzlərlə şeirlər yazılıb. Amma onların əksər qismi poetiklikdən məhrumdur, çünki ürək ağrısını, şəhidlərə böyük ehtiramı poeziyanın ağrıına çevirən şeirlərin sayı o qəədər də çox deyil. Əli Nəcəfxanlının "Şuşanı görmədim gözümdolusu", "Laçınsız", "Qaçqın" "Laçın dəhlizində kababxanalar" şeirləri bu baxımdan insan ağrısını poeziyanın ağrısına çevirən nümunələrdir.

Əli Nəcəxanlı sonrakı şeir kitablarında da Vətən mövzusuna müraciət edir, yenə də eyni həyəcanla, bəzən kədərlə, bəzən qürur hissilə onu düşündürən hadisələrə, ürəyinə təsir edən acılıqlara biganə qalmır. Vətənə məhəbbətini belə bildirir:

***Çox da sənə sevdiyimi söylərəm,***
***Əməlimdə görməyincə inanma!***
***Tərifini ha qaldırım göylərə***
***Yolunda can verməyincə inanma!***

Vətəni mədh edən şeirlərində də şablondan qaçır, obrazlılığa meyl edir. "Vətən dağları" şeirində olduğu kimi:

***Hər qaya oyuğu- qala mazğalı,***
***Yoxuş nəfəs kəsir, eniş-qəzalı.***
***Güllərin şehliyə dəstəmaz alıb***
***Namaza dayanıb Vətən dağları.***

***Burda arzularım haraya düşüb,***
***Meylim ocaq günə, pir aya düşüb.***
***Sərhədlər çay kimi araya düşüb***
***O yanı-bu yanı Vətən dağları!***

Vaxtilə, sovet dönəmində dərddən, ağrıdan yazan şairlər tənqid olunurdu, onları bədbinliyə qapılmaqda, işıqlı cəmiyyətdə "işıqsız" yaşamaqda suçlayırdılar. Unudulurdu ki, əsrlərdən bəri ədəbiyyatın ən əsas problemlərindən biri AĞRI olub. Təbii ki, burada patoloji ağrı nəzərdə tutulmur. Ədəbiyyat insan qəlbinin ən intim həyəcanlarından tutmuş ən həzin ağrılara qədər böyük bir yol keçib. Amma hər ağrılı əsər ədəbi yaddaşın əbədi yaddaşına çevrilə bilməz, çünki dərdin özünə sadəcə dərd kimi b axanda, onu patoloji ağrı kimi təsvir edəndə dərdiin poeziyası yaranmır. Əli Nəcəfxanlının elə şeirləri var ki, orada məhz dərddən danışanda bu dərdin öz obrazını da görürük. Məsələn, ata mtkisinə həsr etdiyi şeiri götürək: "Axşamdan axşama görərdim onu, Atam evimizin ay işığıydı" Baxın, bunu ancaq şair deyə bilər. Onun "Yaşadım"şeirində bir ömrün yaşantıları belə ifadə edilir: "Ömür qəlyan, can-tənbəki, Çəkdikcə eşdim, yaşadım".

Əli Nəcəfxanlının şeirlərində iki cəhəti xüsusi qeyd etmək olar. Birincisi: onun şeirlərində lirik "mən"in düşüncələri bir ömrün-bir taleyin keçdiyi yolu gözlərimiz qarşısında canlandırır. Amma necə canlandırır? Oxucu bu fərdi,



subyektiv düşüncələrdə yalnız bir insanın deyil, özünün də "mən"ini hiss edirsə, o şeirin ona aid olduğunu da düşünür. Hər bir insanın həyatında "ömrün payız prospekti" başlanır, bu "prosrektdə:

***gəzdim addım-addım,***
***baxdım maddım-maddım***
***yola, dalana, tinə.***
***Xəzəlləri döşək-döşək ağaclar,***
***Çılpaqlaşan***
***qəşəng-qəşəng ağaclar***
***yaxşı çəlik çıxar budaqlarından.***
***Payız prospekti-***
***saralmış foto.***

İnsan öz ömrünün yarı yaşına çatır. Lakin bu yaşa qədər nələr etdiyini, hansı uğurlar qazandığını deyil, eləmədiklərini və bundan sonra nə edəcəyini düşünür. Deyək ki, bu düşüncə çoxlarını narahat edir.

***Məni bağışlayın, ay anam-atam,***
***Nəyim çatmasa da, bəhanəm çatar.***
***Dedim siz çatandan o yana çatam,***
***Çatıram ömrümün yarı yaşına.***

***Gecikdim, hardasa mən səhv eylədim,***
***Tələsdim, yolları kəsə eylədim.***
***Bəlkə innən belə nəsə eylədim,***
***Çatıram ömrümün yarı yaşına.***

Ümumiyyətlə, Əli Nəcəfxanlının şeirlərində etiraf xətti, bir insanın keçdiyi ömür yoluna nəzər salıb nəyisə xatırlaması, bu xatırlamalarda peşmançılığını yada salması, əzab çəkməsi və s. hisslər diqqətdən yayınmır.

İkinci cəhət: Xalq şairi Sabir Rüstəmxanlı yazır: **"Şeirin nə qədər ilahi bir təsvir vasitəsi olduğunu yaxşı bilirik. Şair şeir yazarkən öz ruhunu, canını əridib sözə verir, bəzən hisslər, duyğular adamın nəfəsini kəsir və bu nəfəs çox vaxt sonuncu nöqtə qoyulandan sonra da açılmır. Şeiri bilən, sözün ağırlığından xəbərdar olan şairin nəfəsi sözə nəfəs verə biləndə açılır. Məncə, Əli Nəcəfxanlı dərindən nəfəs almağa çətinlik çəkməyən şairlərdəndir".**

Burada nəfəs" sözü dahi Füzulinin "Ver sözə ehya ki.." kəlamıyla səsləşir. Şair üçün bu "nəfəs" bədii təsvir vasitələri ilə dilin ifadə imkanlarını ortaya çıxarmaqdır.Şair Əşrəf Veselli də bu haqda yazır: **"Əli Nəcəfxanlının şeirləri öz poetikliyi ilə, dilinin sadəliyi və rəvanlığı ilə başqalarından seçilir. Əlinin yazılarında şeir üçün seçilən obyektin poetik detallarla və yüksək bədiiliklə ifadəsi bizi sevindirir"**

Əli Nəcəfxanlının sözlə lövhələr yaratmaq istəyi təşbih və metaforalarla reallaşır.

***Gecə bir zənci qızdı,***
***Ulduzlar- göz yaşları.***
***Ay- göz yaşı içində,***
***Bir ilahi təbəssüm.***
***Göylər-kömürlə çəkilmiş***
***Ağ işıqlı bir rəsm.***

"Lövhə" adlı bu şeirdə dörd təşbih işlənib..Sadəcə bir lövhədir və deyək ki, şair burada gecəyə, ulduzlara, göylərə sanki bir rəssam gözüylə baxmağa cəhd edir. Başqa bir "Lövhə" şeirində isə o, metaforalarla "rəsm" çəkir.

***Sərin əllərini uzatdı yağış,***
***Bürkünün ömrünü qısaltdı yağış.***
***Günəşin telini islatdı yağış,***
***Şəfəqlər asıldı göyqurşağından***

Əli Nəcəfxanlının təğiətlə bağlı digər şeirlərindən də söz aça bilərik, məsələn, onun "Su" şeiri sırf suya həsr olunan nadir şeirlərdən biridir: "Çəmənlərdə şehə dönən, Qayaları deşən də su! Dağ başında dönər qara, Sırğa olar gülşəndə su. Səhralarda ilğım olar, Bu crlvəli, rəxşəndə su". Əli Nəcəfxanlının insan ömrü ilə təbiət arasındakı oxşar halların olduğunu bir neçə şeirində izləyə bilirik. "Payız" və "Bu payız" şeirlərində əsas təsvir obyekti heç də payız fəslinin məxsusi cizgilərini əks etdirmək deyil. Adını çəkdiyimiz həmin şeirlərində Əli Nəcəfxanlı payızdan yox, payzlaşmış insandan söz açır.

***Qarışdı ömrümün üzü-astarı,***
***Mənə olacaqlar əyan olmadı.***
***Görmədim döşünə döyən dostları,***
***Cücəni bu payız sayan olmadı***
***Bu payız özünə oxşamadı heç.***

***Nə qapım açıldı, nə qaşqabağım,***
***Ovcum-göz yaşımın qəm piyaləsi.***
***Bu payızsonrası, bu qışqabağı***
***Məni yerə vurdu həsrət şəoəsi***
***Bu payız özünə oxşamadı heç...***

Əli Nəcəfxanlının sevgi şeirləri haqqında: təbii, yaşanılan, içində yalanı olmayan bir neçə şeirinin adını çəkə bilərik: Əli Kərimi "Qayıt"şeirindən təsirlənərək yazdığı şeir, "Ayrılıqlara" "İlk sevgi", "Həsrət nəğməsi"..Onun "Küçənizdə" şeirini misal gətirməklə sözümüzü bitirək:

***Dünyanı başıma dar eyləmişəm***
***Səni görmək üçün dar küçənrzdə.***
***Şəhər sahibinin yoxdu xəbəri,***
***Gəzərgi bir heykəl var küçənizdə..***

***Küçəniz gözümdə bircə küçədi,***
***Ocaqça küçədi, pircə küçədi.***
***Vecinə gəlməzmi halım necədi?-***
***Üzə çıx, ruhumu sar küçənizdə.***

***Eviniz yeddinci qatında göyün,***
***Pənbə buludlardan gəlinlik geyin.***
***Bir az mən boylanım, bir az sən əyil,***
***Dərdi ürəyimdən dər küçənizdə.***



# BAYAT



№ 68 (928)



İLQAR TÜRKOĞLU

# Bölmədim a dostlar, hecaya "dost"u, Dost kimi durmuşam sözümün üstə!

## QOCALIRIQ

Dağların zirvəsi çəndə itibdi,
Yolumu gözləmə sən, "Kəkil" yeri.
Daha pasportumda limit bitibdi,
Üzə gülümsəyir son şəkil yeri.

Nə vaxtdı yazıram dostlara bir-bir,
Ötürüb günləri ayı gözləyə.
Yadıma salıram "tost"ları bir-bir,
Baharı gözləyə, yayı gözləyə

Seyrəlib nə vaxtdı, şənlik bölgəsi,
Azalıb səs-küyü, qulağı "deşmir".
Çəkilib söyüdün "saqqal" kölgəsi,
Manqalın tüstüsü "bığ"ını eşmir.

Gözə dəymir daha "köhnə" cavanlar,
Başımı aldadıb bağa göndərə.
O meyvəsi ötən, gülü solanlar-
Yoxdu atam-anam, yığa göndərə.

Uşaqlıq illəri, köhnə yellənçək
Bir qoca çinardan asılıb gedər.
Dərdini özünlə, kefi elnən çək,
Bir qapının zəngi basılıb gedər

Daha qoşa düşmür, zərimdən keçib,
Kimsə noğul dolu xurcunu istər.
Bir can paydı, "allah-kərim"dən keçib,
Əzrayıl gələndə "borc"unu istər.

Dağların zirvəsi çəndə itibdi,
Yolumu gözləmə sən, "Kəkil" yeri.
Daha pasportumda limit bitibdi,
Üzə gülümsəyir son şəkil yeri.

## GÖZÜMÜN ÜSTƏ

Yaxşının yolunda daş dayanmasın,
Qurunun oduna yaş da yanmasın.
Nəyimə gərəkdi, qaş dayanmasın,
Dostları qoymuşam gözümün üstə!

Tən olsun cavana-qocaya dostu,
Tanrı qaldırıbdı ucaya dostu,
Bölmədim a dostlar, hecaya "dost"u,
Dost kimi durmuşam sözümün üstə!

Haqqın işığına çəni qatmayın,
"Vergülü qatmayın, "və"ni qatmayın.
Heç vaxt əyri işə məni qatmayın,
Hazıram ölməyə "düz"ümün üstə!

Əzəldən könlümün gözləri toxdu,
Quruca daxmamın əyarı çoxdu.
Görsəniz yalandı, heç biri yoxdu,
Söyləyin günahı üzümün üstə!

Seçib zərrə-zərrə Yaradan, belə,
Ağı ağdan belə, qaradan belə.
Damcı da, su keçməz aradan, belə
Bir Ocaq yandırın közümün üstə!

Yaxşının yolunda daş dayanmasın,
Qurunun oduna yaş da yanmasın,
Nəyimə gərəkdi, qaş dayanmasın,
Dostları qoymuşam gözümün üstə!

## BU DA BİR GECƏ...

Bu gecə də başım çəndə-dumanda,
Kara gəlmir qədəhlərə süzülən.
Nə zamandı xəyalları gümanda
Bir sona var ümidləri üzülən...

Bir qədəhlə bəlkə kefim açıla,
Burax getsin, deyirsən at arağı.
Ay insafsız, gəl məni az acıla,
Üzə gülür süzəndə tut arağı.

Mən hələ də meyxanələr xəstəsi,
İstəyirsən qara bağla, bük ağa.
Ovutmayır "buz oda" nın bəstəsi,
Bu şərqidə tək özüməm-tək ağa.

Durultmayır bir şüşə də kefimi,
Siqarlarım bu gecənin ağ şamı.
Qarson dostum "yuyub-sərir" "şef"ini,
Müğənni qız yola verir axşamı.

Səbirsizəm bu axşam da zənginə,
Bilirsən ki, götürmürəm minnəti.
Vurulmuşam bu gecənin cənginə,
İstəmirəm, "huri-mələk" cənnəti.

Bir röyadır rəqqasənin gözündə
Tüstülərdə alov saçan hər gecə.
Süzüldükcə, qədəhlərin üzündə
Bədirlənir Ayla təzə-tər gecə...

Saqi gedib... xeyli keçib aradan,
Dəyişmirəm bu gecə də qaydanı.
Seçmək olmur burda ağı qaradan,
Daraldıqca sərxoşların meydanı.

Keçib daha, öyrəşmisən səfimə,
Aradabir sayaq olur tostlarım.
Nə vaxtdı ki, durulmayan kefimə
Nə yaxşı ki, dayaq olur dostlarım.

## HEYDƏRBABAYA MƏKTUB

Heydərbaba, yollarına çən düşüb,
Bir ürəyim iki yerə tən düşüb,
Saçlarıma bir gecədə dən düşüb,
Qoy çalınsın vüsalımın nəğməsi,

Gözlə məni, gələsiyəm-gələsi.
Bu ayrılıq-iki əsrin yaşıdı,
O tay, bu tay bu ağrını daşıdı.
Nakam Araz gözlərimin yaşıdı,

Damcı-damcı əriyibdi giləsi,
Səni görsəm siləsiyəm-siləsi.
Heydərbaba, soylarını harayla,
Dədə Qorqud boylarını harayla,

Tonqal çatıb, toylarını harayla...
Qoy ucalsın Ocağının şöləsi,
Sevincimi böləsiyəm-böləsi.
Heydərbaba, gədiyində itən iz,

Xudafərin ürəyimdən ötən iz,
Nakam getdi Şəhriyarım vətənsiz...
Göz yaşıdı çiçəklərin jaləsi,
Axsa qanım, laləsiyəm-laləsi.

Heydərbaba, kədərinə qovuşdum,
Bir tarixin dərd-sərinə qovuşdum,
Arazboyu çox dərinə qovuşdum,
Öyünməsin, çox da, düşmən tələsi...
O tay, bu tay güləsiyəm-güləsi!

## ŞÜBHƏLƏRİ VARAQLA

Bu dərdə də bəlkə əlac tapılar,
Bu sevdanı biryolluq göm ürəkdə.
Açıq olsun təki sənə qapılar,
Hələ mənim ağrılarım gömrükdə.

Nə zamandı gülümsəmir heç üzün,
Kədərlənmə bu yanıqlı bəstəmə.
Gözlərində yuva qurub iç üzün,
Heç bilmədim nədən durdun qəsdimə.

Keçəmmirəm, aramızda saygı var,
Kefin mənsiz, halın mənsiz, necədi?
Bu həyatdı, hər addımda qayğı var,
Ömür tamam zülmət dolu gecədi

Sevən könlüm boyun əyməz hər dinə,
Bir yolum var, öz yolumdan azmıram.
Məlhəm olmur xatirələr dərdimə,
Hər dərdimi, hər ağrımı yazmıram.

O günlərin yarasını közləmə,
Ümidimi, gümanımı itirdim.
Bu sevgidə daha sınaq gözləmə,
İlk "dərs"imi bir sualda bitirdim.

Danışmadım bircə kərə hərcayı,
Ömür ötür qovğalarda, biləsən.
Yolun üstə sızqa axan bir çayı
Dəli keçir, düşünürsən hələ sən...

Elə bilmə küçənizdən keçirəm,
Yol gözləmə ta əzəlki maraqla.
Şərab süzür saqi yenə, içirəm,
Sən hələ də şübhələri varaqla.

Bu dərdə də bəlkə əlac tapılar,
Bu sevdanı biryolluq göm ürəkdə.
Açıq olsun, təki sənə qapılar,
Hələ mənim ağrılarım gömrükdə.

## BİR AZ DA QAR HAVASINA DARIXDIM

Ayrılıqdan saçlarıma düşüb dən,
Yuva saldı gözlərimdə duman-çən,
Unutmuşam uşaqlığı o gündən.
Sıxılıb həsrətdən, a kəndim, ürək,
Səninlə görüşə qayıdam gərək!

Bir bulaq həsrətdən dolubdu indi,
Qaraxal lalələr solubdu indi,
Söyüdlər saçını yolubdu indi,
Bir azca qayğılı, bir azca kövrək
Səninlə görüşə qayıdam gərək!

Əlimdə daşların xınası qalıb,
Gözümdə suların aynası qalıb,
Əlində yarımçıq hanası qalıb,
Yatmayıb bir ana gecə sübhədək...
Səninlə görüşə qayık!dam gərək!

Boşalıb el-oba, azalıb sayı,
Gözləyən qızların bir oğlan payı.
Ata ocağında bir övlad hayı,
Ana ürəyində min arzu-istək...
Səninlə görüşə qayıdam gərək!

***

Dadıma hər kim çatmır,
Huş gedib, dərkim çatmır.
Hamıya ərkim çatmır,
Hərdən üstələnirəm.

Ötürüb çaya qədər,
Gözlədim maya qədər.
Dözmürəm yaya qədər,
Qışda "istilənirəm".

Bilirəm, baha yanmır,
Çəkdiyim "aha" yanmır.
Siqarım daha yanmır,
Özüm "tüstülənirəm"

Ha deyin öz-özünə,
Aparmır yol düzünə.
Qoy çıxım göy üzünə,
Yerdə xəstələnirəm.

Dərdimi deyim kimə?!
Anlasın bircə himə.
Arada sarı simə
Keçib bəstələnirəm.

Topladım, çıxdım cəmi,
Uzaq getməz bu gəmi.
Özümə cəhənnəmi,
Seçib dəstələnirəm.

***

Qara ağa, ağ qaraya düşməsin,
Sığmaz könül, can saraya düşməsin.
Sözün yerə, iş araya düşməsin,
Utanmasın, qızarmasın üzdən üz.

Ömrü-günü verdim elə hey bada,
Dedim bəlkə acılarım mey dada.
Enib atdan bir gün qaldım piyada,
Baxıb gördüm çox da olub azdan az.

Gecə-gündüz eşqimizə həyandım,
İsinmədim ha alışdım, ha yandım.
Məcnun olub yollarında dayandım,
Çatammadım, calasam da izdən iz.
Heç bilmədim düzü nədi, tərsi nə,
Tər sinəyə qismət olmur tər sinə.*
Bəzəsən də astar üzü tərsinə,
Altda qalar, ha çəksən də üzdən üz.

Bəlkə başda, bəlkə sonda var adım,
Başa gəlmir hər istəyim-muradım.
Barışmağa hər fürsəti aradım,
İnsaf elə Türkoğlunu üzdən üz.

## ÇATMAZ

Sənə saxladığım sirdə gecikdim,
Gecikən talelər taxtına çatmaz.
Görüşə bilmədim, bir də gecikdim,
Vaxtın heç özü də vaxtına çatmaz.

Qaranquşlar yenə bəhsə-bəhsdədir,
"Xəbər mələkləri" səshə-səsdədir,
Ayının qisməti qatar üstədir,
Bu sevda yenə də baxtına çatmaz.

Bir də cəm olmağa təkimi çağır,
İstəsən loğmanı, həkimi çağır.
Yenə yorulanda bir gəmi çağır,
Qağayı ümidlər "yaxta"na çatmaz.




# İnsan hüquqları amili əsas məqsədimizdir...

**Hər kəsin doğulduğu andan toxunulmaz, ayrılmaz hüquqları, azadlıqları vardır. Bu hüquq və azadlıqlar şəxsin cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini və vəzifələrini əhatə edir. İnsanların doğulduğu andan toxunulmaz, ayrılmaz hüquqları və azadlıqları yaranır. Bu hüquqlar dövlət və insan haqları ilə bağlı qəbul edilmiş qanunlarla müdafiə olunur. İnsan haqları demək olar ki, dünyanın bütün ölkələrində və beynəlxalq institutlar tərəfindən müdafiə edilir.**

Beynəlxalq aləmdə insan haqları Birləşmiş Millətlər Təşkilatının deklarasiyası ilə qanuniləşdirilmişdir. Hər bir insan onun mənsub olduğu irqdən, cinsiyyətdən, dildən, dindən, siyasi və başqa hallardan asılı olmayaraq təmin olunmuş insan haqlarına və azad olmaq hüquqlarına malikdir. Demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan və hüquqi dövlət üuruculuğu yolunda inamla irəliləyən Azərbaycan Respublikasında insanlarının layiqli həyat şəraitinin, rifah səviyyəsinin, cəmiyyətdə özlərini təsdiqetmə imkanlarının artırılması üçün ciddi səylər göstərilir. 1998-ci ildə Ümummilli Liderimiz Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının tərəqqisini məhz ”insan meyarı”nın inkişaf etdirilməsində görərək, insan hüquqlarının müdafiəsi sahəsində ilk fundamental sənədi - Milli Dövlət Proqramını təsdiq etmişdir.

Ötən illər ərzində ölkəmizdə demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına, insan hüquq və azadlıqlaının səmərəli müdafiəsinə yönəlmiş tədbirlər nəticəsində bir çox nailiyyətlər əldə edulmişdir. Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etmişdir. 1995-ci ilin 12 noyabr tarixində, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilmiş ilk milli Konstitusiyamızın uçdə iki hissəsinin məhz insan haqlarının və azadlıqlarının təmin edilməsinə həsr edilməsi dövlətin ali məqsədi olduğunun bariz nümunəsidir.



Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq cəmiyyətin tamhüquqlu və beynəlxalq hüququn müstəqil subyekti kimi özünü təsdiq edib. 1998-ci ildə Ümummilli Liderimiz Heydər Əliyevin sərəncamı ilə 18 iyun insan hüquqları günü kimi təsis edilib. Ulu Öndər hakimiyyətə qayıdışından sonra vətəndaş hüquq və azadlıqlarlnın yüksək səviyyədə qorunmasını özünün başlıca fəaliyyət prinsiplərindən biri elan etmiş, məqsədlərinin genişləndirməsi üçün çoxsahəli islahatların həyata keçirilməsini daim diqqətdə saxlamışdır. Ölkəmizdə həyata keçirilən hüquqi mərhələlərdən ən mühümmü insan azadlıqlarının müdafiəsinin müdafiə mexanizmı olan Ombudsman təsisatının yaradılması olub. Ombudsman təsisatının yaradılması hüquqi dövlət quruculuğu istiqamətində aparılan islahatların məntiqi davamı idi. Azərbaycan Respublikası insan hüquqları haqqında bütün beynəlxalq sazişlərə qoşulmuşdur. Normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi və s. insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi ölkəmizdə insan haqlarına verilən dəyərin əsas göstəricisidir. Azərbaycan Respublikası 2001-ci ildən ”İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulub. Ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması ilə bağlı apardığı ardıcıl işlər beynəlxalq təşkilatlar tətəfindən yüksək qiymətləndirilir. Respublikamız 300-dən çox beynəlxalq müqavilənin iştirakçısı və nüfuzlu təşkilatların üzvüdür. Bu sahədə insan hüquqlarının müdafiəsinin mexanizmləri ilə sıx əməkdaşlıq edir. İnsanların siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, onların hüquqi biliklərini, sosial-siyasi fəallığını gücləndirmək, tolerantlığı təşviq etmək, medianın rolu, vətəndaş təhsili, eləcə də din və milli dəyərlərin düzgün istifadə olunması ilə mümkündür. Ölkəmizdə cəmiyyətin demokratik və stabil inkişafı üçün bu istiqamətdə geniş tədbirlər görülür. Respublikamızda demokratik, müstəqil inkişaf edən, vətəndaş hüquqlarının və azadlıqlarının qorunması cəmiyyəti qurulub. Vətəndaşların ictimai faydalı fəaliyyətlərinin stimullaşdırılması və onların hüquqlarının, əmlaklarının qorunması qəbul edilmiş qanunvericiliklə təmin olunur. Respublikamızda vətəndaşların siyasi proseslərə cəlb olunmasında mətbuatın, informasiya vasitələrinin kifayət qədər rolu var. Vətəndaşlarımızın əksəriyyəti məhz kütləvi informasiya vasitələri vasitəsilə kifayət qədər məlumat alırlar. Sinasi savadlıq səviyyəsinin yüksəldilməsi də bu proseslərdə öz sözünü deyir. Azərbaycanda siyasi mədəniyyətin inkişafı proritet məsələlərdən sayılır.

Siyasi mədəniyyətin əsas amillərindən sayılan siyasi partiyalara, sosial qruplara, təsisatlara Azərbaycan Respublikasının qanunvericiliyinə uyğyn olaraq sərbəst səkildə fəaliyyət göstərmələri üçün geniş imkanlar yaradılıb, dövlət tərəfindən maliyyə dəstəyi göstərilir. Respublikamız müstəqillik qazandığı gündən insanların siyasi hüquqlarının qorunmasına xüsusi diqqət yetilir. Ümumxalq səsvermə yolu ilə qəbul edilmiş Konstitusiyamız, vətəndaşların dövlət idarəetməsində və ictimai həyatında seçilmək və seçmək hüquqları, azad söz, həmçinin dövlət orqanlarına müraciət hüquqlarını təmin edir. İnsanların hüquq və azadlığının qorunması sahəsində ümumxalq səsverməsi ilə qəbul olunmuş Konstitusiyamızdan sonra Azərbaycan Respublikasının Konstitutsiya Məhkəməsi mühüm yer tutur. Konstitutsiya Məhkəməsinin qərarları bütün hüquq subyektləri tərəfindən qeyri şərtsiz yerinə yetirilməlidir.

**Konstitutsiya Məhkəməsi Konstitusiyamıza zidd olan qeyri-qanuni hüquqi aktları ləğv edir. Ulu öndər Heydər Əliyevin ”Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” sonrakı illərdə möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən daha da uğurla davam etdirilir. Bütün qeyd olunanlarla yanaşı, insanların hüquq və azadlıqlarının təmin olunması üçün insan faktoru və siyasi proseslərin bütün iştirakçılarının cəmiyyətdə rolu vacib amillərdən biri sayılır.**

**Rüstəm HACIYEV**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Türkiyənin cənnəti sayılan tarixi Giresun

**Türkiyədə gəziləcək, görüləcək o qədər cənnət məkanlar varki, saymaqla, yazmaqla bitirmək mümkün deyil.**

Adalet.az xəbər verir ki, belə gözəl məkanlardan biri də turistlərin sevimli məkanına çevrilən Giresundur.

Dağların ətəyində düzülmüş yamyaşıl yaylaları, Qara dənizə baxan heyranedici qalaları, Aralıq dənizi və Egey dənizinə bənzəyən mavi bayraqlı çimərlikləri ilə Giresun ən çox sevilən məkanlardan biridir.Tirebolu, Bulancak, Keşap və Espiye kimi Qara dəniz sahili boyunca yerləşən turistik rayonları ilə hər il yüz minlərlə turistə ev sahibliyi edən Giresun, yaşıl və mavinin qovuşduğu mənzərəsi ilə hər mövsüm xoş səyahət təklif edir.

Giresun qalası, Tirebolu qalası, Andoz qalası və Eynəsil qalası kimi yüz illər boyu toxunulmaz qalan nəhəng qalaların şəhəridir Giresun  Gözəl təbiəti ilə dünyaya meydan oxuyan Giresunda  o qədər gəziləcək yerlər varki, bunu bir yazıya sığışdırmaq, oxucularımıza təqdim etmək mümkünsüzdür.

Giresun Türkiyənin şimal-şərqində Qara dəniz bölgəsində, Trabzon şəhərindən təxminən 175 km qərbdə bir şəhərdir. Giresun vilayətinin və Giresun rayonunun mərkəzidir. Əhalisi rəsmi statistikaya görə 147,682 nəfərdir. Tarixi olduqca zəngin olan bu şəhəri formalaşması isə 4000 ili ötür.



Giresun şəhərinin əsas gəliri isə turizm və fındıqdır. Giresunun embleminde altı element var: dağ, dəniz, qala, gilas, fındıq və balıq. Dünyanın dörd bir yanına fındıq yüklü gəmilər buradan yola çıxır. Çünki dünyada fındıq istehsalının 73 faizini verən Türkiyənin əsas fındıqçılıq mərkəzi Giresundur. Bu torpaqda gilas da çox yetişdiyindən Giresun öz adını yabanı gilas sortu olan "kiraz" sözündən alıb. Türklər deyirlər ki, gilas bütün dünyaya buradan yayılıb.

Şəhərin nə zaman salınması tarixçilər arasında fikir ayrılığı yaradır. Bəzi tarixçilər bu qədim şəhərin eradan 2000 il əvvəl inşa edildiyini qeyd edir. Yunan müstəmləkəçiliyindən əvvəl bölgədə Qara dənizin yerli tayfalarının olduğu məlumdur və Het mənbələrində çətənə becərən "Kaşka" adlı döyüşçü xalqın adı çəkilir. Eramızdan əvvəl VII əsrdə Kolxida ölkəsində Miletli kolonistlər tərəfindən əsası qoyulmuş şəhər mərkəzinin ətrafında Kolx (Tzan/Laz) xalqına məxsus kəndlər var idi. Eramızdan əvvəl VI əsrdə Fars İmperatorluğu tərəfindən zəbt edilən bölgə Makedoniyalı İskəndərin Fars İmperiyasını darmadağın etməsindən sonra azad edilib. Daha sonra Pontus Krallığı tərəfindən ilhaq edilən bölgə, digər Şərqi Qara dəniz şəhərləri kimi Zela döyüşündən sonra Roma İmperatorluğu tərəfindən işğal edilmiş və 1300 il davam edəcək bir Romanlaşma prosesinə girmişdir.

Köhnə adı yunanca olan şəhərin adı: "Kerasounta", "Pharnacia", "Choerades", sonralar Roma və Bizans hakimiyyəti altında "Kerasous" və ya "Cerasus" olaraq dəyişdirildi. Kerasus yunanca "buynuz" deməkdir və yarımadanı təsvir etmək üçün istifadə edilmişdir."Ounta" şəkilçisi ilə Kerasousa çevrilən şəhərin adı daha sonra "Kerasunt" kimi tələffüz edilmişdir. Pontus dövlətinin süqutundan və Roma hakimiyyətinin başlanmasından sonra Giresun bölgəsinin yerli tayfaları tez bir zamanda assimilyasiyaya uğrayaraq tarix səhnəsindən itiblər. Lakin Roma və Bizans mənbələrində bölgə əhalisi Can (Tzan) adlandırılmağa davam etmişdir. Roma dövründə Giresun Qara dənizin çox əhəmiyyətli bir şəhəri idi. Bu dövrdə şəhər o qədər inkişaf etdi ki, öz adına pul zərb etmək səlahiyyətinə sahib oldu.

Giresun 1397-ci ildə türkmən bəyləri Əmiroğlu Süleyman bəy və Pir Kadem Çakır bəy tərəfindən fəth edilmiş və o vaxtdan bəri işğal edilməmişdir. Sonrakı illərdə Osmanlının 1461-ci ildə Trabzon imperiyasını fəthi ilə Giresun da Osmanlı İmperatorluğunun hakimiyyəti altına keçdi. 1500-cü illərin siyahıyaalma kitablarında Giresun və ətrafı (Koyulhisar/Büyükliman/Vakfıkebir) Vilayəti Çepni olaraq ortaya çıxdı və xüsusi bir idarə tərəfindən idarə edildi. Beyliklər dövründən (1461) sonra Osmanlı İmperatorluğunun Trabzon vilayətinə bağlı olan Giresun 1920-ci ildə Ordu, Tirebolu və Görele rayonları ilə birləşdirilərək Giresun Sancağı yaradılmışdır. 1923-cü ildə əyalətə çevrildi.

1923-cü ildəki mübadilə ilə xristian əhalisini itirən şəhərdə ticarət həyatı tamamilə müsəlman əhalinin əlinə keçdi. Bu dövrdə rayonun əsas iqtisadi fəaliyyəti olan fındıq istehsalının əkin sahələri artırılmışdır. 1926-cı ildə Giresun Ticarət Birjası və Kızılay Giresun şöbəsi açıldı, 26 iyul 1938-ci ildə Fındıq Kənd Təsərrüfatı Satış Kooperativləri Dərnəyi (Fiskobirlik), 1944-cü ildə Şebinkarahisar Dövlət Xəstəxanası, 1959-cu ildə Tirebolu Çay Fabriki quruldu. 1962 və 1970. Giresun Fındıq Emalı Müəssisələri və SEKA Aksu Kağız Zavodu, 1971-ci ildə Doğankent Su Elektrik Stansiyası, 1976-cı ildə Giresun Peşə Liseyi fəaliyyətə başladı. Giresun Universiteti 2006-cı ildə quruldu. Giresun Universiteti Tibb Fakültəsi 2007-ci ildə yaradılmışdır. 2007-ci ildə Aydınlar kəndi, 2008-ci ildə Küçükköy, Çaykara və Dəmirci kəndləri, 2013-cü ildə adı Cümhuriyyət Mahallesi olaraq dəyişdirilən Çalış kəndi Giresun Bələdiyyəsinə birləşdirilib.

Giresuna səfər etmək istəyənlər əsasən haranı gəzəcəklərini fikirləşirlər. Əslində bu turizm şəhərinə ilin istənilən zamanı səfər etmək mümkündür. Giresun həm yay, həm də qış turizmi üçün əlverişlidir. Hər il bu şəhərə yüzminlərlə turist gəlir. Oxucularımız üçün maraqlı olduğunu nəzərə alıb Giresunun ən gəzməli və görməli yerlərini təqdim edirik.

**1. Bulancak**

Qara dəniz sahilində, Giresundan cəmi 17 kilometr aralıda yerləşən Bulancak rayonu, çoxəsrlik tarixi binaları və dənizmavi sularının ləzzətini ala biləcəyiniz sahil xətti ilə günübirlik səyahətlər üçün ən ideal yerlər arasındadır. Bulancaq 50 min əhalisi olan möhtəşəm gözəlliyə malik birərazidir. Yamyaşıl təbii gözəllikləri və təmiz havası ilə diqqət çəkən Bulancak, bölgənin ən çox ziyarət edilən yaylalarından biri olan füsunkar Paşakonağı yaylası ilə xüsusilə yaz və yay aylarında yüzlərlə insanı özünə cəlb edir.

**2. Tirebolu**

Yaşılla mavinin qovuşduğu füsunkar gözəlliyi, sakit və dinc atmosferi ilə təkcə Giresunun deyil, Qara dəniz bölgəsinin də ən məşhur bayram cənnətlərindən birinə çevrilən Tirebolu cəmi 40 dəqiqəlik məsafədədir. Füsunkar Qara dəniz mənzərələri ilə birlikdə xoş bir günlük səyahət edə biləcəyiniz Tireboluda təmiz çimərlikləri ilə çox məşhur olan Tirebolu çimərliyində, Beygir Kumu çimərliyində və Uzunkum çimərliyində dənizin dadını çıxara, axşam gəzintilərinə çıxa bilərsiniz. Tirebolu sahilində qırmızı gün batımı mənzərələri ilə müşayiət olunur.

**3. Görele**

Giresunun Qara dəniz sahilində digər məşhur tətil cənnəti olan və Qara dənizin İncisi adlanan Görele şəhərdən təxminən 62 kilometr uzaqlıqdadır. İstənilən saatlarda mövcud olan mikroavtobuslarla rayona rahatlıqla çata və xoş səyahət edə bilərsiniz. Giresun limanından qalxan tur gəmiləri ilə sahilləri kəşf edə biləcəyiniz Görele, füsunkar təbiət möcüzələri ilə təbiət səyahətləri üçün ən əhəmiyyətli ünvanlardan biridir.

Qarla örtülmüş dağ mənzərələri arasında paraşütlə uça biləcəyiniz Dokuzgöz Milli Parkı və buludlarla əhatə olunmuş dağ yamacında uzanan məşhur Sis Dağ Yaylası kimi təbiətsevərlərin kəşf etməli olduğu bir çox gözəlliklərə ev sahibliyi edən Görele də ev sahibidir. Yaz aylarında mavi dənizin ləzzətini ala biləcəyiniz Deliklitaş çimərliyinə və Denizkızı çimərliyinə 2017-2018-ci ilin məşhur istirahət mərkəzlərindən biridir.

**4. Casus**

Giresundan cəmi 30 dəqiqəlik məsafədə yerləşən Espiyedə Qara dəniz sahili boyunca çimərlikdə və yüzlərlə illik tarixi binalar arasında unudulmaz bir günlük səyahət edə bilərsiniz. Mahalın girişində bölgəyə və dənizə baxan hündür təpənin üzərində ucalan Andoz qalasının divarlarından panoramik mənzərələri izləməyi tövsiyə etdiyimiz Espiyedə Kanun körpüsü, Kanun körpüsü kimi tarixi sərvətləri də görə bilərsiniz.

**5. Şebinkarahisar**

Giresunda kəşf edə biləcəyiniz başqa bir gözəl rayon Şebinkarahisardır. Dağ yamaclarında düzülmüş yaşıl yaylaları, toxunulmamış təbii gözəllikləri və tarixi binaları ilə həm təbiətsevərlərin, həm də tarix həvəskarlarının mütləq ziyarət etməli olduğu yerdir. Rayonda B.C. Roma dövründə 1-ci əsrdə tikilmiş və heyrətamiz mənzərəsi ilə Giresunun simvollarından birinə çevrilmiş Şebinkarahisar qalasını ziyarət etməkdən həzz ala bilərsiniz.

Mədəniyyət turları ilə tez-tez ziyarət edilən qayalara oyulmuş təsirli Məryəm Manastırı, 1874-cü ildə inşa edilən Licese Kilsəsi, erkən Osmanlı memarlıq xüsusiyyətlərini görə biləcəyiniz 12-ci əsrə aid Fahrettin Behramşah məscidi və Fatih məscidi. , 1473-cü ildə Otlukbeli döyüşündən sonra Fatih Sultan Mehmetin xatirəsinə inşa edilən Şebinkarahisarda yaxından görə biləcəyiniz tarixi xəzinələr arasındadır. Dikmetaş Göletinin təmiz havasında gəzə və balıq tuta biləcəyiniz Şebinkarahisarda Mustafa Kamal Atatürkün 1924-cü ildə səfəri zamanı qaldığı və sonradan muzeyə çevrildiyi Atatürk Evi və Muzeyini də ziyarət edə bilərsiniz.

**6. Giresun qalası**

O, şəhərin simvoluna çevrildi və e.ə. 2-ci əsrdə Pontus Yunan Dövlət Kralı I Farnekes tərəfindən inşa edildiyi düşünülən Giresun qalası möhtəşəm mənzərəsi ilə şəhəri ziyarət edərkən dərhal diqqətinizi çəkəcək tarixi bir xəzinədir. Şəhərə baxan bir nöqtədə vulkanik qaya kütləsi üzərində inşa edilən və təbii mühafizə zonası kimi qorunan Giresun qalası Qara dənizin panoramik mənzərələrini seyr edə biləcəyiniz divarları ilə yerli və xarici turistlərin ilk ziyarət etdiyi yerlər sırasındadır.

Uzun tarixi boyunca Romalılardan Osmanlılara qədər bir çox sivilizasiyanın istifadə etdiyi və ətrafında Osmanlı dövründən qalan məqbərələri görə biləcəyiniz qalanın daxili hissələrini gəzə bilərsiniz.

**Bir sözlə Giresun tarixin bütün gözəlliklərini özündə qoruyub saxlayıb. Bu gözəlliklər içərisində şəlalələr, uca dağlar, ucu-bucağı bilinməyən yaylalar xüsusi yer tutur. Cənəti görmək heç zaman gec deyil. Elə isə yolunuzu Giresuna salın...**

**Sübhan**

## Zabitə Əliyeva efirlərdən gileyəndi



**Gənc ifaçı Zabitə Əliyeva proqramların formatından gileylənib.**

Adalet.az bildirir ki, o, dəvət olunduğu proqramlarda daha çox sənətini nümayiş etdirmək istədiyini söyləyib:

"Efirlərə dəvət alıram. Əlbəttə, ifaçıyam dəvəti qəbul edib həvəslə efirə gəlirəm. Axı tamaşaçı bizi görmək istəyir. Ancaq sonra görürəm ki, mənim sənətimdən çox şəxsi işlərimlə, kiminləsə münasibətimlə maraqlanırlar. Hətta belə mövzulardan qaçmaq istəsəm də yenidən eyni mözvulara qayıdırlar. Belə halları heç sevmirəm.Biz azərbaycanlıyıq və düşünürəm ki, Azərbaycan kanallarına dəvət almalıyıq. Bizi xarici ölkələrin proqramları efirə dəvət etməli deyil ki. Çox istəyərəm ki, aparıcılar ifaçılara ancaq sənətdən sual versinlər. Onlara imkan yaratsınlar ki, ifaçılar sənət göstərsinlər".

## Röya: "Kaş o mahnını mən oxuyardım"



**Xalq artisti Röya Ayxan həmkarı Zülfiyyə Xanbabayevanın ifa etdiyi "Azərbaycan" mahnısından danışıb.**

Adalet.az bildirir ki, o, Z.Xanbabayevanın "Azərbaycan" mahnısını vətənpərvərlik mövzusunda ən gözəl mahnı hesab edib: "Mən çox mahnı oxumuşam. Hətta elə mahnılar olub ki, mənə təklif ediblər qəbul etməmişəm. Ancaq Zülfiyyə xanımın oxuduğu "Azərbaycan" mahnısını çox bəyənirəm. Kaş o mahnını Zülfiyyə yox, mən oxuyardım. Ölürəm o mahnı üçün. Onu ifa etsəydim möhtəşəm bir əsər alınacaqdı. Zülfiyyə xanım məni bağışlasın, bunu ürəyimdə saxlayan bilməzdim".

## Təranə Qumral: "Burdakılar yalançı kasıblardır"



**Müğənni Təranə Qumralın sosial şəbəkədə canlı yayımda söylədiyi fikirləri birmənalı qarşılanmayıb.**

Adalet.az xəbər verir ki, müğənni tanımadığı kasıb insana dəstək olmaq istəmədiyini söyləyib: "Deyirlər ki, kasıba əl tutmaq savabdır. Bunu mən də bilirəm. Amma kasıbın da ağlı var, kasıb olmasın. Zəhmət çəksin, işləsin, qazansın. Deyirlər ki, kasıblara əl tut. Burdakı kasıblar yalançı kasıblardır. Kasıb var ki, onun heç telefonu olmur. Amma kimsə telefonu varsa, bu gün internetə sosial şəbəkədə canlı yayıma qoşula bilirsə, ona kasıb demirəm. Mənim öz tanıdığım kasıb adamlar var ki, onlara dəstək oluram. Çünki onların həqiqətən dəstəyə ehtiyacı var. Kasıb tanıyıram ki, heç telefonu yoxdur".

**Əntiqə**

**Ağayev İsa Absat oğluna verilmiş Əfqanıstan müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

Əbülfət Mədətoğlu şair dostu **İbrahim Yusifoğluna** əzizi

**Toğrul Həsən oğlu Yusifovun**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Faiq Qismətoğlu, Asif Talıboğlu, Lətif Novruzov, Daşdəmir Əjdəroğlu **Azər Mustafayevə** bacısı

**Humay xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 262
Çapa imzalanmışdır: 15.01.2026